Xalqın qəzeti!

# Xalq qəzeti

№ 107 (31076) 20 iyun 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

Azərbaycanda daxili sabitlik xarici siyasətə uğur qazandırır



Səhifə ⇨ 5

# Azərbaycanla Dağıstanı tarixi keçmiş, sıx qohumluq, ortaq coğrafiya və ümumi gələcək birləşdirir

## *Prezident İlham Əliyev Dağıstanın tanınmış ictimai-siyasi xadimi Qurban Qurbanova "Dostluq" ordenini təqdim edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiyasının Dağıstan Respublikasının tanınmış ictimai-siyasi xadimi Qurban Qurbanovu qəbul edib və ona "Dostluq" ordenini təqdim edib.**

**Prezident İlham Əliyev** görüşdə çıxış edərək dedi:

– Hörmətli Qurban Səidoviç, Siz bu yaxınlarda yubileyinizi qeyd etmisiniz. İlk növbədə, Sizi bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə, yaxınlarınıza, ailənizə əmin-amanlıq, xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

Sizin ailəniz haqlı olaraq həm Azərbaycanda, həm də Dağıstanda böyük hörmət qazanıb. Sizin atanız, ağsaqqal, mərhum Səid Camaloviç ilə unudulmaz görüşləri həmişə xatırlayıram. Əlbəttə, biz Sizinlə Səid Camaloviçin Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu ilə dostluğunu yaxşı xatırlayırıq. Onların yaxın, səmimi münasibətləri dostluq və qardaşlıq nümunəsi idi. Azərbaycan üçün ağır zamanlarda da biz dağıstanlı qardaşlarımızın dəstəyini daim hiss edirdik.

Xatırlayırsınız, mən Prezident olanda Səid Camaloviç ilə dəfələrlə görüşmüşdük, bax, elə bu otaqda, mükafatlar təqdim etmişik. Bütün bunlar yaddaşımızdadır, bu, ortaq tarixdir. Bizi ortaq tariximiz və Azərbaycan ilə Dağıstanı bütövlükdə həm ümumi tarix, həm də sıx qohumluq bağları, ortaq coğrafiya və əminəm ki, ümumi gələcək birləşdirir. Azərbaycan və Dağıstan xalqları arasında sıx münasibətlər Qafqazda sabitliyin, inkişafın və tərəqqinin mühüm amilidir.

Həm Səid Camaloviç, həm də onun layiqli davamçısı olan Siz xalqlarımızı daha da yaxınlaşdırmaq, ümumi təhlükəsizlik və sabitlik sisteminin vacib amili olan regionlarımızın iqtisadi inkişafına və ümumilikdə insanlar arasında münasibətlərə ardıcıl töhfə vermək üçün həmişə çox iş görmüsünüz və görürsünüz.

Ağsaqqallardan söz düşmüşkən, Dağıstan və dağıstanlılar üçün çətin vaxtlarda – Böyük Vətən müharibəsi illərində respublikaya başçılıq edən və Şimali Qafqazın başqa xalqlarından fərqli olaraq dağıstanlıların repressiyalara və deportasiyalara məruz qalmaması naminə çox iş görən mənim babam Əziz Əliyevi xatırlamaya bilmərəm. Bilirəm ki, Əziz Əliyevin xatirəsi Dağıstanda çox əziz tutulur və onun inkişafa verdiyi töhfələr, ən əsası isə müharibənin çox çətin dövründə respublikaya rəhbərlik etməsi və xoş izlər qoyması, əlbəttə ki, bizim üçün və onun nəvəsi kimi mənim üçün qürur mənbəyidir.

Mənim otağımda heykəl var. Bu heykəl Mahaçqalada Əziz Əliyevin kabinetində olub. Dağıstanlılar onu qoruyub saxlayıb və bu yaxınlarda mənə bağışlayıblar. Mənim nə bu otağımda, nə də digər iş kabinetlərimdə heç bir heykəl yoxdur, təkcə bu var. Bu, təəssüf ki, mən xatırlamıram, amma həm azərbaycanlıların, həm də dağıstanlıların tarixi yaddaşında yaşayan babamın yadigarıdır. Beləliklə, bizim ortaq cəhətlərimiz çoxdur və bir daha demək istəyirəm: Dağıstan və Azərbaycan xalqları arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi bir çox hallarda bütün Qafqaz regionunun davamlı inkişafından asılıdır.

Bu gün Sizi şəxsən təbrik etməyimə çox şadam, artıq öz təbriklərimi çatdırmışam və Sizin yüksək dövlət mükafatı – "Dostluq" ordeni ilə təltif olunmağınız barədə Sərəncam imzalamışam. İndi həmin ordeni Sizə şəxsən təqdim etmək istəyirəm.

*

Dövlətimizin başçısı ordeni Qurban Qurbanova təqdim etdi.

*

**Qurban Qurbanov** dedi: "İlham Heydər oğlu, diqqətinizdən və ilk növbədə atama, qardaşıma və indi də mənə verdiyiniz yüksək mükafatdan çox təsirləndim. Haqlı olaraq qeyd etdiyiniz kimi, Heydər Əlirza oğlu ilə Səid Camaloviç arasında olan səmimi dostluğu həmişə qiymətləndirəcək və qoruyub saxlayacağıq".

Qurban Qurbanov atası ilə Ulu Öndərin səmimi münasibətlərinin Azərbaycanla Rusiya Federasiyası və Dağıstan arasında dostluğun möhkəmləndirilməsi baxımından tarixi əhəmiyyət daşıdığını dedi. O, Dağıstanda tanınmış dövlət xadimi Əziz Əliyevin xatirəsinin böyük rəğbətlə anıldığını qeyd etdi.

**Qurban Qurbanov** dedi: "Bilirsiniz, dağıstanlılar Əziz Əliyevi çox hörmətlə anır və xatırlayırlar. Mahaçqalada Əziz Əliyevin gözəl, yaxşı və möhtəşəm bir abidəsi var. Onun adını daşıyan çoxlu küçələr var. Bu, bir tarixdir, hamı onun haqqında həmişə açıq danışır və bununla fəxr edir".

Qonaq özünün və atasının Ümummilli liderlə və dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı. Dağıstanda Ulu öndərin xatirəsinə daim dərin hörmətin bəslənildiyini vurğulayan Qurban Qurbanov dahi şəxsiyyətin adının əbədiləşdirilməsi istiqamətində görülmüş işlərdən danışdı, bu xüsusda Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının nəzdində Heydər Əliyev Mərkəzinin açılışını və bu tədbirdə Dağıstan rəhbərliyinin iştirakını qeyd etdi.

***AZƏRTAC***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Tatarıstan sakinləri adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizə və ölkənizin bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, dövlətçiliyin daha da möhkəmləndirilməsi işində və çoxşaxəli sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində daim uğurlar arzulayırıq. Qoy, Azərbaycan cəmiyyətinin birliyi və quruculuqla bağlı güclü əzmi əcdadların tarixi nailiyyətlərinə dair xatirələrlə möhkəmlənərək ölkənin davamlı dinamik inkişafının və firavanlığının təminatı olsun!

Qardaş xalqlarımızın xoşməramlı əməkdaşlıq ənənələrinin gələcəkdə də sarsılmaz qalacağına, habelə Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq maraqları naminə geniş qarşılıqlı fəaliyyətin daha da inkişaf etdiriləcəyinə ümid bəsləyirik.

Sizə, yaxınlarınıza və Azərbaycan xalqına ən xoş arzularımızı çatdırıram.

**Hörmətlə,**

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya – İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

Cənubi Qafqazda güc balansının mərkəzi



Səhifə ⇨ 5

London yeni münasibətlər modeli formalaşdırır




Səhifə ⇨ 6

Odlar yurdu Orta Dəhlizin mərkəzi ölkəsidir



Səhifə ⇨ 9

Azərbaycan "Günəş reaktoru"nun şəbəkəsini genişləndirir



Səhifə ⇨ 11

Uzun sürən məcburi köçkünlük tarixdə qaldı

Səhifə ⇨ 13



# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarının və aylıq vəzifə maaşlarına diplomatik rütbəyə və təmsilçiliyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

**2** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın *məbləği"* təsdiq edilsin *(əlavə olunur)*.

**3** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın *məbləği"* təsdiq edilsin *(əlavə olunur)*.

**4** Müəyyən edilsin ki, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının yeni dövlət məvacibinin məbləği müəyyən edilənədək onlara dövlət məvacibinin ödənilməsi bu Fərmanın tətbiqinədək qüvvədə olan qaydada və məbləğdə davam etdirilir.

**5** "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşlarına əlavə pul təminatının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2935 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 646 (Cild I) ləğv edilsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**7** Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının əməyinin ödəniş pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği

| Diplomatik vəzifənin adı | Ödəniş pillələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII |
| Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi | 8245 | 8450 | 8660 | 8865 | 9070 | 9275 | 9485 |
| İdarə rəisinin müavini | 6635 | 6805 | 6970 | 7135 | 7300 | 7465 | 7635 |
| Müşavir | 6175 | 6330 | 6485 | 6635 | 6790 | 6945 | 7100 |
| Şöbə müdiri | 4970 | 5095 | 5220 | 5340 | 5465 | 5590 | 5715 |
| Birinci katib | 4625 | 4740 | 4855 | 4970 | 5085 | 5200 | 5315 |
| İkinci katib | 4300 | 4410 | 4515 | 4625 | 4730 | 4840 | 4945 |
| Üçüncü katib | 4000 | 4100 | 4200 | 4300 | 4400 | 4500 | 4600 |
| Attaşe | 3720 | 3815 | 3910 | 4000 | 4095 | 4185 | 4280 |

**Qeyd:**

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 14.2.1.1-ci və 14.2.1.2-ci maddələrində təsbit olunan xarici işlər nazirinin və onun müavinlərinin diplomatik vəzifələri üzrə aylıq vəzifə maaşlarının məbləği "Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 625 nömrəli Fərmanı ilə müəyyən edilir.

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın məbləği

| **Diplomatik rütbənin adı** | **Aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqq (manatla)** |
|---|---|
| Fövqəladə və səlahiyyətli səfir | 550 |
| Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi | 500 |
| İkinci dərəcəli fövqəladə və səlahiyyətli elçi | 450 |
| Birinci dərəcəli müşavir | 400 |
| İkinci dərəcəli müşavir | 350 |
| Birinci dərəcəli birinci katib | 300 |
| İkinci dərəcəli birinci katib | 275 |
| Birinci dərəcəli ikinci katib | 260 |
| İkinci dərəcəli ikinci katib | 250 |
| Üçüncü katib | 225 |
| Attaşe | 200 |

**Qeyd:**

**1.** Diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına diplomatik rütbəyə görə əlavə haqqın verilməsi dövlət büdcəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra – Nazirlik) saxlanılması xərclərində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir. Bu məqsədlə hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Nazirlik üzrə baza aylıq vəzifə maaşlarının (birinci ödəniş pilləsi) 0,8 misli həcmində vəsait Nazirliyin saxlanılması xərclərinin tərkibinə daxil edilir.

**2.** Aylıq vəzifə maaşına diplomatik rütbəyə görə əlavə haqq, diplomatik xidmət əməkdaşına diplomatik rütbənin verildiyi aydan sonrakı ayın 1-dən başlayaraq, hər ay vəzifə maaşı ilə birlikdə ödənilir.

**3.** Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi artırıldıqda əvvəlki diplomatik rütbəyə görə əlavə haqqın verilməsi növbəti ayın 1-dən dayandırılır.

**4.** Diplomatik xidmət əməkdaşının əvvəlki diplomatik rütbəsi bərpa olunduqda, həmin diplomatik rütbəyə görə aylıq vəzifə maaşına əlavə haqqın verilməsi növbəti ayın 1-dən başlayaraq həyata keçirilir.

**5** Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi aşağı salındıqda, əvvəlki diplomatik rütbəyə görə aylıq vəzifə maaşına əlavə haqqın verilməsi dərhal dayandırılır.

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın məbləği

| **Diplomatik vəzifənin adı** | **Aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqq (manatla)** |
|---|---|
| Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi | 400 |
| **İdarə rəisinin müavini** | 330 |
| Müşavir | 310 |
| **Şöbə müdiri** | 250 |
| Birinci katib | 230 |
| **İkinci katib** | 220 |
| **Üçüncü katib** | 200 |
| Attaşe | 180 |

**Qeyd:**

**1.** Diplomatik xidmət əməkdaşlarının (xarici işlər naziri və onun müavinləri istisna olmaqla) aylıq vəzifə maaşlarına təmsilçiliyə görə əlavə haqqın verilməsi dövlət büdcəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin saxlanılması xərclərində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

**2.** Aylıq vəzifə maaşına təmsilçiliyə görə əlavə haqq, diplomatik xidmət əməkdaşına diplomatik rütbənin ilk dəfə verildiyi aydan sonrakı ayın 1-dən başlayaraq, hər ay vəzifə maaşı ilə birlikdə ödənilir.

# Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri əsasında əhatəliliyin artırılması məqsədilə **qərara alıram:**

1. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli tətbiq edilsin.

2. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli üzrə dövlət dəstəyinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsait hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər növbəti maliyyə ili üzrə məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi üçün tələb olunan məqsədli vəsaitin həcmini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

# "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanununun tətbiqi və "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci, 12.2-1–12.2-3-cü, 12.2-6-cı maddələrində, 22.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 28.1.10-cu və 28.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 22.1-ci maddəsinin birinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 28.1.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 12.1-ci, 12.2-1–12.2-3-cü, 12.2-6-cı və 28.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 416-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 123) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddən ", 10.7-ci" sözləri çıxarılsın və həmin bəndə "12.3-cü" sözlərindən əvvəl "12.2-1–12.2-3-cü, 12.2-6-cı," sözləri, "22.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(hər iki halda)" sözləri, "28.1.4-cü," sözlərindən sonra "28.1.10-cu, 28.3-cü," sözləri əlavə edilsin;

3.2. 1.2-ci bəndə "(ikinci halda) maddələrində," sözlərindən sonra "22.1-ci maddəsinin birinci cümləsində (birinci halda)," sözləri əlavə edilsin;

3.3. 1.3-cü bənddə "və 25.4-cü" sözləri ", 25.4-cü və 28.1.10-cu" sözləri ilə əvəz edilsin;

3.4. 1.5-ci bənddən ", 10.7-ci" sözləri çıxarılsın və həmin bəndə "12.3-cü" sözlərindən əvvəl "12.2-1–12.2-3-cü, 12.2-6-cı," sözləri, "22.1-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(ikinci halda)" sözləri, "28.1.4-cü," sözlərindən sonra "28.3-cü," sözləri əlavə edilsin.

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

# Azərbaycan Respublikası Prezidentinin "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117, № 3, maddələr 223, 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.1-ci bənddə "ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin, gömrük idarələrinin və gömrük postlarının" sözləri "Komitənin strukturuna daxil olan gömrük orqanlarının" sözləri ilə əvəz edilsin;

1.2. 7.2-ci bənddə "ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin idarə, şöbə və bölmə" sözləri "Komitənin strukturuna daxil olan gömrük orqanlarının rəisləri, həmin gömrük orqanlarının idarə, mərkəz, şöbə (bölmə), post" sözləri ilə, "böyük inspektorlar" sözləri "baş müstəntiqlər, baş təhqiqatçılar, böyük inspektorlar, böyük müstəntiqlər, böyük təhqiqatçılar" sözləri ilə əvəz edilsin və həmin bənddən "gömrük postlarının rəisləri," sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 aprel tarixli 643 nömrəli, 6 may tarixli 660 nömrəli və 2 iyun tarixli 676 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 14-1-ci hissə əlavə edilsin:

"14-1. Məcəllənin 212-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

14-1.1. elektron siqaretlərin və ya onların komponentlərinin idxalına və ixracına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

14-1.2. elektron siqaretlərin və ya onların komponentlərinin istehsalına, topdan və ya pərakəndə satışına və ya satış məqsədilə saxlanılmasına münasibətdə:

14-1.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından – bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

14-1.2.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

2.2. 46.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"46.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Komitə Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, onun müavinləri, həmin Baş İdarənin idarə, şöbə (bölmə) rəisləri, Komitənin strukturuna daxil olan gömrük orqanlarının rəisləri, onların müavinləri, həmin gömrük orqanlarının idarə, mərkəz, şöbə (bölmə), post rəisləri, onların müavinləri, baş inspektorlar, baş müstəntiqlər, baş təhqiqatçılar, böyük inspektorlar, böyük müstəntiqlər, böyük təhqiqatçılar, müstəntiqlər və təhqiqatçılar;".

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” 2013-cü il 4 iyul tarixli 936 nömrəli, “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2016-cı il 20 aprel tarixli 877 nömrəli və “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri”nin təsdiq edilməsi haqqında” 2024-cü il 1 fevral tarixli 2462 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddələr 1018, 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.9-cu bənddən “164.1.26-cı,” sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 1.9-1-ci bənd əlavə edilsin:

“1.9-1. həmin Məcəllənin 164.1.26-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi təyinatlı məhsulların istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, digər layihələrə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.”.

**2** “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661, № 12 (II kitab), maddə 1371; 2025, № 12 (I kitab), maddə 1154; 2026, № 2, maddə 125) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.5-ci bənddən “20.0.17-ci (ikinci halda) və” sözləri çıxarılsın və həmin bənddə “maddələrində” sözü “maddəsində” sözü ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 3.5-3-cü bənd əlavə edilsin:

“3.5-3. həmin Qanunun 20.0.17-ci (ikinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi təyinatlı məhsulların istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, digər layihələrə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.”.

**3** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 877 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 682; 2019, № 2, maddə 241; 2022, № 8, maddə 858, № 12, maddə 1423; 2023, № 7, maddə 972) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə üzrə:

3.1.1. 2.1-ci bəndə “olaraq,” sözündən sonra “Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri”nin 10-cu hissəsi üzrə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə, digər hissələri üzrə isə” sözləri əlavə edilsin və həmin bənddə “Nazirlik” sözü “qurumlar” sözü ilə əvəz edilsin;

3.1.2. 2.3-cü bənd üzrə:

3.1.2.1. birinci cümlədə “Nazirlik” sözü “qurumlar” sözü ilə əvəz edilsin;

3.1.2.2. ikinci cümlədə “Nazirlik” sözü “qurumlar” sözü ilə, ikinci halda “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin cümləyə “Komitəsinə” sözündən sonra “və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə” sözləri əlavə edilsin;

3.1.3. 2.4-cü bənddə “Nazirlik” sözü “qurumlar” sözü ilə əvəz edilsin;

3.1.4. 2.5-ci bənddə “Nazirliyə” sözü “qurumlara” sözü ilə əvəz edilsin;

3.2. 3-cü hissə üzrə:

3.2.1. 3.1.2-ci yarımbənddə “Nazirlik” sözü “qurumlar” sözü ilə əvəz edilsin;

3.2.2. 3.3-cü bənddə “Nazirlik” sözü “qurumlar” sözü ilə, “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin cümləyə “Komitəsinə” sözündən sonra “və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə” sözləri əlavə edilsin.

**4** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 143 (Cild I); 2026, № 2, maddə 114) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

“1-1. Bərpaolunan enerji mənbələri hesabına enerji istehsalı üçün istifadə edilən avadanlığın istehsalı layihələri”;

4.2. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

“7. Azərbaycan Respublikasında istehsalı olmayan məhsulların yerli istehsalının təşkili layihələri”;

4.3. 10-cu hissənin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 11 – 16-cı hissələr əlavə edilsin:

“11. Aqroparklarda həyata keçirilən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı layihələri

12. Kənd təsərrüfatında istifadə olunan gübrələrin, pestisidlərin, toxum və yem məhsullarının istehsalı layihələri

13. Kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və qablaşdırılması layihələri

14. Avtomatlaşdırılmış iqlimə nəzarət sistemləri ilə təchiz edilmiş dördüncü nəsil istixana komplekslərinin (minimum 3 hektar) yaradılması layihələri

15. Kənd təsərrüfatı təyinatlı texnikaların, habelə elevator, taxıl silosu, soyuducu anbar, çeşidləmə, saxlanma və qablaşdırma avadanlığının istehsalı layihələri

16. İnformasiya və kommunikasiya texnologiyaları üzrə sənaye məhsullarının istehsalı layihələri.”.

**5** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

---

## Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 iyun 2026-cı il**

---

“Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası”na

**1 nömrəli əlavə**

## Subsidiyalaşdırmanın şamil edildiyi sənaye və kənd təsərrüfatı sahələrinin

## SİYAHISI

Bitkiçilik və heyvandarlıq, ovçuluq
Balıqçılıq və balıqartırma
Qida məhsulları istehsalı
İçki istehsalı
Tütün məmulatları istehsalı
Toxuculuq sənayesi
Geyim istehsalı
Dəri və dəri məmulatları, ayaqqabı istehsalı
Mebeldən başqa, ağacın emalı və ağacdan məmulatlar və tıxac istehsalı, hopdurma və hörmə materiallar istehsalı
Kağız və karton istehsalı
Kimya sənayesi
Əczaçılıq məhsulları istehsalı
Rezin və plastik məmulatlar istehsalı
Digər qeyri-metal mineral məhsulların istehsalı
Metallurgiya sənayesi
Maşın və avadanlıqdan başqa, hazır metal məmulat istehsalı
Kompüter, elektron və optik məhsullar istehsalı
Elektrik avadanlığı istehsalı
Maşın və avadanlıq istehsalı
Avtomobil, qoşqu və yarımqoşqu istehsalı
Sair nəqliyyat vasitələrinin istehsalı
Mebel istehsalı
Digər sənaye məhsullarının istehsalı

---

## Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2** Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq, sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən ödənişin 50 (əlli) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilir;

2.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan subsidiya bu Fərman qüvvəyə mindikdən sonra elektrik şəbəkəsinə qoşulan sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinə şamil edilir.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan subsidiyanın 2027–2030-cu illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq, elektrik şəbəkəyə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılmasını təşkil etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5** Bu Fərman 2027-ci il yanvarın 1-dən qüvvəyə minir və 2030-cu il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

---

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması

## QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən ödənişin 50 (əlli) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilməsi ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Subsidiyalaşdırma yalnız bu Qaydanın 1 nömrəli əlavəsində nəzərdə tutulan sənaye və kənd təsərrüfatı sahələri üzrə tikinti obyektlərinə şamil edilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**2. Subsidiyalaşdırma şərtləri**

2.1. Bu Qaydanın 1.1-ci bəndində nəzərdə tutulan subsidiya məbləği sahibkarın müraciəti əsasında ödənilir.

2.2. Elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişlər aşağıdakı şərtlər əsasında subsidiyalaşdırılır:

2.2.1. hüquqi şəxslərə münasibətdə – nizamnamə kapitalında dövlətin iştirak payı 30 (otuz) faizdən az olduqda;

2.2.2. sahibkar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə uyğun olaraq riskli vergi ödəyicisi olmadıqda;

2.2.3. sahibkarın Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmadıqda;

2.2.4. bu Qaydanın 3.2-ci bəndinə uyğun olaraq təqdim edilmiş sənədlərdə uyğunsuzluq aşkarlanmadıqda.

**3. Subsidiyanın verilməsi üçün müraciət və ona baxılması**

3.1. Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması ötürücü sistem operatorunun və ya paylayıcı sistem operatorunun təqdim etdiyi və tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına görə sahibkar tərəfindən ödəniş faktını təsdiq edən arayış əsasında həyata keçirilir.

3.2. Sahibkar (bundan sonra – ərizəçi) subsidiyanın alınması üçün bu Qaydanın 2 nömrəli əlavəsində nəzərdə tutulan ərizəni Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (bundan sonra – Nazirlik) şəxsən təqdim edir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərir. Ərizəyə tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına görə ödəniş edildiyi faktını təsdiq edən arayış və ərizəçi tərəfindən nağdsız ödənişi təsdiq edən sənəd əlavə olunur.

3.3. Bu Qaydanın 3.2-ci bəndinin ikinci cümləsində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

3.4. Müraciətlərə baxılması və ödənişin subsidiyalaşdırılması ilə bağlı fəaliyyətin təşkili və qərar qəbul edilməsi Nazirlik tərəfindən həyata keçirilir.

3.5. Nazirlik daxil olmuş müraciətə baxarkən “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununu və bu Qaydanın tələblərini rəhbər tutur.

3.6. Ərizədə və ona əlavə edilmiş sənədlərdə imtinaya səbəb olmayan çatışmazlıqlar aşkarlandıqda, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat ərizəçiyə təqdim edilir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman bu Qaydanın 3.9-cu bəndində nəzərdə tutulmuş ödənişin subsidiyalaşdırılmasına dair qərar verilməsi ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.7. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkarlanmış çatışmazlıqları bu Qaydanın 3.6-cı bəndinin ikinci cümləsində göstərilən müddətdə aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edildikdən sonra bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən təqdim olunur və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir. Ərizəçi ödənişin subsidiyalaşdırılması üçün təkrar ərizə ilə Nazirliyə müraciət edə bilər.

3.8. Nazirlik tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması faktının təsdiqi üçün ötürücü sistem operatoruna və ya paylayıcı sistem operatoruna sorğu göndərir. Sorğu daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində həmin qurumlar tərəfindən cavablandırılmalıdır.

3.9. Nazirlik bu Qaydanın 3.8-ci bəndində qeyd edilən sorğunun nəticələrinə əsasən, ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günü müddətində müraciətin bu Qaydanın 2.2-ci bəndi ilə müəyyən edilmiş subsidiyalaşdırma şərtlərinə uyğunluğunu yoxlamaqla, elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılmasına və ya subsidiyalaşdırılmadan imtinaya dair qərar qəbul edir, bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən təqdim edilir və ya poçt vasitəsilə, yaxud elektron formada göndərilir.

3.10. Ödənişin subsidiyalaşdırılmasından imtina haqqında inzibati akt bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş şərtlərə istinad edilməklə əsaslandırılmalıdır. Ərizəçi inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**4** Subsidiyanın ödənilməsi

4.1. Subsidiyanın verilməsi ilə bağlı müsbət qərar qəbul edildiyi halda Nazirlik subsidiyanın ödənilməsi ilə əlaqədar bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq ödəniş sifarişini müvafiq qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir.

4.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi 2 (iki) iş günü müddətində təqdim edilmiş ödəniş sifarişi əsasında subsidiya məbləğinin ərizəçinin bank hesabına köçürülməsini təmin etməlidir.

*“Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası”na*

**2 nömrəli əlavə**

## ƏRİZƏ

____________Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə____________

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin adı / fərdi sahibkarın soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, FİN kodu:

– –

1.2. Hüquqi şəxsin hüquqi ünvanı / fərdi sahibkarın ünvanı:

– –

1.3. Hüquqi şəxsin / fərdi sahibkarın VÖEN-i:

– –

1.4. Bank rekvizitləri:

– –

1.5. Əlaqə telefonu:

– –

1.6. Elektron poçtu (vardırsa):

– –

1.7. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin (vardırsa):

1.7.1. soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, FİN kodu:

– –

1.7.2. ünvanı:

– –

1.7.3. əlaqə telefonu:

– –

1.7.4. elektron poçtu (vardırsa):

– –

1.7.5. etibarnamə haqqında məlumatlar:

– –

1.8. Layihənin adı:

– –

1.9. Layihənin həyata keçirildiyi iqtisadi fəaliyyət növü:

– –

1.10. Layihənin həyata keçirildiyi ünvan:

– –

**Qeyd.** Ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda, etibarnamə əlavə edilir.

2. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin

– –
(vəzifəsi, soyadı, adı, atasının adı)

3. Ərizənin tərtib edildiyi tarix ________________________________________
(gün, ay, il)

4. Hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin / fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin imzası və möhürü (vardırsa).

M.Y .

---

*“Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin subsidiyalaşdırılması Qaydası”na*

**3 nömrəli əlavə**

## Sənaye və kənd təsərrüfatı üzrə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə sahibkara ödənilməli olan subsidiya məbləğinə dair

**ÖDƏNİŞ SİFARİŞ**

| Sahibkar barədə məlumat | | | Ödəniləcək subsidiyanın məbləği |
|---|---|---|---|
| Hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı və atasının adı | VÖEN-i | Bank rekvizitləri | |
| | | | |

Azərbaycan Respublikası İqtisadiyyat

Nazirliyinin vəzifəli şəxsi:

______ ____________________

(imza) (vəzifəsi, soyadı, adı, atasının adı)

M.Y.

Tarix: ____________________________

(gün, ay, il)

# DİN-də xidmətə qəbulun sıra baxışı



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iyunun 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 158 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# XİN-də xarici diplomatlarla görüşlər



**İyunun 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qəmər Adaları İttifaqının maliyyə, büdcə və bank sektoru naziri Moussa Abderemane ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Qəmər Adaları İttifaqı arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub. Tərəflər xüsusilə beynəlxalq təşkilatlar və platformalar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Tərəflər, həmçinin Cənub-Cənub əməkdaşlığı çərçivəsində inkişaf edən əlaqələrin daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər. Azərbaycanın bu platforma daxilində az inkişaf etmiş ölkələr ilə əməkdaşlığın təşviqi istiqamətində səyləri yüksək qiymətləndirilib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemannla ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Almaniya arasında mövcud ikitərəfli münasibətlərin vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, enerji təhlükəsizliyi, yaşıl enerji, nəqliyyat-kommunikasiya, təhsil, səhiyyə və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafının əhəmiyyəti vurğulanıb.

Tərəflər Azərbaycan ilə Almaniya arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərin inkişafına verdiyi töhfəni qeyd edərək, əməkdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensialı müzakirə ediblər.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Malayziyanın Azərbaycandakı səfiri Ahmad Kamrizamil Bin Mohd Rza ilə ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Malayziya arasında dostluq və əməkdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər siyasi dialoqun inkişafı, qarşılıqlı səfərlərin və təmasların intensivləşdirilməsinin, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinin, enerji, təhsil, turizm, humanitar və mədəniyyət sahələrində əməkdaşlığın təşviqinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə Azərbaycan və Malayziya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

***XQ***

***Beynəlxalq həyat***

# İsveçrə görüşü niyə baş tutmadı?

## *Tərəflərin mövqeyi və daxildə fikir ayrılığı*

**ABŞ və İran arasında 3 aydan artıq davam edən münaqişənin dayandırılması məqsədilə əldə olunmuş müvəqqəti razılaşmanın aqibəti ilə bağlı qeyri-müəyyənlik artır. Dünən İsveçrədə keçirilməsi nəzərdə tutulan növbəti danışıqların təxirə salınması tərəflərin qalıcı sülh sazişinə nail olmaq yolunda qarşılaşdığı çətinlikləri bir daha gündəmə gətirdi.**



Məlumata görə, ABŞ və İran nümayəndələrinin İsveçrədə görüşü üçün hazırlıqlar geniş şəkildə aparılsa da, hər iki tərəfdən yüksək səviyyəli rəsmilərin iştirak etməməsi planların dəyişməsinə səbəb olub. Yaranmış vəziyyət danışıqların davam etdirilməsi ilə bağlı suallar doğursa da, tərəflər arasında əlaqələrin tamamilə kəsildiyinə dair rəsmi açıqlama verilməyib.

### ABŞ-da qeyri-müəyyənlik

Ağ Ev nümayəndələrinin açıqlamalarına görə, görüşün təxirə salınması “təşkilati və logistika məsələləri” ilə bağlıdır. Lakin analitiklər bu izahın əsl mənzərəni əks etdirmədiyini düşünürlər. ABŞ administrasiyası daxilində İranla aparılan danışıqların tempi və formatı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bir qrup daha sürətli diplomatik nəticələr əldə olunmasının tərəfdarı olduğu halda, digər qrup ehtiyatlı və mərhələli yanaşmanı müdafiə edir. Vitse-prezident Ceyms Devid Vensin səfərinin ləğvi də daxili balansın dəyişməsi kimi şərh edilir.

Bundan başqa, ABŞ siyasi rəhbərliyinin ictimai mesajların vahid olması ilə bağlı həssaslığı da diqqət çəkir. Son dövrlər yayılan məlumatlara görə, prezident Donald Tramp administrasiyanın bütün üzvlərinin İranla bağlı eyni ritorikadan istifadə etməsini vacib hesab edir. Bu, danışıqların diplomatik gedişinə təsir edən kommunikasiya intizamı yaradır.

### İranın ehtiyatlı mövqeyi

İranın mövqeyi prosesin təxirə düşməsində mühüm rol oynayıb. Tehran rəsmiləri müvəqqəti razılaşmanın icrası ilə bağlı ABŞ və müttəfiqlərinin konkret addımlar atmasını gözlədiklərini bildiriblər. İranın baş danışıqçıları səviyyəsində iştirakla bağlı qeyri-müəyyənlik müşahidə olunub. Bu isə görüşün siyasi səviyyəsini aşağı sala və danışıqların effektivliyini azalda bilərdi. İran tərəfi xüsusilə nüvə proqramı, sanksiyaların yumşaldılması və iqtisadi təminatlar məsələsində daha aydın zəmanətlər tələb edir. Tehran həmçinin hesab edir ki, əvvəlki mərhələlərdə əldə olunan razılaşmaların icrası tam təmin olunmadan yeni öhdəliklərə keçmək risklidir. Bu yanaşma danışıqlar prosesində ehtiyatlılıq və mərhələlilik prinsipini ön plana çıxarır.

### Bəs Livan?

Danışıqların təxirə düşməsinə təsir edən xarici amillərdən biri də Yaxın Şərqdə artan gərginlikdir. Xüsusilə Livanda İsrail və “Hizbullah” arasında döyüşlərin yenidən şiddətlənməsi diplomatik mühitə ciddi təsir göstərib. Son günlər tərəflər arasında qarşılıqlı hücumlar nəticəsində həm hərbi, həm də mülki itkilərin olduğu bildirilir. Livan rəsmilərinin açıqlamalarına görə, hava zərbələri nəticəsində onlarla insan həyatını itirib. İsrail tərəfi isə öz növbəsində sərhəd bölgələrindəki hücumlara cavab verdiyini bildirir. Bu vəziyyət ABŞ–İran danışıqlarının əsas prinsiplərindən biri olan “regional hərbi əməliyyatların dayandırılması” şərtinin icarsını  çətinləşdirir. Çünki İsrail danışıqların rəsmi tərəfi olmasa da, regiondakı hərbi dinamika prosesə birbaşa təsir göstərir.

Yeri gəlmişkən, ABŞ və İran prezidentləri tərəfindən imzalanmış 14 bəndlik memorandum müharibənin dayandırılması istiqamətində mühüm addım sayılır. Sənədə əsasən, ən mübahisəli məsələlərdən biri hesab olunan İranın nüvə proqramı və digər strateji mövzular növbəti mərhələdə müzakirə olunacaq. Tərəflərə bu məsələlər üzrə razılığa gəlmək üçün 60 gün müddət verilib. Bununla yanaşı, regiondakı təhlükəsizlik vəziyyəti danışıqların gələcəyinə təsir göstərə biləcək əsas amillərdəndir. Analitiklər hesab edirlər ki, Livan cəbhəsində vəziyyətin pisləşməsi ABŞ və İran arasında əldə ediləcək hər hansı uzunmüddətli razılaşmanın həyata keçirilməsini çətinləşdirə bilər.

Hazırkı mərhələdə ABŞ–İran danışıqlarının gələcəyi qeyri-müəyyən olaraq qalır, lakin prosesin tamamilə dayanması ehtimalı zəifdir. Ən real ssenari danışıqların yaxın həftələr və ya aylar ərzində yenidən, lakin daha məhdud formatda bərpa olunmasıdır. Bu halda əvvəlcə texniki formatda görüşlər keçirilə, daha sonra isə siyasi səviyyədə danışıqlara keçid edilə bilər.

Dünən axşam saatlarında Ağ Evin yüksək çinli rəsmisinin verdiyi məlumata görə, İsrail və “Hizbullah” arasında atəşkəs razılaşması əldə olunub.

***N.BEYDİYEVA***
***XQ***

# Azərbaycanda daxili sabitlik xarici siyasətə uğur qazandırır

## 35 illik müstəqillik təcrübəsi və yeni geosiyasi gerçəklik

**XXI əsrin geosiyasi reallığı göstərir ki, dövlətlərin davamlı inkişafını müəyyən edən əsas amillərdən biri siyasi sabitlikdir. Dünyada münaqişələrin, iqtisadi böhranların, enerji və ərzaq təhlükəsizliyi problemlərinin, geosiyasi rəqabətin dərinləşdiyi bir dövrdə sabitlik strateji milli resursa çevrilib.**

Prezident İlham Əliyevin Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində səsləndirdiyi fikir məhz bu reallığın siyasi fəlsəfəsini ifadə edir: "Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik – yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik – nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir".

Azərbaycanın müstəqillik tarixinə bugünkü geosiyasi reallıqlar prizmasından baxdıqda aydın görünür ki, ölkənin inkişaf trayektoriyasını müəyyən edən əsas amil məhz sabitliyin qorunması olub. Son otuz beş ilin təcrübəsi göstərir ki, inkişaf ardıcıl siyasi kursun, davamlı dövlət idarəçiliyinin və milli maraqlara söykənən strateji qərarların nəticəsidir. Müstəqilliyin ilk iki ili ölkənin tarixində ən mürəkkəb və taleyüklü mərhələ idi. Dövlət institutlarının zəifliyi, Ermənistanın hərbi təcavüzü, ərazilərin işğalı, yüz minlərlə insanın doğma yurdlarından didərgin düşməsi, dərin iqtisadi böhran Azərbaycanın dövlətçilik əsaslarını ciddi təhlükə qarşısında qoymuşdu. Bu şəraitdə nə uzunmüddətli iqtisadi proqramlardan, nə xarici investisiyalardan, nə də beynəlxalq nüfuzun artmasından danışmaq mümkün idi. Çünki dövlətin qarşısında duran əsas vəzifə ilk növbədə müstəqilliyini və dövlətçiliyini qoruyub saxlamaq idi.




### Milli maraqlara əsaslanan tərəqqi

Sonrakı dövrdə tamamilə fərqli siyasi mənzərə formalaşdı. Dövlət idarəetməsində institusional sabitliyin təmin edilməsi, hüquqi və inzibati mexanizmlərin möhkəmləndirilməsi, iqtisadi islahatların ardıcıl şəkildə həyata keçirilməsi və milli maraqlara əsaslanan siyasi kurs Azərbaycanın inkişaf modelinin əsasını təşkil etdi. Bu gün Azərbaycanın beynəlxalq layihələrdə aparıcı mövqeyə malik olması, iri investisiya layihələrinin məhz ölkə ərazisində reallaşdırılması və qlobal enerji-logistika marşrutlarının əsas iştirakçılarından biri kimi çıxış etməsi həmin sabit inkişaf xəttinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqillik tarixinin ilk iki ili istisna olmaqla, sonrakı dövr sabit inkişaf mərhələsi kimi xarakterizə olunur. Çünki ötən onilliklər ərzində ölkədə həyata keçirilən iri infrastruktur layihələri, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar, beynəlxalq maliyyə institutları ilə uğurlu əməkdaşlıq, sosial rifahın yüksəldilməsi və dövlətin beynəlxalq nüfuzunun artması məhz sabit siyasi mühitin yaratdığı imkanlar hesabına mümkün olmuşdur. Diqqətçəkən məqamlardan biri də odur ki, Azərbaycan sabitliyi inkişafın strateji platforması kimi formalaşdırmağa nail olub. Dünyanın müxtəlif regionlarında siyasi böhranların iqtisadi tənəzzülə, sosial gərginliyə və geosiyasi asılılığa gətirib çıxardığı bir dövrdə Azərbaycan ardıcıl inkişaf tempini qoruyub saxlayaraq fərqli model nümayiş etdirib. Məhz bu səbəbdən Azərbaycanın son otuz ildən artıq dövrdə qazandığı uğurların təməlində sabit dövlətçilik amili dayanır.

### Siyasət inkişafa yol açır

Dövlətlərin iqtisadi uğurları təhlil edilərkən diqqət daha çox təbii sərvətlərə, maliyyə imkanlarına və ya həyata keçirilən iri infrastruktur layihələrə yönəlir. Lakin bu göstəricilər inkişafın nəticələridir, onun ilkin səbəbi deyil. İqtisadi tərəqqinin arxasında dayanan əsas amil siyasi sabitlikdir. Məhz sabit siyasi mühit uzunmüddətli iqtisadi strategiyaların ardıcıl həyata keçirilməsinə, institusional davamlılığın təmin olunmasına və dövlətin etibarlı tərəfdaş imicinin formalaşmasına imkan yaradır.

Müasir geosiyasi reallıqlar göstərir ki, qlobal kapital ilk növbədə sabitlik axtarır. Beynəlxalq investorlar üçün investisiya qərarını müəyyən edən əsas meyar təkcə iqtisadi göstəricilər deyil, həm də siyasi risklərin səviyyəsidir. Hakimiyyət böhranlarının, daxili qarşıdurmaların və idarəetmədə qeyri-müəyyənliyin hökm sürdüyü ölkələrdə uzunmüddətli kapital yatırımları minimuma enir. Çünki iri investisiyalar onilliklərə hesablanır və investorlar üçün zəruri təminat dövlət siyasətinin davamlılığı, hüquqi mühitin sabitliyi və proqnozlaşdırıla bilən şəraitdir. Azərbaycanın son otuz ildən artıq müddətdə reallaşdırdığı strateji layihələr də məhz bu reallığın təsdiqidir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, eləcə də Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri yalnız böyük maliyyə resurslarının hesabına ərsəyə gəlməyib. Bu layihələrin əsas təminatçısı illər boyu qorunub saxlanılan siyasi sabitlik, ardıcıl dövlət siyasəti və beynəlxalq tərəfdaşların Azərbaycana duyduğu etimad olub. Məhz bu etimad nəticəsində ölkə uzunmüddətli regional layihələrin təşəbbüskarı və etibarlı icraçısı kimi qəbul edilir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən siyasət də sabit idarəetmə modelinə söykənir. Enerji sektorundan asılılığın azaldılması, nəqliyyat-logistika potensialının genişləndirilməsi, qeyri-neft sənayesinin inkişafı və rəqəmsal iqtisadiyyatın təşviqi kimi strateji hədəflər qısamüddətli qərarlarla deyil, uzunmüddətli dövlət planlaşdırması əsasında həyata keçirilir.

Xarici investor üçün cəlbedici amil təkcə vergi güzəştləri və ya iqtisadi stimullar deyil, investisiyanın təhlükəsizliyidir. İnvestor əmin olmalıdır ki, imzaladığı müqavilələr sabah dəyişməyəcək, dövlətin strateji kursu qorunacaq və biznes mühiti kəskin siyasi sarsıntılardan təsirlənməyəcək. Azərbaycan məhz bu baxımdan Cənubi Qafqazda ən etibarlı və proqnozlaşdırıla bilən investisiya məkanlarından biri kimi mövqeyini möhkəmləndirib.

### Sabitlik suverenliyi möhkəmləndirir

Bugünkü geosiyasi reallıqda sabitlik dövlətin xarici siyasətdə müstəqil qərarvermə imkanlarını müəyyən edən əsas strateji üstünlüklərdən birinə çevrilib. Daxildə siyasi, iqtisadi və sosial dayanıqlığı təmin edə bilməyən ölkələrin xarici siyasəti də əksər hallarda xarici təsirlərə daha açıq olur, onların manevr imkanları məhdudlaşır və milli maraqları qorumaq qabiliyyəti zəifləyir.

Prezident İlham Əliyevin İslam İnkişaf Bankı Qrupunun İllik Toplantısındakı çıxışında xüsusi vurğuladığı məqamlardan biri də məhz bu siyasi məntiqə əsaslanır. Azərbaycanın əldə etdiyi sabitlik həm də müstəqil xarici siyasətin möhkəm dayağı kimi çıxış edir. Milli maraqlara söykənən xarici siyasət kursu ölkəyə beynəlxalq münasibətlər sistemində balanslaşdırılmış əməkdaşlıq modeli formalaşdırmağa imkan verib. Azərbaycan müxtəlif geosiyasi mərkəzlərlə münasibətlərini qarşılıqlı maraqlar, etibarlılıq və praqmatik əməkdaşlıq prinsipləri əsasında quraraq özünü regional və qlobal səviyyədə etibarlı tərəfdaş kimi təsdiqləyib. Çoxvektorlu xarici siyasətin nəticəsi olaraq Azərbaycan eyni zamanda İslam Əməkdaşlıq Təşkilatında, Türk Dövlətləri Təşkilatında, Avropa institutları ilə əməkdaşlıq platformalarında və digər beynəlxalq formatlarda fəal iştirak edən, fərqli siyasi və iqtisadi məkanlar arasında etimad körpüsü rolunu oynayan dövlətə çevrilib.

Prezident İlham Əliyevin çıxışında xatırlatdığı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlük seçkilərində Azərbaycanın 155 dövlətin dəstəyini qazanması da bu baxımdan siyasi məna daşıyır. BMT-yə üzv dövlətlərin böyük əksəriyyətinin eyni mövqedən çıxış etməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı, məsuliyyətli və proqnozlaşdırılan tərəfdaş kimi qəbul olunduğunu göstərirdi.

Beynəlxalq siyasətdə etimad qısa müddətdə formalaşmır. Dövlətlərin bir-birinə münasibəti ilk növbədə onların davranışlarının ardıcıllığı, öhdəliklərinə sadiqliyi və siyasi kursunun davamlılığı ilə müəyyən olunur. Bu baxımdan Azərbaycanın son otuz ildən artıq dövrdə nümayiş etdirdiyi sabit inkişaf modeli onun xarici siyasətdə də etibarlı aktor kimi qəbul edilməsinə zəmin yaradıb. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, humanitar təşəbbüslər və çoxtərəfli diplomatiya sahəsində ölkənin üzərinə götürdüyü öhdəlikləri ardıcıl şəkildə yerinə yetirməsi beynəlxalq tərəfdaşların Azərbaycana olan inamını möhkəmləndirib.



Sonda onu da qeyd edək ki, bu gün Azərbaycanın ən mühüm strateji kapitalı milli maraqlara söykənən müstəqil siyasət, güclü dövlət institutları, ictimai həmrəylik və uzunmüddətli sabitlik üzərində qurulmuş inkişaf modelidir. Qlobal geosiyasi transformasiyaların davam etdiyi indiki mərhələdə bu inkişaf modeli ölkəyə yeni çağırışları idarə, yaranan imkanlardan səmərəli istifadə etmək və Cənubi Qafqazın siyasi-iqtisadi arxitekturasının formalaşmasında lider rolunu qorumaq üçün möhkəm strateji baza yaradır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Cənubi Qafqazda güc balansının mərkəzi

**Ənənəvi güc mərkəzləri regionda yaranmış sabitlik və sülh perspektivini qlobal təhlükəsizlik prosesinin əsas qarantı kimi dəyərləndirirlər. Bu kontekstdə Qərb diplomatiyasının Cənubi Qafqaz istiqamətində yürütdüyü siyasətdə pozitiv dəyişikliklər müşahidə edilir. Böyük Britaniyanın və Danimarka Krallığının Azərbaycandakı səfirlərinin dilindən səslənən fikirlər yaranmış yeni siyasi mənzərənin təsdiqidir. Qlobal güclər dayanıqlı sülhün və strateji tərəfdaşlığın institusional əsaslarını qurmağa çalışırlar. Böyük Britaniyanın Azərbaycana yeni təyin olunmuş səfiri Dunkan Norman uzun illərdən sonra ilk dəfə Cənubi Qafqazda davamlı sülhün əldə olunması üçün real perspektivin yarandığını vurğulayarkən, bütövlükdə Avroatlantik məkanda formalaşan yeni təhlükəsizlik paradiqmasına işarə edir.**

Rəsmi Londonun təmsilçisi sülhün bərqərar olmasını yalnız dövlətlərarası məhdud əlaqələr çərçivəsində qiymətləndirmir, eyni zamanda, mövcud reallığı genişmiqyaslı geostrateji imkanlar qapısı adlandırır. Dunkan Norman açıq şəkildə bildirir ki, sülh və sabitlik region ölkələri arasında ticarət, investisiya və əlaqələndirmə sahələrində tamamilə yeni perspektivlər açacaq. Diplomatın toxunduğu önəmli məqamlardan biri də sülhün uzunmüddətli və dayanıqlı olmasının təmin edilməsi vəzifəsidir. Beynəlxalq siyasi nəzəriyyəyə əsasən, sülhün dönməz xarakter alması məqsədilə tərəflər arasında çoxşaxəli siyasi təminat amilləri qurulmalıdır. Böyük Britaniya qeyd edilən prosesdə vasitəçi və dəstəkləyici tərəf qismində iştirak etməkdə maraqlı olduğunu nümayiş etdirir. Səfir eyni vaxtda Azərbaycan xalqının səmimiyyəti və qonaqpərvərliyi məsələsini xüsusi dəyərləndirərək xalqlararası ictimai diplomatiyanın siyasi əlaqələrin möhkəmlənməsində həlledici rol oynadığını önə çəkir. Xalqlararası inamın formalaşması rəsmi dairələrin apardığı qlobal siyasətin cəmiyyətlər tərəfindən asanlıqla mənimsənilməsinə şərait yaradır. Böyük Britaniya ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq fərqli sahələri əhatə edərək çoxdan yüksək səviyyəli hərbi-təhlükəsizlik müstəvisinə adlayıb. Səfir tərəfindən verilən mesajlar məhz göstərilən məqsədlərin tam reallaşmasına ünvanlanıb.

Cənubi Qafqaz uzun onilliklər boyu müxtəlif hərbi və siyasi toqquşmaların episentri rolunu oynayıb. Lakin indiki dövrdə yaranmış status-kvo keçmişin bütün neqativ paradiqmalarını alt-üst edərək tam fərqli reallıq bərqərar edib. Azərbaycan artıq böyük güclərin rəqabət meydanı statusundan tamamilə imtina edərək, iradəli ölkəyə çevrilib. D.Normanın Cənubi Qafqazda sülhün bərqərar olması ilə bağlı səsləndirdiyi nikbin proqnozlar təsadüfi məzmun daşımır, əksinə, dərin siyasi hesablamalara əsaslanır. Böyük Britaniya ənənəvi olaraq regiondakı qüvvələr balansını incə detallarına qədər izləyən və proseslərə adekvat reaksiya verən aparıcı dövlətdir. Rəsmi Londonun yeni şəraitdə Azərbaycanı dinamik, qlobal əlaqələrə malik mərkəz adlandırması respublikamızın geostrateji əhəmiyyətinin Qərb siyasətçiləri tərəfindən yüksək səviyyədə təsdiqlənməsi deməkdir.

* * *

Avropa İttifaqına üzv dövlətlərin Cənubi Qafqaz istiqamətində yürütdükləri xarici siyasət kursunda müşahidə edilən aktivlik Danimarkanın iqamətgahı Ankarada olan həm də Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ole Toftun fikirlərində bariz şəkildə öz əksini tapır. O.Toft yerli mediaya müsahibəsində ölkələrimiz arasında mövcud tarixi və aktual siyasi vəziyyət barədə dərin təhlillər aparı. Səfir xüsusilə hər iki dövlətin Avropa təhlükəsizlik arxitekturasındakı mövqeyinə diqqət çəkib. Onun vurğuladığı əsas məqamlar arasında Azərbaycan Prezidentinin Danimarkaya səfəri və Avropa Əlaqələri üzrə Əməkdaşlıq Şurasının (AƏƏK) toplantısında iştirakı xüsusi yer tutur. Bu yüksək səviyyəli görüşlər Skandinaviya ölkələri ilə rəsmi Bakı arasındakı siyasi dialoqun keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu sübuta yetirir. Qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu beynəlxalq platformalarda Danimarka və Azərbaycan kimi dövlətlərin müştərək fəaliyyəti beynəlxalq həmrəyliyin elementidir. Danimarka Baş nazirinin Bakıda keçirilən COP29 konfransında iştirakı ikitərəfli əlaqələrin yalnız sözdə qalmadığını, eyni zamanda, əməli



müstəvidə reallaşdığını təsdiqləyir. Diplomatın qeyd etdiyi kimi, sadalanan yüksək səviyyəli qarşılıqlı təmaslar müstəsna əhəmiyyət daşıyır.

Böyük qlobal tədbirlərə ev sahibliyi etmək beynəlxalq aləmdə dövlətin siyasi imicini və təsir imkanlarını müəyyənləşdirən güclü indikatorlardan sayılır. Danimarka səfiri açıq şəkildə bildirir ki, Azərbaycan qlobal əhəmiyyətli yığıncaqların keçirildiyi etibarlı məkan kimi tanınır. Bəli, Bakı mütəmadi olaraq dünyanın ən nüfuzlu təşkilatlarının sammitlərinə ev sahibliyi edir. COP29 konfransının böyük uğurla baş tutması dövlətin beynəlxalq ictimaiyyət qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək bacarığını nümayiş etdirdi. Səfir əlavə olaraq Beynəlxalq Telekommunikasiya İttifaqının konqresini və Ümumdünya Şəhərsalma Forumunu (WUF13) xatırladaraq, rəsmi Bakının təşkilatçılıq qabiliyyətinin qüsursuz səviyyəsini vurğulayır. Sözügedən beynəlxalq tədbirlər, sadəcə, xüsusiləşdirilmiş toplantılar xarakteri daşımayıb, qlobal idarəçilik sisteminin vacib siyasi seqmentləridir. Məhz oxşar yığıncaqlarda dünya liderləri yeni siyasi prioritetləri müəyyən edir, gələcək onilliklərin qlobal çağırışlarına adekvat reaksiyalar formalaşdırırlar. Yaxın gələcəkdə – 2028-ci ilin yaz aylarında Azərbaycanın Avropa Əlaqələri üzrə Əməkdaşlıq Şurasının toplantısına ev sahibliyi etməsi barədə verilən qərar rəsmi Bakının Avropa məkanındakı nüfuzunun şəriksiz qəbul edildiyini göstərir. Avropa Əlaqələri üzrə Əməkdaşlıq Şurası qitənin ən mötəbər siyasi instansiyalarından hesab olunur. Məlum qurumun başlıca missiyası dövlətlər arasında strateji dialoq pəncərəsi yaratmaq və ortaq təhlükəsizlik çağırışlarına adekvat cavab tapmaqdır. İclasın Bakıda keçirilməsi qərarı Azərbaycanın beynəlxalq nüfuzunun təntənəsidir. Həmin toplantı çərçivəsində yüzlərlə yüksək çinli rəsmilərin ölkəmizə təşrif buyurması xüsusi siyasi mesaj daşıyır. Qərb diplomatları yaxşı dərk edirlər ki, rəsmi Bakının irəli sürdüyü diplomatik konsepsiyalar abstrakt xülyalara əsaslanmır, tamamilə praqmatik, reallaşdırılması mümkün proqramları əhatə edir.

Ölkəmiz qlobal qütbləşmənin kəskinləşdiyi zaman kəsiyində mətanətini qoruyub saxlamağı, rasional qərarlar verməyi bacarıb. Danimarka və Britaniya səfirlərinin açıqlamaları məhz sözügedən rasionallığa verilən ali qiymətdir. Dünya miqyaslı tədbirlərin, mötəbər sammitlərin keçirilmə məkanı olaraq Bakının seçilməsi sadalanan tezislərin təkzibedilməz təsdiqidir. Qlobal böhranların həll mərkəzi kimi çıxış etmək fərqli mədəniyyətləri və sivilizasiyaları vahid masa ətrafında toplamağı tələb edir. Müxtəlif qütblərdə dayanan rəqiblərin Bakıda problemsiz təmas qura bilməsi dövlətin tərəfsizliyini, beynəlxalq hüquqa sadiqliyinin göstəricisidir.

Beynəlxalq münasibətlər sistemində qeydə alınan mütləq diplomatik uğurlar bilavasitə Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik, rasional və hədəfyönlü xarici siyasət strategiyasının qanunauyğun nəticəsidir. Rəsmi Bakının yürütdüyü uzaqgörən strategiya qlobal qütblərin davranışlarını tənzimləyən qüdrətli struktur səviyyəsinə yüksəlib. İlham Əliyevin müəllifi olduğu xarici siyasət məktəbi ən kəskin geosiyasi böhranlar fonunda milli maraqların sarsılmaz mühafizəsini təmin edərək, gələcək onilliklərin dayanıqlı sülh modelini faktiki olaraq qlobal idarəçilik mərkəzlərinə qəbul etdirir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# London yeni münasibətlər modeli formalaşdırır

## *Brüssel Sammiti "brexitsonrası" əlaqələrə istiqamət verəcək*

**Brexit referendumundan illər keçməsinə baxmayaraq, Böyük Britaniya ilə Avropa İttifaqı (Aİ) arasındakı münasibətlər hələ də sabit model qazanmayıb. Tərəflər arasında siyasi ayrılıq baş versə də, iqtisadi, təhlükəsizlik və sosial əlaqələrin dərinliyi Londonun və Brüsselin bir-birindən uzaqlaşmasını mümkünsüz edir. Məhz bu səbəbdən iyulun 22-də Brüsseldə Aİ–Böyük Britaniya sammitinin keçirilməsi planlaşdırılır. Sammit Brexitdən sonra formalaşan münasibətlər sisteminin gələcək konturlarını müəyyənləşdirə, tərəflərin əməkdaşlığı hansı səviyyəyə qədər genişləndirməyə hazır olduqlarını ortaya qoya bilər.**




Əslində, sammit ətrafında yaranmış mübahisələrin mərkəzində duran gənclərin mobilliyi proqramı Brexitin yaratdığı əsas dilemmanı yenidən üzə çıxarır. Yada salaq ki, Böyük Britaniya Aİ-dən çıxmaqla sərhədlər üzərində nəzarəti bərpa etdiyini demişdi. Lakin iqtisadiyyatın və əmək bazarının ehtiyacları göstərir ki, insanların sərbəst hərəkətinin məhdudlaşdırılması həm Britaniyaya, həm də Avropa ölkələrinə müəyyən itkilər yaşadır. Gənclərin təhsil, iş və təcrübə proqramları vasitəsilə qarşılıqlı mübadiləsinin bərpası ilk baxışdan texniki məsələ təsiri bağışlasa da, əslində, Brexitdən sonra hərəkət azadlığının hansı səviyyədə bərpa ediləcəyi sualını gündəmə gətirir. Aİ hesab edir ki, gələcək nəsillər arasında əlaqələrin qorunması uzunmüddətli siyasi inteqrasiyanın əsas şərtlərindən biridir. Son dövrlər Britaniyada təhsil alan avropalı tələbələrin sayının azalması, elmi əməkdaşlıq layihələrinin zəifləməsi və gənclərin qarşılıqlı təmaslarının məhdudlaşması Aİ-də narahatlıq yaradıb. Ona görə də Brüssel bu mövzunu danışıqlarda prinsipial məsələyə çevirib.

Londonun tərəddüdü daha çox daxili siyasi amillərlə bağlıdır. Leyborist hökuməti Avropa ilə yaxınlaşmaq istəsə də, eyni zamanda, Brexit tərəfdarlarının reaksiyasını nəzərə almağa məcburdur. Gənclərin mobilliyi proqramının miqyasının genişləndirilməsi müxalif qüvvələr tərəfindən Aİ-nin azad hərəkət prinsipinə qayıdışı kimi təqdim edilə bilər. Bu səbəbdən Starmer hökuməti balanslı formul tapmağa çalışır. Brexitdən sonra Britaniya şirkətləri Avropa bazarına çıxış zamanı əlavə bürokratik maneələrlə üzləşiblər. Xüsusilə ərzaq və kənd təsərrüfatı məhsullarının ixracına tətbiq olunan yoxlamalar logistika xərclərini artırıb. Yeni sanitariya və fitosanitariya sazişi məhz bu problemlərin həllinə yönəlib.

Yeri gəlmişkən, sazişin əhəmiyyəti ticarət dövriyyəsinin artması ilə məhdudlaşmır. Əsas məsələ Böyük Britaniyanın müəyyən sahələrdə yenidən Avropa standartlarına uyğunlaşmasıdır. Brexit tərəfdarları uzun illər Avropa qaydalarından azad olmağı suverenliyin simvolu kimi təqdim etmişdilər. İndi isə iqtisadi reallıqlar Londonu həmin standartların əhəmiyyətli hissəsini faktiki şəkildə qəbul etməyə sövq edir.

Münasibətlərin yenidən qurulmasının arxasında daha geniş geosiyasi motivlər də dayanır. Son illər Avropada təhlükəsizlik mühiti köklü şəkildə dəyişib. Rusiya-Ukrayna müharibəsi Avropa ölkələrinin müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığını sürətləndirib. Böyük Britaniya Ukraynaya dəstək məsələsində ən fəal dövlətlərdən biri olub. Londonun hərbi potensialı, kəşfiyyat imkanları və NATO daxilindəki rolu Avropa təhlükəsizlik arxitekturasında mühüm yer tutur. Aİ ölkələri arasında artıq belə bir anlayış formalaşıb ki, təhlükəsizlik məsələlərində Britaniyanın iştirakı olmadan effektiv Avropa strategiyası qurmaq çətindir. Eyni zamanda London da anlayır ki, ABŞ siyasətində baş verən dəyişikliklər fonunda Avropa ilə koordinasiya daha vacib xarakter alır. Transatlantik münasibətlərdə qeyri-müəyyənliyin artması Avropa ölkələrini öz təhlükəsizlik imkanlarını gücləndirməyə sövq edir. Bu şəraitdə Aİ ilə Böyük Britaniya arasında yaxınlaşma strateji zərurətə çevrilir.

İyul sammitinin diqqətçəkən cəhətlərindən biri də onun siyasi simvolizmidir. Brexit referendumundan sonra tərəflər arasında keçirilən görüşlər əsasən ayrılıq prosesinin texniki aspektlərinə həsr olunurdu. İndiki mərhələdə isə ilk dəfə olaraq əməkdaşlığın genişləndirilməsi əsas məqsəd kimi irəli sürülür. Tərəflər artıq keçmiş mübahisələrin deyil, gələcək qarşılıqlı maraqların prizmasından düşünməyə başlayırlar.

Bununla belə, münasibətlərin tam normallaşmasının qarşısında ciddi maneələr qalır. Aİ Böyük Britaniyanın əməkdaşlığın üstünlüklərindən faydalanmasını istəyir. Eyni zamanda, birlikdən çıxmağın nəticələrinin aradan qalxdığı görüntüsünün yaranmasına imkan vermək niyyətində deyil. Brüssel üçün vacib məsələ ondan ibarətdir ki, digər üzv dövlətlər də Avropa inteqrasiyasına qarşı Brexit modelini uğurlu alternativ kimi təqdim edə bilməsinlər.

Sonda bu qənaətə gəlmək olar ki, hər iki tərəfin eyni vaxtda həm yaxınlaşma, həm də məsafə saxlamaq istəyi danışıqları mürəkkəbləşdirir. Hazırkı proseslərin ən maraqlı tərəfi Brexitdən sonrakı yeni modelin formalaşmasıdır. Nə tam inteqrasiya, nə də tam ayrılıq artıq real görünür. Böyük Britaniya Aİ-nin institusional strukturlarından kənarda qalır, lakin iqtisadi, təhlükəsizlik və normativ sahələrdə onunla sıx əlaqələri davam etdirir. Sözügedən model gələcəkdə Avropa inteqrasiyasının müxtəlif səviyyələrdə iştirak mexanizmləri barədə yeni müzakirələrə də təsir göstərə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

***Ekspert rəyi***

**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı**



2016-cı ildə keçirilən referendumdan sonra Böyük Britaniyanın Avropa İttifaqından ayrılması ölkənin müasir tarixinin ən mühüm siyasi qərarlarından biri idi. Brexit tərəfdarları bu addımın Londona daha geniş iqtisadi manevr imkanları, sərbəst ticarət siyasəti və milli suverenlik qazandıracağını iddia edirdilər. Lakin 10 il sonra ortaya çıxan mənzərə göstərir ki, Brexitin iqtisadi və geosiyasi nəticələri gözlənildiyindən daha mürəkkəbdir. Məhz bu səbəbdən Böyük Britaniya hökuməti Aİ ilə münasibətlərin yeni formatını axtarmağa başlayıb.

Brexitdən sonra Britaniyanın Aİ ölkələrinə ixracı təxminən 12 faiz, idxalı isə 16 faiz azalıb. Xüsusilə kimya və əczaçılıq məhsullarının ixracında 21 faiz, ərzaq məhsullarında isə 29 faiz geriləmə qeydə alınıb. Bu rəqəmlər göstərir ki, Brexit yalnız siyasi deyil, həm də ciddi iqtisadi nəticələr doğurub. Aİ Britaniya üçün hələ də ən böyük ticarət tərəfdaşı olaraq qalır. Məhz buna görə hazırda London və Brüssel arasında kənd təsərrüfatı və ərzaq məhsullarının ticarətini sadələşdirəcək yeni saziş üzərində danışıqlar aparılır. London bəzi sahələrdə yenidən Avropa standartlarına uyğunlaşmağa hazır olduğunu nümayiş etdirir. Bu isə Brexit kampaniyası dövründə irəli sürülən "tənzimləyici müstəqillik" arqumentinin, müəyyən mənada, yenidən nəzərdən keçirildiyini göstərir.

Son illər beynəlxalq sistemdə baş verən dəyişikliklər, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərq böhranı, enerji təhlükəsizliyi problemləri və qlobal ticarət marşrutlarında yaranan risklər də Avropa dövlətlərinin daha sıx koordinasiyasını zəruri edib. 2024-cü ildə hakimiyyətə gələn Kir Starmer hökuməti Brexitin ləğvi ideyasını gündəmə gətirməsə də, Aİ ilə münasibətlərin normallaşdırılmasını prioritet elan edib. Starmer hökuməti başa düşür ki, yerli iqtisadiyyatın dayanıqlı inkişafı üçün Avropa bazarına çıxış imkanlarının genişləndirilməsi vacibdir. Bu baxımdan 22 iyulda Brüsseldə keçirilməsi nəzərdə tutulan Böyük Britaniya–Aİ sammiti Brexitdən sonrakı münasibətlərin "yenidən yüklənməsi" istiqamətində mühüm addım sayılır.

Bununla yanaşı, Böyük Britaniyanın yaxın perspektivdə Aİ-yə qayıtması real görünmür. Brexit Avropanın siyasi elitasında ciddi etimad böhranı yaradıb. Üstəlik, Londonun vaxtilə əldə etdiyi xüsusi güzəştlər, o cümlədən büdcə güzəştləri, Şengen zonasından və məkandan kənarda qalmaq hüququ artıq mümkün hesab edilmir.

# Avropa Məhkəməsi ədalət axtarır, yoxsa nifaq toxumu cücərdir?

## *Belə çıxır ki...*

**Məlum olduğu kimi, Avropa İnsan Haqları Məhkəməsi (AİHM) 2016-cı ilin "Aprel müharibəsi" zamanı həlak olmuş Ermənistan ordusunun mayoru Hayk Toroyanın ölümü ilə bağlı valideynlərinin və bacısının iddiasını təmin edib. Bəri başdan deyək ki, qərar Azərbaycana qarşıdır və əlbəttə ki, ədalətsizdir.**

Təsəvvür edin: bir erməni Azərbaycan ərazisindədir, bu əraziyə qeyri-qanuni daxil olub, üstəlik, onun üzərində silah var və bu şəxs öldürülür. AİHM isə qərar çıxarır ki, günahkar onu öldürənlərdir. Yəni məhkəmə indiki halda, məsuliyyətli tərəf kimi Azərbaycan dövlətini müəyyənləşdirir.



Ancaq Avropanın ali hüquq instansiyasının baxışı başqadır. Qurum H.Toroyanın ölümü ilə bağlı qeyri-insani rəftar məsələsini ön plana çəkir. Burada işğalçılığın ən böyük qeyri-insani rəftar olduğu kənara qoyulur. Çünki AİHM-nin arqument saydığı başqa məqamlar var. Axı məhkəmə, prinsip etibarilə, sübut və dəlillərlə işləyən orqandır və erməni mayora qarşı qəddarlıq edildiyi qənaətinə gəlir.

Qəddarlıq edilibsə və AİHM fərdi zəmində günahkar axtarmaq yerinə, Azərbaycan dövlətinin üzərində dayanır. Bu nə dərəcədə düzgündür? Ona görə ki, H.Toroyan Azərbaycan dövlətinin tabeliyindəki ordu birləşmələrində qulluq edən əsgər tərəfindən öldürülüb? O zaman nəyə görə onun Ermənistan ordusunun zabiti olduğu faktı nəzərə alınmır? Axı bu şəxs Azərbaycan ərazisinə qeyri-qanuni şəkildə məhz erməni komandanlığının müvafiq əmri ilə gəlib. Deməli, böyük günahkar zabiti başqasının torpağına göndərən Ermənistan ordusunun rəhbərliyi, yəni Ermənistan dövlətidir. Sual yaranır: Hansı səbəbdən ölüm faktının özü bir dövlətin günahı olmalıdır, ölümü doğuran səbəb isə nəzərə alınmamalıdır?

Əslində, AİHM-nin qərarında, guya, bu kimi suallara cavab tapılır və bildirilir ki, məhkəmə 2016-cı ilin dörd günlük müharibəsi zamanı tərəflərin həmin ərazilər üzərində effektiv nəzarət həyata keçirməsini ayrıca qiymətləndirib və yurisdiksiya məsələsini əsasən konkret hərbi əməliyyatlar və dövlət agentlərinin hərəkətləri prizmasından araşdırıb. Göründüyü kimi, burada dolaşıq hüquqi interpretasiya var. Belə çıxır ki, həmin an torpaqların hansı dövlətə hüquqi məxsusluğu amili heç bir əhəmiyyət daşımayıb, yalnız faktiki nəzarət amili əsas götürülüb. Ən böyük ədalətsizlik məhz bu yanaşmadadır.

Ədalətsizlik həm də ona görə var ki, AİHM ölkəmizə qarşı qərar çıxararkən, Avropa Konvensiyasının yaşamaq hüququnu tənzimləyən 2-ci maddəsinin, işgəncə və qeyri-insani rəftarı qadağan edən 3-cü maddəsinin pozulduğu qənaətinə gəlib. Bu yerdə H.Toroyanın valideynlərinin və bacısının durumunu və qaldırdıqları iddianı bəlkə də başa düşmək olar. Amma məhkəmənin hüquqi istinad prizması heç cür anlaşılmır. Sözümüz ondadır ki, AİHM fakta qiymət vermək üçün düzgün hüquqi mexanizm seçə bilməyib və seçə bilməz.

İndiki durumda AİHM-nin qərarı qeyri-qanuni yaşamaq hüququnu leqallaşdırmaqla, mənfi presedent yaradır. Axı heç kəs gedib Avropada özbaşına yaşaya bilməz. Bilməzsə, nə üçün erməni zabitinin beynəlxalq hüquqla Azərbaycana məxsus ərazidəki mövcudluğu yaşamaq hüququ prizmasından dəyərləndirilir? Axı hər şey – həmin zabitin ölümünü doğuran səbəb bundan qaynaqlanır. Yəni erməni zabitinə işgəncə və qeyri-insani rəftar olubsa, hadisənin çıxış nöqtəsi yaşamaq amilinə söykənir. Erməni zabiti və əsgəri Azərbaycan ərazisində nə gəzirdi ki, orada canını tapşırsın? Belə çıxır ki, hər kəs gedib Avropada qanunsuz ömür sürə, üzərində silah gəzdirə, həmin silahdan atəş aça bilər və buna görə həmin şəxsə güldən ağır söz deyilməməlidir.

Aydındır ki, başqasının torpağında qeyri-qanuni yaşayan şəxs hərbçidirsə, üzərində silah gəzdirirsə, burada mülki şəxslərə nəzərən tətbiq edilən hüquqi prosedur və ya formul keçərli sayılmamalıdır. Axı adamın dinc sakin statusu yoxdur. Yəni bu yerdə H.Toroyanın valideynlərinin və bacısının emosiyası başa düşülən olmamalıdır. Daha doğrusu, məhkəmə başa düşməməlidir. Çünki Toroyan mayordur və demək onun nəinki silahı var, eyni zamanda, silahlı dəstəyə rəhbərlik edən şəxsdir. O şəxs ki, Azərbaycan ərazilərini atəşə tutur, hətta təmas xəttinə yaxın ərazilərdəki mülki azərbaycanlıların yaşamaq hüququnu pozurdu. Nəzərə alaq ki, "Aprel müharibəsi" həm də buna görə başlamışdı.

Qeyd edək ki, AİHM indiyədək Ermənistan və Azərbaycan tərəfindən qaldırılan iddiaların bir çoxunu onların siyasi məzmun daşıdığını bildirərək rədd edib. Yəni qurum bu mövqeyi ilə siyasətə qarışmaq niyyətində olmadığını göstərib. Çox gözəl. Halbuki bu məhkəmənin, böyük ölçüdə, siyasətə alət olduğunu bilirik və haqqında söz açdığımız qərarla, əslində, özünün, belə demək mümkünsə, alət ampluasını sübuta yetirir. Çünki AİHM-nin gəldiyi nəticə sırf 2016-cı ilin "Aprel müharibəsi" xüsusundadır. Yəni istər-istəməz, o dövrün döyüşlərinə fokuslanaraq, barəsində söz açdığımız yaşam hüququnun ön plana çəkilməsi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirməkdir.

AİHM-nin qərarı, eyni zamanda, ona görə siyasi mahiyyət daşıyır ki, hazırda Qarabağ münaqişəsi tarixin arxivinə göndərilib. Qurum nə qədər bəyan etsə də ki, onun gəldiyi nəticə münaqişə ilə bağlı dövlətlərarası deyil, fərdi insan hüquqları məsuliyyəti müstəvisindədir, bu, əsla keçərli sayıla bilməz. Çünki Azərbaycan əleyhinə çıxarılmış qərarla, faktiki olaraq, indiyədək formalaşmış məhkəmə praktikası genişləndirilir. Münaqişə məntiqi bu genişləndirmə ilə diri saxlanılır. Belə bir məntiqin diri saxlanılması isə özlüyündə ermənilər və azərbaycanlılar arasında birbaşa olmasa da, dolayısıyla nifaq mühitini qorumaqdır. Düşünmək olar ki, AİHM çıxardığı qərarla Bakı və İrəvan arasındakı sülh mühitini çirkləndirmək yolu tutur, yaxud bu yolu tutanların maraq və mənafelərini ifadə edir. Guya, dəlil və sübut bazası var imiş! Özü də mülki şəxsin yox, hərbçinin öldürülməsi ilə bağlı. Özü də aktiv hərbi əməliyyatlar gedən zaman. Adi baxışla da qətiyyən inandırıcı deyil və istənilən formada mübahisələndirilməyə açıqdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Avropa Məhkəməsi siyasi oyunlara çəkilir

## *Qurumun Azərbaycana qarşı qərarı beynəlxalq hüquqa ziddir*

**İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov bu məhkəmə orqanının "V.T. və digərləri Azərbaycana qarşı" iş üzrə 2026-cı il 18 iyun tarixli qərarı ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilib ki, sözügedən qərar ədalətsiz, qərəzli, beynəlxalq hüquqa ziddir, qurumun yenidən siyasi oyunlara çəkildiyini təsdiqləyir.**

Belə ki, Avropa Məhkəməsi öz qərarında üç şəxsin ifadəsinə əsaslanaraq, heç bir mötəbər sübut olmadan, işin hallarını hərtərəfli araşdırmadan, özünü "DQR" dövlət orqanları adlandıran cinayətkarların "hesabatlarına" istinad edərək, Azərbaycan tərəfindən, guya, İnsan hüquqlarına dair Avropa konvensiyasının pozulduğunu müəyyənləşdirib.

Bəyanatda vurğulanıb ki, Azərbaycan tərəfi uzun illər çoxsaylı məktublar, qeydlər təqdim edib, etirazlar bildirib, lakin buna baxmayaraq, Avropa Məhkəməsi yenidən ölkəmiz üçün qəbulolunmaz, beynəlxalq səviyyədə tanınmış suverenliyimizə və ərazi bütövlüyümüzə zidd terminologiyadan yararlanıb.

Səlahiyyətli nümayəndə Avropa Məhkəməsinin Ermənistanda doğulmuş, bu ölkənin vətəndaşı olan hərbçinin hansı səbəbdən Azərbaycanın suveren ərazisində xidmət keçməsi məsələsini ümumiyyətlə araşdırmadığını da bildirib: "Bu məsələyə "diqqət yetirilməməsi" Avropa Məhkəməsinin istədiyi nəticəyə gəlməsinə xidmət etmişdir".

Habelə, "hesab edirəm ki, "DQR"in müstəqil qurum kimi göstərilməsi, "DQR" ilə Azərbaycan Respublikası arasında təmas xəttinə istinad edilməsi nəinki Avropa Məhkəməsinin presedent hüququnun təhrif edilməsi, hətta Azərbaycan Respublikasının dövlət suverenliyinə hörmətsizlik göstərilməsi kimi qiymətləndirimәlidir" kimi fikirlərin yer aldığı bəyanatda məhkəmənin kompensasiya ilə bağlı qərarının da qəbuledilməzliyi əsaslandırılıb.

Ən başlıcası, bəyanatda o da bildirilib ki, Avropa Məhkəməsinin bu cür qərarları qurumun Avropa Şurası Parlament Assambleyasının çirkin oyunlarına qoşulduğu təəssüratını yaradır. Bu isə beynəlxalq məhkəmənin mötəbərliyi ilə bağlı ciddi şübhələr doğurur: "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov Avropa Məhkəməsinin "V.T. və digərləri Azərbaycana qarşı" iş üzrə qərarında əks olunmuş nəticələri qəti şəkildə rədd edir və bu qüsurlu qərara cavab olaraq bütün mümkün hüquqi və prosessual vasitələrin nəzərdən keçiriləcəyini bildirir".

***XQ***

# Cəmiyyət hansı təhlükəni düşünməli, nədən nəticə çıxarmalıdır?

**İki gün əvvəl dünya ictimaiyyəti Nifrət Nitqinə qarşı Beynəlxalq Mübarizə Gününü qeyd etdi. BMT Baş Assambleyası tərəfindən 2021-ci ildə belə bir günün təsisindən məqsəd nifrət nitqinin cəmiyyətlərə mənfi təsirlərinə diqqət çəkməkdən, habelə dialoq, qarşılıqlı hörmət və tolerantlıq mədəniyyətinin təşviqindən ibarətdir. Qeyd edək ki, qurum bu günü əlamətdar hala gətirməklə, həmçinin, ksenofobiya, irqçilik, dini dözümsüzlük və digər ayrı-seçkilik formalarının yayılması ilə bağlı artan narahatlığa adekvat reaksiyasını ortaya qoyub.**

Bu yerdə yada Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin iyunun 11-də keçirilmiş iclasında müzakirəyə çıxarılmış iki məsələ düşür. Şura nifrət niqtinin yolverilməzliyinə dair “Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”na əlavələr etmək niyyətindədir. Əlbəttə, etik kodeksə əlavə ölkə jurnalistlərinin qurultaylarında təsdiqlənir və bu, MŞ-nin məlumatında da vurğulanıb.

O da bildirilib ki, sözügedən ali məclisədək MŞ əlavələrlə əlaqədar layihə hazırlayacaq və qurultay nümayəndələri məhz həmin layihəyə münasibətlərini ifadə edəcəklər. Bu, öz yerində, bəs “Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”na nifrət nitqi ilə bağlı dəyişiklik hansı zərurətdən qaynaqlanır? Ümumən, belə bir zərurət varmı?

Suala cavab verməzdən əvvəl bildirək ki, Nifrət Nitqinə qarşı Beynəlxalq Mübarizə Gününün təsisi BMT-nin Baş katibi Antonio Quterreş tərəfindən 18 iyun 2019-cu il tarixində təqdim edilmiş BMT-nin Nifrət Nitqi üzrə Strategiyası və Fəaliyyət Planına əsaslanır. Qurumun mövcud sahədə ilk sistemli və miqyaslı təşəbbüsü olan sənəddə dövlətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyətləri, media və texnologiya şirkətləri arasında nifrət nitqinə qarşı mübarizə üzrə əsas əməkdaşlıq sahələri müəyyənləşdirilir. Nəzərə alaq ki, 2021-ci ilin iyulunda BMT Baş Assambleyası nifrət nitqinin dünya miqyasında eksponensial yayılmasından qlobal narahatlığı qeyd edərək, ona qarşı mübarizə kontekstində dinlərarası və mədəniyyətlərarası dialoqun və tolerantlığın təşviqinə dair qətnamə də çıxarıb.

Qətnamədə ayrı-seçkiliyə, ksenofobiyaya və nifrətə təhrik olunmaya qarşı mübarizənin zəruriliyi vurğulanıb və dövlətlər daxil olmaqla, bütün müvafiq tərəflər beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq, bu fenomenlə mübarizə aparmaq üçün səyləri artırmağa çağırılıb. BMT, həmçinin hökumətləri, beynəlxalq təşkilatları, vətəndaş cəmiyyəti qruplarını və fərdləri nifrət nitqinin müəyyənləşdirilməsi, aradan qaldırılması və qarşısının alınması strategiyalarının inkişafı üzrə tədbirlər və təşəbbüslər reallaşdırmağa dəvət edib. Çünki nifrət nitqi insan hüquqlarına, dinc və birgəyaşama, bütövlükdə sülhə və təhlükəsizliyə təhdiddir. Rəqəmsal məkanın, sosial medianın sürətli inkişafı fonunda isə bu təhdidin cəmiyyətələrə vurduğu zərərlər artır.



Onu da nəzərə alaq ki, onlayn platformalar tez-tez ayrı-seçkilik xarakterli bəyanatlar və dezinformasiyaların yayılması üçün aktiv müstəvi rolunu oynayırlar. Bu məkanda bir çox hallarda tənqidi fikrin də nifrət dili ilə ifadəsi meyillərinə rast gəlirik. Mövcud tendensiya tənqidi gözdən salır, onu qeyri-sağlam ritorikaya çevirir. Təəssüf ki, əksər durumlarda məhz jurnalistlər və media orqanları belə bir ritorikanın meydana çıxmasına meydan yaradırlar. Nəticə etibarilə, jurnalistikanın ictimai missiyası ikinci plana keçir. O missiya ki, cəmiyyəti düşündürməli, mənfi hallara münasibətdə gerçək müqavimət formalaşdırmalıdır. Elə bir müqavimət ki, qanunçuluğa, yəni hüquqi dövlətin norma və prinsiplərinə əsaslansın.

Yeri gəlmişkən, MŞ hesab edir ki, jurnalistin mövqeyi hansısa tərəfin, hətta haqsız tərəfin də mühakiməsinin linçə təhrik üzərində qurulmasına rəvac verməməlidir. Bu cür hallar medianın ictimai missiyasına tamamilə yaddır. Jurnalistin yaratdığı qınaq düşündürməli, bu düşüncədən irəli gələn tədbirlər sivil cəmiyyətin norma və prinsiplərinə uyğun olmalıdır.

*

Ekspertlər bu qənaətdədirlər ki, nifrət nitqinə qarşı effektiv mübarizə fikir və ifadə azadlığına tam hörməti aşılamalı, insan ləyaqətinə sayğılı yanaşmaya, bərabərlik və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanmalıdır.

Bəli, jurnalistlər, media subyektləri və ya informasiya yayıcılığına iddialı şəxslər cəmiyyətdə qarşılıqlı nifrət və kin yarada biləcək ritorikadan uzaq dayanmalıdırlar. Onlar nəzərə almalıdırlar ki, konkret hadisə və prosesi tənqidə məruz qoymalarının doğru olduğu hallarda belə, doğruları çatdırmaq üçün seçdikləri ifadə tərzi insanlar arasında açıq qarşıdurma riski formalaşdırmamalıdır. Yəni elə təqdimat üsullarına üstünlük verilməlidir ki, hansısa sadə vətəndaş həmin təqdimatlara diqqət yetirərək, kiməsə qarşı hüquqi dövlət anlayışından kənar addımların atılmasını legitim saymasın. Təəssüf ki, bəzən medianın, habelə, ayrı-ayrı jurnalistlərin yazıları və daha çox da səsləndirdikləri fikirlər təhrikçi mahiyyət daşımaqla, cəmiyyət üzvlərinin bir-birilərinə qarşı nalayiq hərəkət və davarışlarına rəvac verir.



MŞ İdarə Heyətinin “Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”na ikinci əlavə təklifi Azərbaycan Respublikasının Ali Məhkəməsinin “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” Plenum qərarından qaynaqlanır. O qərar ki, bu ilin əvvəlində qəbul edilmişdi. Sənəddən irəli gələn ümumi nəticə bir neçə cəhətə diqqət yetirilməsini zəruriləşdirir. Birincisi, bütün doğrular çatdırılmamalıdır, çünki kimlərsə kimlərinsə barəsindəki doğruları çatdırmaq hüququnda deyillər. İkincisi, barələrindəki doğruların cəmiyyətə çatdırılmasının nə dərəcə vacibliyi əsas olan şəxslər və ya şəxslər qrupu var. Üçüncüsü, bütün doğruların hansı hallarda yayıla bilməsi.

Məsələ ondadır ki, bəzən özünü doğruları çatdırmaq öhdəliyi ilə mükəlləf sayan jurnalist və ya media orqanı doğruların cəmiyyət üçün əhəmiyyətini kənara qoyur. Nəticədə jurnalistin və media orqanının qərəzli obrazı canlanır. Ali Məhkəmənin haqqında söz açdığımız qərarı isə vurğuladığımız məqamlarla əlaqədar nəyin düzgün olduğuna, nəyin düzgün olmadığına müfəssəl aydınlıq gətirir. MŞ İdarə Heyəti də hesab edir ki, “Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”na əlavələrdə bununla bağlı müvafiq müddəalar yer almalıdır.

Sonda onu da bildirək ki, nifrət nitqi həm də qeyri-adekvat münasibətə səbəb olmaqla, ədalətli baxış bucağını xeyli daraldır. Nəticə etibarilə, cəmiyyətlər ədalətsizliklər girdabına yuvarlanırlar. Ədalətsizliklər nifrət nitqi qarşısında əzilən toplum reallığını doğurur. O toplum ki, psixoloji baxımdan özünü əzilməyinin intiqamını hamıdan və hər kəsdən almağa kökləyir. Bu kökləniş dəyərlər sisteminin pozulmasına gətirir. Mövcud trayektoriyada ən böyük təhlükə isə cəmiyyətində dəyərlər sisteminin pozulduğu dövlətin məhvə məhkumluğudur. Ona görə cəmiyyət bu gün nifrət nitqinə qarşı çıxmaqla, eyni zamanda, dövləti və dövlətçiliyi qoruyur. Yaxşı olar ki, hər kəs bu barədə düşünsün. Təkcə düşünməsin, həm də nəticə çıxarsın.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# İqtisadi təzyiqin iflası

## *Rusiyanın ixrac qadağası Ermənistanı Ukrayna ilə daha da yaxınlaşdırdı*



**Rusiya ilə Ermənistan arasında siyasi gərginlik ticari-iqtisadi münasibətlərə də təsirsiz ötüşmədi. May ayının ortalarından etibarən Rusiyanın nəzarət qurumları Ermənistan mənşəli bir sıra kənd təsərrüfatı məhsullarının, o cümlədən gül, balıq və balıq məhsulları, eləcə də “Cermuk” mineral sularının və “Ararat” konyakının ölkəyə idxalı ilə bağlı müxtəlif məhdudiyyətlər tətbiq etməyə başladı. Xüsusilə İrəvanın son dövrlər Qərblə yaxınlaşma siyasətini sürətləndirməsi fonunda tətbiq edilən məhdudiyyətlər iki ölkə arasında münasibətlərdə yeni təzyiq aləti kimi qiymətləndirildi. Lakin hadisələrin sonrakı inkişafı göstərir ki, Ermənistan ixracatçıları yaranmış çətinlikləri alternativ bazarlar və yeni logistika marşrutları hesabına qismən kompensasiya etməyə çalışırlar. Bu isə Rusiyanın illər boyu Ermənistan məhsulları üçün əsas ixrac istiqaməti olmasına baxmayaraq, bazarın tədricən şaxələndirilməsi prosesinin sürətləndiyini və tətbiq olunan məhdudiyyətlərin gözlənilən effekti vermədiyi barədə müzakirələri yenidən gündəmə gətirir.**






Rusiyada bir çox dairələrin iqtisadi qadağalar səbəbindən İrəvanın, obrazlı desək, dizlərini yerə qoyaraq aman diləyəcəyini, Qərbyönümlü inteqrasiya kursundan imtina edəcəyini gözlədikləri halda Ermənistan iqtisadiyyat naziri Gevorq Papoyanın iyunun 18-də hökumətin iclasında səsləndirdiyi fikirlər Moskvada soyuq duş effekti doğurub. “Armenpress”in yaydığı məlumata görə, Papoyan bildirib ki, Ermənistan iyunun 1-dən 17-dək 411 ton istixana tərəvəzi və çiyələk, həmçinin təxminən 1,8 milyon ədəd gül ixrac edib. Onun sözlərinə görə, məhsullar Gürcüstan, Özbəkistan, Birləşmiş Ərəb Əmirlikləri, İran, Ukrayna, Bolqarıstan, Kipr, Latviya, Rumıniya, Çexiya, Avstriya, Niderland, Fransa, Belarus və Qazaxıstana göndərilib. Nazir əlavə edib ki, artıq ərik ixracına da başlanılıb. “Biz 162 ton ərik ixrac etmişik. Dünən (iyunun 17-də–S.H.) ilk ixrac partiyaları Ukrayna və Gürcüstana göndərilib”.

Qeyd edək ki, Rusiyanın erməni məhsullarına ixrac qadağası tətbiq etməsindən, çiyələk, kartof, alma, armud, eləcə də balıq, spirtli içki və mineral sularla yüklənmiş TIR-ların Gürcüstan–Rusiya sərhədindəki “Yuxarı Lars” sərhəd-keçid məntəqəsində “ilişib qalmasından” sonra qonşu ölkələrdə bir çoxları, əsasən də fermerlər, ixracatçılar, ekspetlər, eləcə də sadə əhali ciddi narahatlıq keçirməyə başlamışdılar. Bunu yerli KİV-lərdə dərc olunan yazılardan da görmək mümkün idi. Məsələn, “ArmenianReport” saytının rus versiyasında iyunun 4-də dərc olunmuş “Zapreşali yabloki i qruşi...” sərlövhəli məqalədə qeyd edilirdi: “Ermənistan kənd təsərrüfatı məhsulları üçün ən böyük bazar olan Rusiya onilliklərdir minlərlə vətəndaşımızı işlə təmin edib. Fermerlər, emalçılar, logistika – bütün sənaye sahələri bu bazara yönəlmişdi. Bu, siyasi şüarlar deyil, real iqtisadiyyat idi. Bu gün nəyimiz var? Ölkə Avropa İttifaqına qoşulmaq üçün tammiqyaslı danışıqlara belə başlamayıb. Üstəlik, bu cür danışıqların uğurlu olacağına dair heç bir zəmanət yoxdur. Və buna baxmayaraq, biz artıq real itkilərlə üzləşirik. Başqa sözlə, yeni sistem yaratmadan köhnə sistemi könüllü olaraq məhv edirik. Bu, strategiya deyil, bir macəradır. Baş nazir Nikol Paşinyan ölkəni Qərbə doğru yenidən istiqamətləndirmək cəhdində açıq-aydın siyasi mülahizələrdən çıxış edir. Lakin iqtisadiyyat siyasi bəyannamələr prinsipi ilə işləmir. Sadəcə, “Avropa seçimi” elan edib avtomatik olaraq Avropa bazarlarına çıxış əldə edə bilməzsiniz”. Məqalədə bildirilirdi ki, onilliklər ərzində biznes quran insanlar Rusiya bazarına diqqət yetirirdilər: “İnvestisiya qoyan, təsərrüfatlar quran və iş yerləri yaradan insanlar... Bu gün onların hamısı zərbəyə məruz qalır. Onların məhsullarına tələbat azalır, logistika daha mürəkkəbləşir, qiymətlər düşür və xərclər artır. Bu arada, Paşinyanın özü, əlbəttə ki, bu problemlərlə qarşılaşmır. Siyasi elita həmişə fərqli bir reallıqda yaşayır. Lakin adi erməni fermeri üçün bu, çox real itkilər və itirilmiş gələcək deməkdir. Yeri gəlmişkən, məhsullarımıza qarşı Rusiyanın təzyiqləri fonunda Paşinyan və iqtisadiyyat naziri Papoyan bəyan edirlər ki, guya Moskvanın anti-Ermənistan qərarları nəticəsində zərər çəkmiş fermerlərin itkilərini kompensasiya edəcəklər. Hansı vəsait hesabına, cənablar? Büdcə hesabına? Elə bir büdcə ki, onu bizim vətəndaşlarımız doldurur? Elə bir büdcə ki, hökumətinizin topladığı getdikcə artan borclar üzərində qurulub?”.

*

Ancaq indi üzə çıxır ki, ciddi tənqid olunan Ermənistan hökuməti heç də, necə deyərlər, əlini-qolunu yanına sallayıb boş oturmayıbmış. Onlar yeni bazarlar axtarışında uğurlu nəticələr əldə ediblər. Bütövlükdə, hadisələrin inkişafı göstərir ki, Moskvanın Ermənistana qarşı seçdiyi iqtisadi təzyiq xətti gözlənilən nəticəni vermədi. Bazarın bağlanması, idxal məhdudiyyətləri, sanitar və fitosanitar bəhanələrlə məhsulların geri qaytarılması, logistika problemlərinin yaradılması Kremlin xarici siyasət arsenalında yeni üsul deyil. Lakin Ermənistan nümunəsi göstərdi ki, dəyişən geosiyasi reallıqlar fonunda əvvəllər işləyən metodlar artıq əvvəlki effektə malik deyil.

Moskvada hesab edirdilər ki, Ermənistan iqtisadiyyatının mühüm hissəsinin rus bazarından asılı olması İrəvanı geri addım atmağa məcbur edəcək. Gözlənti bundan ibarət idi ki, ixracın dayanması fermerlər, istehsalçılar və sahibkarlar arasında narazılığı artıracaq, bu narazılıq isə nəticə etibarilə hakimiyyətə qarşı yönələcək. Başqa sözlə, iqtisadi təzyiq siyasi nəticə doğurmalı idi. Lakin hadisələr fərqli məcrada inkişaf etdi. Ermənistan hökuməti qısa müddətdə alternativ bazarlar axtarmağa başladı və görünən odur ki, bu istiqamətdə müəyyən uğurlar əldə etdi. Burada diqqət çəkən əsas məqam ondan ibarətdir ki, Moskva, əslində, öz mövqelərini zəiflətmiş oldu. İllər boyu Ermənistan üçün əsas ixrac bazarı rolunu oynayan Rusiya bu statusun alternativsiz olduğu düşüncəsinə arxalanırdı. Lakin bazar bağlandıqda İrəvan məcburən yeni istiqamətlər axtarmağa başladı. Bir dəfə alternativ bazar tapıldıqdan sonra isə əvvəlki asılılıq səviyyəsini bərpa etmək artıq çətinləşir. Bu baxımdan, Rusiyanın addımları Ermənistanın iqtisadi şaxələndirmə prosesini sürətləndirən amilə çevrildi.

Məsələnin siyasi tərəfi isə Moskva üçün daha ağrılı görünür. Çünki söhbət yalnız iqtisadi əlaqələrdən getmir. Son aylar Rusiya–Ermənistan münasibətlərində yaranmış gərginlik fonunda İrəvanın Qərblə əlaqələri genişlənir. İndi isə diqqətçəkən məqamlardan biri Ermənistan məhsullarının Ukrayna bazarına çıxışıdır. Rusiya ilə müharibə şəraitində olan Ukraynanın Ermənistan üçün yeni ixrac istiqamətlərindən birinə çevrilməsi Moskva üçün təkcə iqtisadi deyil, həm də ciddi psixoloji və siyasi zərbə hesab oluna bilər. Kreml İrəvanı öz orbitində saxlamaq məqsədilə təzyiq mexanizmlərini işə saldığı halda, nəticədə Ermənistan Rusiyanın ən kəskin rəqiblərindən biri ilə iqtisadi əlaqələrini genişləndirməyə başlayıb.

Bu hadisə bir daha göstərdi ki, iqtisadi münasibətləri siyasi təzyiq alətinə çevirmək hər zaman arzuolunan nəticəni vermir. Xüsusilə qloballaşmış bazarlar, alternativ logistika marşrutları və yeni ticarət tərəfdaşlarının mövcudluğu şəraitində belə addımlar əks effekt yarada bilər. Ermənistan nümunəsində də məhz bu baş verdi. Buna görə də Kremlin bu hadisədən nəticə çıxarması vacibdir. Əgər iqtisadi alətlər siyasi məqsədlər naminə düşünülməmiş şəkildə tətbiq edilərsə, onların nəticəsi gözlənilənin tam əksi ola bilər. Ermənistan hadisəsi göstərdi ki, bazarları bağlamaq bəzən qarşı tərəfi cəzalandırmır, əksinə, onu yeni imkanlar axtarmağa məcbur edir. Bu isə uzunmüddətli perspektivdə təzyiq göstərən tərəfin özünün mövqelərini zəiflədə bilər. Moskva gələcəkdə iqtisadi məsələləri siyasi təsir vasitəsi kimi istifadə etmək istədikdə yüz ölçüb, bir biçməyin nə qədər vacib olduğunu yəqin indi daha yaxşı anlayır.

*Səxavət HƏMİD*
*XQ*

# Milli Məclisdə qanun layihələrinə düzəlişlər müzakirə edilib

**İyunun 19-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. Plenar iclasda gündəlikdə olan 14 məsələ və cari mövzular ətrafında müzakirələr aparıldı. Əvvəlcə “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi növbəti oxunuşa təqdim edildi.**




Qanun layihəsi ilə bağlı çıxış edən deputat Vüqar Bayramov həm büdcə gəlirlərinin strukturu, həm də xərclərin icrasındakı fərqlərlə bağlı fikirlərini bildirdi. V.Bayramov dedi ki, 2025-ci ildə gömrük orqanları dövlət büdcəsinə 6 milyard 369 milyon manat vəsait ödəyib. O, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq qeyd etdi ki, gömrük qurumlarının əsas missiyası fiskal gəlirləri artırmaq yox, iqtisadi təhlükəsizliyi təmin etməkdir: “Azərbaycanda da iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərini nəzərə alsaq, gömrük xətti ilə fiskal ödənişlərin azalması iqtisadi baxımdan anlaşılan olmalıdır. Digər tərəfdən, dövlətin sahibkarlara təqdim etdiyi güzəştlərin genişləndirilməsi də büdcə gəlirlərinə birbaşa təsir göstərir”.

Millət vəkili Kamal Cəfərov sənədsiz evlərlə bağlı məsələyə toxundu. Deputat Azərbaycanda 500 mindən çox sənədsiz tikilinin mövcudluğu və bu problemin həlli üçün xüsusi proqram qəbul edilərək amnistiya elan olunması barədə təklif irəli sürdü. K.Cəfərov qeyd etdi ki, bu gün sənədsiz evlər bazar dəyərindən 20-30 faiz ucuz satılır və banklar tərəfindən girov kimi qəbul edilmir. Nəticədə vətəndaşlar öz əmlakını iqtisadi dövriyyəyə cəlb etmək imkanından məhrum olurlar. Deputat Türkiyənin 2018-ci ildə həyata keçirdiyi “İmar Barış” proqramını nümunə göstərərək bildirdi ki, nəqliyyat və enerji xətlərinin mühafizə zolaqlarında, riskli ərazilərdə, strateji torpaqlarda və mübahisəli ərazilərdə yerləşən evlər istisna olmaqla, digər sənədsiz evlərə çıxarış verilə bilər. Aparılan müzakirələrdən sonra sözügedən qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

* * *

Gömrük Məcəlləsində nəzərdə tutulan dəyişikliyə əsasən, fiziki şəxslər tərəfindən ölkəyə gətirilən malların müvəqqəti saxlanma müddəti maksimum 1 ay olacaq. Layihəyə görə, mallar müvəqqəti saxlanca sadələşdirilmiş bəyannamə və gömrük orqanının aktı əsasında yerləşdiriləcək. Saxlanma müddəti malların xüsusiyyətləri nəzərə alınmaqla müəyyən ediləcək, lakin 1 aydan artıq ola bilməyəcək. Tez xarab olan, pirat və ya kontrafakt şübhəsi doğuran malların gömrükdə saxlanma müddəti isə 10 iş günündən 3 iş gününə endirilir. Həmçinin təklif olunan dəyişikliklərə əsasən, fiziki şəxslər tərəfindən normadan artıq gətirilən və kommersiya məqsədi daşımayan qida məhsulları müvəqqəti saxlanca qəbul edilməyəcək. Bu halda həmin mallar ya geri qaytarılmalı, ya da gömrük orqanının iştirakı ilə məhv edilməlidir.

Layihədə qeyd olunan digər dəyişikliklərə görə, gömrük sərhədini keçdiyi gündən 6 ay müddətində rəsmiləşdirilməyən və ya rəsmiləşdirilməsi başa çatdırılmayan mallar və nəqliyyat vasitələri dövlət mülkiyyətinə keçiriləcək. Həmçinin gömrük ödənişlərinin qaytarılması üçün müraciət müddəti 1 ildən 3 ilə qədər uzadılır. Gömrük borclarının ödənilməsi nağdsız qaydada həyata keçiriləcək və buraxılış məntəqələrində bank, poçt bölmələri ilə yanaşı, ödəniş terminalları da quraşdırılacaq.

Sənədə görə, xarici ticarət iştirakçısı gömrük borcunu ödəmədiyi halda, borcun ödənilməsini təmin etmək məqsədilə gömrük orqanlarına səlahiyyət verilir. Qurum fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət edə biləcək. Məsələ səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

* * *

“Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş”in bir oxunuşda təsdiq edilməsilə Azərbaycanla Ekvador arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilir. Layihə ətafında çıxış edən MM-in Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd etdi ki, Azərbaycan vətəndaşları hazırda 95 ölkəyə vizasız səfər etmək imkanına malikdir. Onun sözlərinə görə, bundan əlavə, Azərbaycan vətəndaşları 86 ölkəyə diplomatik və xidməti pasport, 22 ölkəyə isə ümumvətəndaş pasportu ilə vizasız şəkildə sərbəst gediş-gəliş edə bilirlər.

Milli informasiya təhlükəsizliyini, media subyektlərinin iqtisadi müstəqilliyini və beynəlxalq standartlara uyğunluğu təmin etmək məqsədilə media sahəsində vahid qurumun — Media və Yayım Şurasının yaradılması barədə qanun layihəsi Milli Məclisin deputatları tərəfindən birinci oxunuşdan qəbul edildi. Müzakirələrdə bildirildi ki, “Media haqqında” Qanunda təklif olunan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, eləcə də yerli medianın inkişafına təkan verməyə şərait yaradacaq. Bu xüsusda, media və yayım sahəsində səlahiyyətli Şuranın yaradılması “Dövlət qulluğu haqqında” Qanunun müvafiq maddələrində də dəyişikliklər edilməsini nəzərdə tutur.

Milli Məclis yol hərəkəti təhlükəsizliyini təmin etmək və qəza hallarının qarşısını almaq məqsədilə “Avtomobil yolları haqqında”, “Dövlət rüsumu haqqında” və “İcbari sığortalar haqqında” qanunların mopedlərlə bağlı qanunvericiliyə uyğunlaşdırılmasını birinci oxunuşda təsdiqlədi. Bu addım “Yol hərəkəti haqqında” qanunda edilən əvvəlki dəyişikliklərin icrası çərçivəsində atılıb. Yeni qaydalara əsasən, mopedlərin dövlət qeydiyyatına alınması, texniki baxışdan keçirilməsi, qeydiyyat nişanının və sürücülük vəsiqəsinin verilməsi (və ya dəyişdirilməsi) üçün imtahanların qəbuluna görə dövlət rüsumları müəyyən edilir. Həmçinin qeydiyyatdan keçmiş mopedlərin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortası tələb olunacaq ki, bununla da mopedi idarə etmək üçün “A1” kateqoriyalı sürücülük vəsiqəsi, qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanı məcburi xarakter alacaq.

Dövlət ümumi təhsil müəssisələrində müəyyən edilmiş geyim tələblərinə riayət olunmasının hüquqi müstəvidə təsbitini nəzərdə tutan “Ümumi təhsil haqqında” qanuna dəyişiklik layihəsi birinci oxunuşdan keçdi. Təhsilalanlarla bağlı qaydaların hüquqi əsaslarını dəqiqləşdirmək məqsədi daşıyan bu sənəddə, həmçinin təhsilverənlər üçün də geyimlə bağlı hüquqi əsasın yaradılması öz əksini tapıb. Layihə bütün dövlət ümumi təhsil müəssisələrində vahid yanaşmanı təmin etmək, peşəkar iş mühitini və təşkilati mədəniyyəti daha da möhkəmləndirmək məqsədilə hazırlanıb.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

---

# Sərhəddə “narıncı bulanma”

## *Qafandan Oxçuçaya ölümsaçan axın*

**Güclü yağışlardan sonra Qafan şəhərinin küçələrinə Kavar yatağı ərazisindən sarımtıl-narıncı rəngli sular axıb. Hadisənin baş verdiyi ərazi və onun ekoloji keçmişi bir sıra suallar doğurur. Bu suallara cavab verməzdən əvvəl bəzi faktlara diqqət yetirək. Qafan və ətraf ərazilər Ermənistanın ən iri dağ-mədən sənayesi mərkəzlərindən sayılır. Burada yerləşən Qacaran mis-molibden yatağı və Zəngəzur Mis-Molibden Kombinatı ölkə iqtisadiyyatında mühüm rol oynayır. Eyni zamanda, bölgədə onilliklər ərzində fəaliyyət göstərmiş və sonradan tərk edilmiş mədən sahələri də mövcuddur.**

Maraqlıdır ki, hadisənin diqqət mərkəzinə gətirdiyi Kavar yatağı hazırda istismar olunmur. Hələ 2015-ci ildə Ermənistanın Ümumerməni Ekoloji Cəbhəsi bu ərazi ilə bağlı narahatlığını ifadə etmişdi. Ekoloqların bildirdiyinə görə, yataq ərazisindən keçən axarlar burada sarı rəng alır, daha sonra Voqçi (Oxçuçay) çayına qarışır. Onların qənaətincə, istifadəsiz qalmış mədən sahəsində toplanmış ağır metallarla zəngin drenaj suları səth və yeraltı sulara qarışaraq ətraf mühit və insan sağlamlığı üçün risk yaradır. Bu baxımdan, son hadisənin mümkün səbəbləri sırasında yalnız fəaliyyətdə olan mədən müəssisələri deyil, illər əvvəl bağlanmış və lazımi rekultivasiya işləri aparılmamış yataqlar da var.

Ekologiya və geokimya sahəsində aparılmış beynəlxalq araşdırmalar göstərir ki, mis və digər metal yataqlarının yerləşdiyi ərazilərdə müşahidə olunan sarımtıl-narıncı və ya qəhvəyi rəngli sular əksər hallarda “turşulu mədən drenajı” adlanan proseslə bağlıdır.

Mövzu ilə bağlı “Davamlı inkişaf və inklüzivlik” qeyri-hökumət təşkilatının sədri Sabit Bağırov bildirib ki, sulfid mineralları, xüsusilə dəmir kolçedanı su və oksigenlə təmasda olduqda oksidləşərək sulfat turşusu əmələ gətirir, dəmir ionları isə oksidləşmə nəticəsində narıncı rəngli çöküntülər yaradır: “Belə hallarda problem yalnız suyun rənginin dəyişməsi ilə məhdudlaşmır. Suya mis, sink, molibden, kadmium, arsen, civə və digər ağır metallar qarışa bilər ki, bu da çay ekosistemləri üçün ciddi təhlükə yaradır.

Şübhəsiz, Qafanda baş verən hadisənin regional əhəmiyyəti ilk növbədə onun transsərhəd xarakteri ilə bağlıdır. Uzunluğu 83 kilometr olan Oxçuçay Zəngəzur silsiləsinin Qapıcıq dağından başlayaraq Ermənistanın Sünik vilayətindən keçir, daha sonra Azərbaycanın Zəngilan rayonu ərazisindən axaraq Araz çayına tökülür. Araz isə Kür çayının ən böyük qollarından biridir. Bu səbəbdən hövzənin yuxarı hissəsində baş verən çirklənmə aşağı axın ərazilərində də ekoloji fəsadlar törədir.

2020-ci ildə Zəngilan rayonunun işğaldan azad edilməsindən sonra aparılan monitorinqlər zamanı çaydan götürülmüş nümunələrdə mis, molibden, manqan, dəmir, sink, xrom və digər ağır metalların yüksək konsentrasiyası aşkar edilib. Rəsmi məlumatlara görə, bəzi göstəricilər normanı dəfələrlə üstələyib. Həmin dövrdə çayın suyunda rəng dəyişiklikləri müşahidə olunub və Zəngilan ərazisində kütləvi balıq ölümü halları qeydə alınıb. Laborator analizlər çay suyunda və dib çöküntülərində ağır metalların yüksək səviyyədə toplandığını təsdiqləyib.



Bu faktlar fonunda Qafanda baş verən son hadisə təsadüfi və lokal xarakterli bir təbiət hadisəsindən daha geniş məna kəsb edir. Bölgədə ekoloji risklərin hələ də aradan qalxmadığını, köhnə mədənlərin rekultivasiyası və təhlükəsiz vəziyyətə gətirilməsi sahəsində ciddi problemlərin mövcudluğunu göstərir. Əslində, hadisə həm də iqlim dəyişikliklərinin yaratdığı yeni çağırışları xatırladır. Son illər intensiv yağıntılar, daşqınlar və sel hadisələri daha tez-tez baş verir. Belə şəraitdə həm fəaliyyətdə olan, həm də tərk edilmiş mədən sahələrində toplanmış tullantıların ətraf mühitə yayılması riski artır. Güclü yağışlar nəticəsində çöküntülər, ağır metallar və digər çirkləndiricilər çay sistemlərinə daxil olaraq daha geniş ərazilərə yayılır.

Bütün bunlar göstərir ki, Qafanda müşahidə olunan “narıncı bulanma” regionda ekoloji təhlükəsizlik və transsərhəd su ehtiyatlarının idarə olunması ilə bağlı mövcud problemləri yenidən gündəmə gətirib. Hadisənin obyektiv qiymətləndirilməsi üçün su nümunələrinin beynəlxalq standartlara uyğun analiz olunması, nəticələrin ictimaiyyətə açıqlanması, müstəqil ekspertlərin prosesə cəlb edilməsi və Oxçuçay–Araz hövzəsində davamlı monitorinq mexanizmlərinin yaradılması vacib hesab olunur. Çünki söhbət təkcə Qafan şəhərinin küçələrində görünən sarımtıl-narıncı sulardan deyil, milyonlarla insanın istifadə etdiyi su ehtiyatlarının, çay ekosistemlərinin və regionun ekoloji gələcəyinin qorunmasından gedir.

**Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun şöbə müdiri İsmayıl Quliyev** XQ-yə bildirdi ki, Oxçuçay–Araz hövzəsində uzun illər müşahidə olunan ekoloji vəziyyət ciddi narahatlıq yaradır. Onun sözlərinə görə, 4–5 il bu ərazidə elmi tədqiqatlar aparıb, çay sularının dinamikasını öyrənib. Aparılan tədqiqatlar və su nümunələrinin analizi çirklənmənin əsasən Ermənistan ərazisində fəaliyyət göstərən və fəaliyyəti dayandırılmış mədən və emal müəssisələrinin tullantıları ilə bağlı olduğunu göstərir: “Problem ondadır ki, Ermənistan hələ də Oxçuçaydan kollektor kimi istifadə edir. İstehsal prosesi zamanı yaranan, yüksək miqdarda ağır metallar ehtiva edən çirkli sular heç bir təmizlənmə aparılmadan birbaşa çaya axıdılır”.

İ.Quliyev qeyd etdi ki, Zəngilan ərazisində allüvial-çəmən torpaqlarda 1–1,5 metr dərinlikdə çirkləndirici maddələrin toplandığı müşahidə olunur. Onun müşahidələrinə əsasən, Oxçuçay Araz çayına qovuşarkən 4–5 metr enində və təxminən 500 metr uzunluğunda kəskin rəng fərqi yaradır ki, bu da çay sularının qarışmasının vizual şəkildə aydın görünməsinə səbəb olur və Oxçuçayın sənaye tullantıları daşıyıcısına çevrildiyini göstərir. Bu vəziyyət həm su ekosistemləri,





həm də insan sağlamlığı üçün ciddi risk yaradır.

Mütəxəssis bildirdi ki, dağ-mədən fəaliyyəti nəticəsində yaranan turşulu mədən drenajı və ağır metalların su hövzələrinə qarışması balıqların və digər su canlılarının məhvinə, biomüxtəlifliyin azalmasına və qida zəncirinin pozulmasına səbəb olur: “Çirklənmiş suların suvarmada istifadəsi torpaqda toksik maddələrin toplanmasına, məhsuldarlığın azalmasına və kənd təsərrüfatına yararlılığın zəifləməsinə gətirib çıxarır, həmçinin bioakkumulyasiya və biomagnifikasiya nəticəsində canlılar üçün əlavə təhlükələr yaradır. İnsan sağlamlığı baxımından isə ağır metallarla çirklənmiş suyun içməli su mənbələrinə qarışması və ya belə sularla suvarılan məhsulların istehlakı müxtəlif xəstəliklərin, o cümlədən sinir sistemi pozğunluqları, böyrək və sümük zədələnmələri və xərçəng riskinin artmasına səbəb ola bilər”.

Şöbə müdiri vurğuladı ki, transsərhəd çay sistemlərində çirklənmənin təsirləri lokal deyil, regional xarakter daşıyır və geniş ərazilərə yayılır. Buna görə də Oxçuçay–Araz hövzəsindəki vəziyyət yalnız ekoloji deyil, həm də regional təhlükəsizlik və ictimai sağlamlıq problemi kimi qiymətləndirilməlidir və bu istiqamətdə beynəlxalq təşkilatların daha aktiv iştirakı vacibdir.

Sonda qeyd edək ki, Azərbaycan bu məsələ ilə bağlı dəfələrlə həyəcan təbili çalıb və beynəlxalq təşkilatlara faktlara əsaslanan müraciətlər göndərib. Lakin Ermənistanın Transsərhəd Sular üzrə Helsinki Konvensiyasına qoşulmaması səbəbindən məsuliyyət məsələsinin hüquqi müstəvidə həlli çətinləşir. 1992-ci ildə qəbul edilmiş bu Konvensiya transsərhəd su ehtiyatlarının ekoloji cəhətdən təhlükəsiz idarə olunması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün mühüm mexanizm hesab olunur.

Göründüyü kimi, Ermənistanın indiyədək Helsinki Konvensiyasına qoşulmaması bu ölkənin gələcəkdə də regionda ekoloji terror siyasətini davam etdirmək niyyətində olduğunun sübutudur. İnanmaq istərdik ki, işğala son qoyulduğu kimi, tezliklə bu özbaşnalığa da son qoyulacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Odlar yurdu Orta Dəhlizin mərkəzi ölkəsidir

**Bakıda keçirilən İslam İnkişaf Bankının 51-ci illik toplantılarının son iş günündə "Dayanıqlı nəqliyyat və ticarət üçün Orta Dəhlizin maliyyələşdirilməsi" adlı sessiya keçirilib. Yığıncaqda Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun əhəmiyyəti barədə fikirlər səsləndirilib, bu mühüm yükdaşıma dəhlizinin funksionallığının artırılması sahəsində nəzərdə tutulmuş işlərə nəzər salınıb.**




Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov çıxış edərək bildirib ki, ölkəmiz Orta Dəhlizi və ümumilikdə, nəqliyyat ekosisteminin dayanıqlılığını gücləndirəcək böyük infrastruktur layihələrini sürətləndirir. Onun sözlərinə görə, 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanmış Vaşinqton Bəyannaməsi Zəngəzur dəhlizinin yaradılması istiqamətində atılmış vacib addım olmaqla onun regional nəqliyyat şəbəkələrinin ayrılmaz tərkib hissəsi kimi möhkəmlənməsinə xidmət edib.

Bu istiqamətdə layihənin illik ötürmə qabiliyyətinin 15 milyon ton həcmində nəzərdə tutulduğunu diqqətə çatdıran nazir müavini, eyni zamanda, hazırda Bakı Limanının ikinci mərhələ genişləndirilməsi layihəsinin həyata keçirildiyini bildirib: "Bununla limanın yükdaşıma qabiliyyəti illik 25 milyon ton və 500 min TEU səviyyəsinə çatdırılır. Bundan əlavə, Ələt Azad İqtisadi Zonasında ixtisaslaşmış aviasiya klasteri yaradılır, milli dəmir yolu şəbəkələri tam elektrikləşdirilərək modernləşdirilir, yeni yüksəkötürücülü avtomobil və dəmir yolu xətləri inşa edilir".

Qeyd olunub ki, bu infrastruktur təşəbbüsləri Orta Dəhliz boyunca beynəlxalq və institusional marağın artmasına səbəb olub. Azərbaycanın İslam İnkişaf Bankı Qrupu və digər çoxtərəfli inkişaf institutlarının dayanıqlı əlaqəliliyin və regional inteqrasiyanın dəstəklənməsində rolunu yüksək qiymətləndirdiyini vurğulayan R.Hümmətov deyib ki, məhz onların təcrübəsi, maliyyələşdirmə alətləri və özəl kapitalın səfərbər edilməsi qabiliyyəti strateji nəqliyyat layihələrinin maliyyələşdirilməsi və kommersiya baxımından dayanıqlı investisiyalara çevrilməsi üçün mühüm əhəmiyyət daşıyacaq. Nazir müavini sonda müzakirələrin praktik həllərin müəyyən edilməsinə, tərəfdaşlıqların gücləndirilməsinə, daha əlaqəli və firavan region baxışının irəlilədilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Asiya İnfrastruktur İnvestisiya Bankının baş direktoru Xiaohong Yang Orta Dəhlizin inkişafı sahəsində həlli vacib məsələlərə toxunub. Bu sahədə birinci prioritetin "bankable" layihələrin maliyyələşdirilməsindən ibarət olduğunu bildirən baş direktorun sözlərinə görə, növbəti 3 ildə Orta Dəhliz üçün, təxminən, 28 milyard ABŞ dollarına ehtiyac var ki, bu da infrastrukturun hələ də bir nömrəli prioritet olaraq qaldığını isbatlayır. Qeyd olunub ki, bu nəqliyyat dəhlizini investorlar və yükdaşıyıcılar üçün cəlbedici etmək üçün ən vacib məsələ onun etibarlı və proqnozlaşdırıla bilməsi ilə bağlıdır. Orta Dəhlizdə əməliyyat səmərəliliyinin artırılmasına ehtiyac olduğunu vurğulayan bank rəhbəri bildirib ki, keçmişdə daşımaların bir ay çəkdiyi Orta Dəhlizlə hazırda yükləri 18 günə mənzil başına çatdırmaq mümkün olsa da, bu müddət hələ də yüksəkdir.

AİİB-in baş direktoru daha sonra qeyd edib ki, Orta Dəhlizin işləməsi üçün daha çox layihəyə ehtiyac var: "Bu təkcə avtomobil və dəmir yolları deyil, həm də gəmilər, donanmalar, dəniz və hava limanları, əməliyyat sistemləri və rəqəmsal platformaları əhatə edir. Bu dəhlizdə çoxsaylı operatorlar birlikdə işləməlidir, çünki Orta Dəhliz əsas xüsusiyyəti multimodal olmasıdır, yəni yalnız bir infrastruktur növü deyil, bütün sistemlərin birgə işləməsi vacibdir". Azərbaycanda aparılan modernləşmə proseslərini yüksək qiymətləndirən baş direktor dövlət qurumlarında və müəssisələrdə keçirdiyi görüşlər zamanı ölkəmizin Orta Dəhliz üzrə investisiyaların, xüsusən də dövlət–özəl tərəfdaşlığının təmin edilməsində mühüm rol oynadığına əmin olduğunu bildirib.

Baş direktor mediaya açıqlamasında Azərbaycanı regionda Asiya İnfrastruktur İnvestisiya Bankının fəaliyyət göstərdiyi ən mühüm ölkələrdən biri kimi dəyərləndirərək rəhbərlik etdiyi qurumun ölkəmizin əsas dövlət qurumları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Asiya İnfrastruktur İnvestisiya Bankının Azərbaycanda nəqliyyat və infrastruktur sahələrində bir sıra mühüm layihələrin həyata keçirilməsində iştirak etdiyini xatırladan baş direktor hazırda Bakı Metropoliteni və Azərbaycan Dəmir Yolları ilə bir sıra layihələr üzərində işlədiklərini bildirib.

Xiaohonq Yanq qeyd edib ki, Asiya İnfrastruktur İnvestisiya Bankı üçün əsas prioritetlər infrastrukturun inkişafı, xüsusilə texnologiyalara əsaslanan infrastruktur layihələri, özəl sektor investisiyalarının səfərbər olunması, sərhədlərarası bağlantıların gücləndirilməsi və yaşıl infrastrukturdur: "Biz Xəzər dənizi Yaşıl Enerji Dəhlizi təşəbbüsünə investisiya yatırırıq və gələcəkdə regional əməkdaşlığın daha da gücləndirilməsinə töhfə verməyi hədəfləyirik. Biz Azərbaycanı strateji baxımdan son dərəcə əhəmiyyətli ölkə hesab edirik. Qarşıdakı illərdə ölkə Orta Dəhliz çərçivəsində regional əməkdaşlıq və inteqrasiyanın inkişafında çox böyük rol oynaya bilər".

İnkişaf Maliyyəsi üzrə Çoxtərəfli Əməkdaşlıq Mərkəzinin baş icraçı direktorunun baş müşaviri Ayumi Konişi isə bildirib ki, Orta Dəhliz Asiya və Avropanı birləşdirən mühüm ticarət marşrutu kimi getdikcə daha böyük əhəmiyyət qazanır və onun inkişafı üçün yüksək keyfiyyətli infrastruktur investisiyaları vacibdir. Onun sözlərinə görə, Orta Dəhliz üzrə layihələr İslam İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və digər tərəfdaş institutlar vasitəsilə dəstəklənə bilər.

Baş müşavir qeyd edib ki, 2021-ci ildə yaradılmış İnkişaf Maliyyəsi üzrə Çoxtərəfli Əməkdaşlıq Mərkəzi 7 donor ölkə tərəfindən maliyyələşdirilir və 14 beynəlxalq maliyyə institutu ilə əməkdaşlıq edir. 2021-ci ildən etibarən fəaliyyət göstərən bu təşəbbüsün məqsədinin tərəfdaşlıqlar vasitəsilə yüksək keyfiyyətli əlaqələndirici infrastruktur investisiyalarını təşviq etməkdən ibarət olduğunu diqqətə çatdıran baş müşavir deyib ki, 7 ölkə tərəfindən maliyyələşdirilən və 14 çoxtərəfli inkişaf bankı və ya beynəlxalq maliyyə institutları ilə, o cümlədən İslam İnkişaf Bankı ilə sıx əməkdaşlıq edən qurum son 5 il yarımda 100-dən çox ölkədən olan 8 min 500 nəfərin iştirakı ilə 43 tədbir keçirib.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

Azərbaycan pavilyonu Prezident İlham Əliyevin ali himayəsi altında keçirilən İslam İnkişaf Bankı Qrupunun 51-ci illik toplantıları çərçivəsində Bakı Konqres Mərkəzində sərgi keçirilib. İllik toplantıların əhatə etdiyi Özəl Sektor Forumu çərçivəsində strateji investisiya və ticarət imkanlarının təqdimatı məqsədilə təşkil olunan sərgidə Azərbaycan pavilyonu yaradılıb.

# Azərbaycanın iqtisadi imkanlarının təqdimatı




İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, pavilyon "İnteqrasiya olunmuş Azərbaycan: investisiya, innovasiya və "Made in Azerbaijan" mövzusuna həsr edilib. Ölkəmizin iqtisadi imkanlarının vahid platformada nümayiş etdirildiyi pavilyonda iqtisadi zonalar, KOB, sənaye, ixracın və investisiyaların təşviqi, fintek, maliyyə ekosistemi, daşınmaz əmlak, şəhərsalma, enerji, innovasiyalar üzrə tematik bölmələr formalaşdırılıb. Burada Azərbaycanın investisiya mühiti barədə məlumat verilir, sözügedən mövzularda videoçarx və əyani vəsaitlər nümayiş olunub.

Pavilyonun "Made in Azerbaijan" bölməsində qida, toxuculuq, sənaye və digər sahələr üzrə yerli istehsal məhsulları nümayiş etdirilib. Bununla yanaşı, mədəniyyət, yaradıcı sənaye və turizm istiqamətləri üzrə təqdimatlar vasitəsilə Azərbaycanın mədəni irsi və turizm potensialı tanıdılır.

Sərgi çərçivəsində İslam İnkişaf Bankı Qrupuna daxil olan qurumların stendləri, eləcə də üzv ölkələr və tərəfdaş təşkilatlara məxsus stendlər də nümayiş olunub.

Sərgi İslam İnkişaf Bankı Qrupunun xidmət və təşəbbüslərinin təqdimatı, üzv ölkələrin investisiya və ticarət imkanlarının nümayişi, tərəfdaş təşkilatlarla əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün platforma rolunu oynayıb.

Xatırladaq ki, iyunun 16-19-da Bakıda İslam İnkişaf Bankı Qrupunun 51-ci illik toplantıları keçirilib. "Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusuna həsr olunmuş toplantılarda qrupa üzv 57 ölkədən rəhbər şəxslər, dövlət və özəl sektorun, eləcə də beynəlxalq maliyyə institutlarının nümayəndələri iştirak ediblər.

*XQ*

# Ölkəmizin gənc jurnalistləri Türkiyədə enerji təlimində



**İyunun 17-19-da Enerji Dialoqu Platforması çərçivəsində gənc media nümayəndələri üçün silsilə məlumatlandırma sessiyaları iştirakçılarının Türkiyəyə səfəri təşkil olunub.**

Səfərin ilk günündə gənc jurnalistlər SOCAR-ın İstanbul şəhərində yerləşən ofisini ziyarət edib, şirkətin fəaliyyəti ilə tanış olublar. Burada təşkil olunan məlumatlandırma sessiyasında "SOCAR Türkiyə"nin baş icraçı direktorunun kommunikasiya və dövlətlə əlaqələr üzrə müavini Mikayıl Yusifov şirkətin qardaş ölkədəki çoxşaxəli fəaliyyəti, icra olunan layihələr, əldə olunan nailiyyətlər, strateji hədəflər ilə bağlı ətraflı məlumat verib, media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Proqramın növbəti günündə İzmir şəhərinə gedən gənclər "SOCAR Türkiyə" şirkətinin Əliağadakı inzibati binasında məlumatlandırma sessiyasında iştirak ediblər. "SOCAR Türkiyə"nin Emal və neft-kimya biznes vahidi rəhbərinin maliyyə məsələləri üzrə müavini Ahmet Gülhan təqdimat ilə çıxış edərək, "Petkim" neft-kimya kompleksinin və "STAR" Neft Emalı Zavodunun fəaliyyəti, artan istehsal gücü və perspektivdə nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib.

"SOCAR Terminal"ın baş direktoru Uygun Dəyirmançı təqdimatında terminalın fəaliyyətindən, ötən illər ərzində şirkətin logistik imkanlarının genişləndirilməsi üzrə atılan addımlardan, əldə olunan uğurlardan, yükdaşıma əməliyyatlarında səmərəliliyin və xidmət keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

"SOCAR Türkiyə"nin dayanıqlılıq və SƏTƏM üzrə korporativ direktoru Məhmət Özənbaş çıxışında ətraf mühit, sosial və korporativ idarəetmə yanaşmalarının müasir biznes mühitində artan rolundan bəhs edərək şirkətin əməliyyat səmərəliliyi və dayanıqlı inkişaf sahəsində həyata keçirdiyi layihələr, müəssisələrdə tətbiq olunan rəqəmsal həllər barədə məlumat verib. Bu çərçivədə media nümayəndələrinin sualları cavablandırılıb.

Daha sonra gənc jurnalistlər üçün "Petkim" neft-kimya kompleksinin, "STAR" Neft Emalı Zavodunun və "SOCAR Terminal"ın ərazisinə sahə turları təşkil olunub. Sahə turları çərçivəsində iştirakçılar müəssisələrin əməliyyat fəaliyyəti, müasir texnoloji imkanları ilə tanış olublar.

*Nurlu ABDALOV*
*XQ*

# Salyanda da taxıl biçini başlandı

**"Azərbaycan Respublikasında aqrar sahənin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Salyan rayonunda da mühüm tədbirlər həyata keçirilir. Hazırda rayonda ilin ən mühüm kənd təsərrüfatı kampaniyalarından sayılan taxıl biçininin qızğın çağıdır.**



Bugünlərdə rayon icra hakimiyyətinin başçısı Rüstəm Xəlilov Sarvan kəndində yerli fermer və toxumçu Mərdan Cəlilovun təsərrüfatında arpa biçininin gedişi ilə tanış olub. Taxıl sahəsində keçirilən görüşdə Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariel Atamalıyev, mərkəzin texniki nəzarətin təşkili sektorunun müdiri Avdı Həsənov, bitkiçilik sektorunun müdiri Rişad Əsgərli, "Aqroservis" ASC-nin Salyan rayon bölməsinin rəisi Elnur Xancanov, eləcə də fermerlər və mexanizatorlar iştirak ediblər.

Fermer rayon rəhbərinə təsərrüfatına məxsus taxıl sahələri barədə ətraflı məlumat verib. Bildirilib ki, ona məxsus 35 hektar sahədə yüksək reproduksiyalı toxumluq arpa, 152 hektar sahədə isə toxumluq buğda əkilib. Hazırda 5 hektar sahəni əhatə edən "Qarabağ-22" sortlu toxumluq arpa biçilir.



Taxıl sahələrinə baxış zamanı rayon rəhbəri taxılçılığın ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında strateji əhəmiyyət daşıdığını vurğulayıb, fermerlərə bol məhsul və uğurlar arzulayıb.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru rayonda taxıl sahələrinin vəziyyəti, məhsuldarlıq göstəriciləri və aqrotexniki qulluq tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, biçin prosesinin vaxtında və itkisiz başa çatdırılması məqsədilə kombaynlar və digər kənd təsərrüfatı texnikaları tam hazır vəziyyətdə saxlanılır.

Rayon icra hakimiyyətinin başçısı daha sonra "Pagro MMC"nin Salyan filialı ilə müqavilə bağlayan fermer Amil Ələmovun pambıq sahəsinə baxış keçirib. Burada III kultivasiya işlərinin aparıldığı və əkin zamanı "Bəyaz Altun 1010 R1" pambıq sortundan istifadə olunduğu bildirilib.

Sonda biçin kampaniyasının optimal müddətdə, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməklə və məhsul itkisinə yol verilmədən başa çatdırılması, həmçinin pambıq sahələrində aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı aidiyyəti qurum rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 179** **12 iyun 2026-cı il, Bakı şəhəri**

**"İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən bu sahələrdə istifadəsi nəzərdə tutulmuş laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların siyahısı"nın və "İdxalı əlavə dəyər vergisindən azad edilən kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının siyahısı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanının 2.3.4-cü və 2.3.5-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən bu sahələrdə istifadəsi nəzərdə tutulmuş laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "İdxalı əlavə dəyər vergisindən azad edilən kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 182** **16 iyun 2026-cı il, Bakı şəhəri**

**"Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 fevral tarixli 32 nömrəli Qərarında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 avqust tarixli 241 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmətlərin təşkili və göstərilməsi qaydaları"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 fevral tarixli 32 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 222 (Cild I); 2024, № 9, maddə 1090) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və birinci hissədə "aparılması" sözü "formalaşdırılması, aparılması və istifadəsi" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissədə "Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə, büdcə təşkilatlarına" sözləri "Dövlət xidmətini göstərən dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə, digər büdcə təşkilatlarına, habelə qanuna əsasən inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd qəbul etmək səlahiyyəti verilmiş fiziki və ya hüquqi şəxslərə" sözləri ilə, "elektron imza" sözləri "təkmil sertifikatlı gücləndirilmiş elektron imza" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları" üzrə:

1.3.1. adında "aparılması" sözü "formalaşdırılması, aparılması və istifadəsi" sözləri ilə əvəz edilsin;

1.3.2. 1.2.1-1.2.4-cü və 1.2.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.1. dövlət xidməti (bundan sonra – xidmət) – xidmət təminatçıları tərəfindən səlahiyyətlərinin icrası ilə əlaqədar göstərilən və müəyyən hüquqi nəticənin yaranmasına, yaxud xidmət istifadəçisinə zəruri informasiyanın verilməsinə səbəb olan hərəkətlərin məcmusu;

1.2.2. xidmət təminatçısı – dövlət xidmətini göstərən dövlət orqanı və yerli özünüidarəetmə orqanı, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxs, dövlət adından yaradılan publik hüquqi şəxs, digər büdcə təşkilatı, habelə qanuna əsasən inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs;

1.2.3. xidmət istifadəçiləri – dövlət xidmətindən istifadə üçün müraciət etmiş və ya xidmət göstərilən dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər, o cümlədən dövlət mülkiyyətində olan, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, digər büdcə təşkilatları və Azərbaycan Respublikasının qanunlarında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, habelə Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları, beynəlxalq təşkilatların bölmələri, nümayəndəlikləri və orqanları;

1.2.4. Dövlət Xidmətlərinin Elektron Reyestri (bundan sonra – Elektron Reyestr) – dövlət xidmətləri barədə məlumatları əks etdirən vahid informasiya sistemi;

1.2.7. dövlət xidmətinin reqlamenti – Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 may tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət xidmətinin reqlamentinin nümunəvi forması"na uyğun olaraq xidmət təminatçısı tərəfindən təsdiq edilən, dövlət xidmətlərinin göstərilməsi ilə bağlı normativ hüquqi aktların tələblərini əks etdirən rəsmi sənəd.";

1.3.3. 1.3.1-ci yarımbənddə "qurumların" sözü "xidmət təminatçılarının" sözləri ilə, "fiziki və hüquqi şəxslərə, qurumlara və s." sözləri "xidmət istifadəçilərinə" sözləri ilə əvəz edilsin;

1.3.4. 1.3.10-cu yarımbənddə "vətəndaşların" sözü "xidmət istifadəçilərinin" sözləri ilə əvəz edilsin;

1.3.5. 1.3.11-ci yarımbənddə "qurumların" sözü "xidmət təminatçılarının" sözləri ilə əvəz edilsin;

1.3.6. 2.2.2-1-ci yarımbənddə və 4.1-ci bənddə "qurumlar" sözü "xidmət təminatçıları" sözləri ilə əvəz edilsin;

1.3.7. 2.2.3-cü yarımbənddə, 4.5-ci və 4.6-cı bəndlərdə "qurum" sözü "xidmət təminatçısı" sözləri ilə əvəz edilsin;

1.3.8. 2.3-cü bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"2.3. Bu Qaydaların 2.2.1–2.2.2-1-ci yarımbəndlərində nəzərdə tutulmuş bölmələrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 may tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısı"nda göstərilən məlumatlar əlavə edilir.";

1.3.9. 2.3.4-cü, 2.3.5-ci, 2.5.1-ci, 2.5.2-ci və 2.5.3-cü yarımbəndlərdə və 3.3-cü bənddə "qurumun" sözü "xidmət təminatçısının" sözləri ilə əvəz edilsin;

1.3.10. 3.2.13-cü yarımbənddə "qurumlara" sözü "xidmət təminatçılarına" sözləri ilə əvəz edilsin;

1.3.11. 4.2-ci bənddə "Qurum" sözü "Xidmət təminatçısı" sözləri ilə əvəz edilsin;

1.3.12. 4.2.2-ci yarımbənddə "qurumun" sözü "xidmət təminatçısının" sözləri ilə əvəz edilsin;

1.3.13. 4.5.2-ci, 4.5.4-cü və 4.5.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.5.2. məsul şəxs vasitəsilə bu Qaydaların 2.3-cü və 2.5-ci bəndlərinə uyğun olaraq xidmətlər barədə məlumatları elektron kabinet üzərindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edərək Elektron Reyestrə göndərir;";

"4.5.4. Elektron Reyestrin operatorundan bildirişi aldıqdan 7 (yeddi) iş günü müddətində aşkar edilmiş çatışmazlıqları aradan qaldırır və məlumatları yenidən Elektron Reyestrin operatoruna göndərir;

4.5.5. 7 (yeddi) iş günü müddətində Elektron Reyestrin operatoruna Elektron Reyestrdə olan məlumatlarda dəyişikliklərin edilməsi barədə bildiriş göndərir və ya onların Elektron Reyestrdən çıxarılması (Elektron Reyestrin operatorunun çıxarılma ilə bağlı bildirişi əsasında isə 3 (üç) iş günü müddətində) üçün müraciət edir;";

1.3.14. 4.5.6-cı yarımbənddə "1 (bir) aydan gec olmayaraq Elektron Reyestrin müvafiq elektron anketləri üzrə məlumatları təqdim edir" sözləri "30 (otuz) iş günündən gec olmayaraq dövlət xidmətinin reqlamentini Elektron Reyestrə daxil edilməsi üçün təqdim edir" sözləri ilə əvəz edilsin;

1.3.15. 4.5.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.5.9-cu yarımbənd əlavə edilsin:

"4.5.9. Elektron Reyestrin operatorundan Elektron Reyestrdə qeydə alınmış dövlət xidmətləri haqqında məlumatlarda dəyişiklik edilməsi barədə bildirişi aldıqdan sonra 7 (yeddi) iş günü müddətində müvafiq dəyişiklik edərək bu barədə Elektron Reyestrin operatoruna elektron formada bildiriş göndərir.";

1.3.16. 4.7.1-ci, 4.7.2-ci və 4.7.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.7.1. 7 (yeddi) iş günü müddətində xidmət təminatçısı tərəfindən göndərilmiş məlumatların tamlığı və düzgünlüyünü yoxlayır və bu barədə xidmət təminatçısına elektron formada bildiriş göndərir;

4.7.2. yoxlama zamanı çatışmazlıq aşkar edilmədikdə, habelə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra məlumatların tamlığı və düzgünlüyünü təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edir;";

"4.7.4. Elektron Reyestrdə qeydə alınmış dövlət xidmətləri haqqında məlumatların dəyişiklik edilməsi zərurətini aşkar etdikdə xidmət təminatçısına bu barədə 1 (bir) iş günü müddətində elektron formada bildiriş göndərir və bu Qaydaların 4.5.5-ci və 4.5.9-cu yarımbəndlərində qeyd olunan bildirişi aldıqdan sonra Elektron Reyestrdə dəyişiklik edilməsi üçün bu Qaydaların 4.7-ci bəndinə uyğun olaraq tədbirlər görür;";

1.3.17. 4.7.3-cü yarımbənd ləğv edilsin;

1.3.18. aşağıdakı məzmunda 4.7.5-ci, 4.7.6-cı yarımbəndlər və 4.13-cü bənd əlavə edilsin:

"4.7.5. xidmət təminatçısının Elektron Reyestrdən çıxarılması barədə müraciəti əsasında 1 (bir) iş günü müddətində xidməti Elektron Reyestrdən çıxarır;

4.7.6. xidmətin Elektron Reyestrdən çıxarılması əsaslarını aşkar etdikdə bu barədə 7 (yeddi) iş günü müddətində xidmət təminatçısına elektron bildiriş göndərir. Xidmət təminatçısı isə xidmətinin Elektron Reyestrdən çıxarılması üçün 3 (üç) iş günü müddətində Reyestrin operatoruna elektron müraciət etdikdə 3 (üç) iş günü müddətində xidməti Elektron Reyestrdən çıxarır. Xidmət təminatçısı tərəfindən xidmətin Elektron Reyestrdən çıxarılması üçün 3 (üç) iş günü müddətində Reyestrin operatoruna elektron müraciət edilmədikdə xidməti Elektron Reyestrdən çıxarır.";

"4.13. Xidmət təminatçısı olan qurumun ləğv edilməsi halında xidmətin həyata keçirilmə səlahiyyəti digər xidmət təminatçısına verildikdə müvafiq xidmətlə bağlı hüquq və vəzifələr bu Qaydaların 4.5-ci və 4.7-ci bəndlərində nəzərdə tutulmuş qaydada həmin xidmət təminatçısı tərəfindən həyata keçirilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 avqust tarixli 241 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 813) ilə təsdiq edilmiş "Elektron xidmətlərin təşkili və göstərilməsi qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddə "olunduqdan sonra EHİS vasitəsilə göstərilir" sözləri "edilməklə EHİS üzərindən və ya rəsmi internet informasiya ehtiyatında EHİS-ə keçid verildikdən sonra göstərilir" sözləri ilə əvəz edilsin;

2.2. 2.3-cü bəndə "göstərilməsi" sözündən sonra "Dövlət xidmətləri haqqında" və" sözləri əlavə edilsin və həmin bənddə "Qanununa" sözü "qanunlarına" sözü ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. İstifadəçilərə göstərilən xidmətlər haqqında məlumatları, habelə barələrində sorğu edilən məlumatları əldə etmələri üçün onlara EHİS vasitəsilə elektron kabinetlərində imkan yaradılmalıdır.";

2.4. aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. Dövlət Xidmətlərinin Elektron Reyestrində qeydiyyata alınan xidmətlərin elektronlaşdırılması barədə məlumatlar real vaxt rejimində "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin iyul ayında vətəndaşların qəbulu

# CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini**<br>**Şərifov Samir Rauf oğlu** | **3** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **6** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | **7** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **3** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **9, 23** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **10, 24** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **13, 27** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **14** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **15, 29** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **0** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **2** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **16, 30** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **17, 28** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **8, 22** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**

**Ünvan:** Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.

Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün:** (012) 492-19-23, (012)492-88-96.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 180** **12 iyun 2026-cı il, Bakı şəhəri**

**"Sənaye və texnologiyalar parklarının idarəedici təşkilatı və operatoru tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı"nın və "Sənaye və texnologiyalar parklarının rezidentləri tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanının 2.3.3-cü və 2.3.7-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Sənaye və texnologiyalar parklarının idarəedici təşkilatı və operatoru tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "Sənaye və texnologiyalar parklarının rezidentləri tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 181** **16 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"da dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 734; 2025, № 10, maddə 993, № 12 (II kitab), maddə 1257) ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"ın 159.1-ci və 160.1-ci bəndlərinin birinci cümlələrində "(elektron və ya yazılı formada)" sözləri "(məişət istehlakçıları elektron və ya yazılı, qeyri-məişət istehlakçıları elektron formada)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 183** **16 iyun 2026-cı il, Bakı şəhəri**

**"Dəmiryol nəqliyyatında mülki müdafiənin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatında mülki müdafiənin təşkili Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İİB Qrupunun Qarabağ və Şərqi Zəngəzurun bərpasına tərəfdaşlıq dəstəyi

**İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası hökumət qarşısında duran əsas prioritetlərdən biridir.**

Dövlət başçısı qeyd edib ki, işğal altında olan ərazilər azad etdildikdən dərhal sonra genişmiqyaslı bərpa və yenidənqurma proqramına başlanılıb: “Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır”.

Ölkə başçısı əlavə edib ki, hazırda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir: “Bunlara su anbarları, su kanalları, elektrik stansiyaları, artıq istifadəyə verilmiş beynəlxalq hava limanları, tunellər və körpülər daxildir. Azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bizim səylərimizi dəstəklədiyinə görə İslam İnkişaf Bankı Qrupuna minnətdarıq...”.

Qeyd edək ki, İslam İnkişaf Bankı Qrupu (İİB) Qarabağ və Şərqi Zəngəzurun bərpasında beynəlxalq tərəfdaş kimi çıxış edir.



İİB Qrupu Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi prosesinə maraq göstərən və konkret layihələrlə bu prosesə qoşulan ilk beynəlxalq maliyyə institutlarından biridir. İİB ilə Azərbaycan arasında əməkdaşlıq uzun illərə söykənsə də, postmünaqişə dövründə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr bu tərəfdaşlığa yeni məzmun qazandırıb. Bank Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və iqtisadi potensialının reallaşdırılması istiqamətində həyata keçirilən təşəbbüslərə dəstək verməklə Böyük Qayıdış proqramına öz töhfəsini verməyə başlayıb.

İslam İnkişaf Bankının bu istiqamətdə maliyyələşdirdiyi ilk layihə Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qız Qalası su anbarından suvarma məqsədilə magistral kanalın çəkilməsi ilə bağlıdır. Layihə çərçivəsində Bank tərəfindən 97 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti ayrılıb. Ümumi uzunluğu 52 kilometr olan kanalın istifadəyə verilməsi kənd təsərrüfatının inkişafına, torpaq ehtiyatlarından daha səmərəli istifadəyə, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə və bölgədə iqtisadi fəallığın artmasına mühüm töhfə verməlidir.



İslam İnkişaf Bankı Qrupunun prezidenti Məhəmməd Əl-Casir Azərbaycana səfəri çərçivəsində işğaldan azad edilmiş ərazilərə baş çəkərək bölgədə həyata keçirilən genişmiqyaslı yenidənqurma prosesini yerində müşahidə edib. Səfərin əsas məqsədi həyata keçirilən layihələrin gedişi ilə tanış olmaq, gələcək əməkdaşlıq imkanlarını dəyərləndirmək və Bankın dəstək göstərə biləcəyi yeni istiqamətləri müəyyənləşdirməkdən ibarət olub.

Bank rəhbəri Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərini yüksək qiymətləndirərək İslam İnkişaf Bankının postmünaqişə dövründə bu ərazilərdə layihələrin maliyyələşdirilməsinə başlayan ilk beynəlxalq maliyyə institutlarından biri olduğunu bildirib. O, eyni zamanda, Bankın bölgədə ikinci layihənin icrasına hazırlaşdığını və gələcəkdə əməkdaşlıq coğrafiyasının daha da genişləndiriləcəyini diqqətə çatdırıb.

* * *

Böyük Qayıdış prosesi milli inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional məkanına tam inteqrasiyasını nəzərdə tutur. Son illər ərzində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri nəticəsində bölgələrdə müasir infrastruktur formalaşdırılıb, yaşayış və təsərrüfat fəaliyyətinin bərpası üçün zəruri zəmin yaradılıb.

Ümumilikdə, 2020-ci ildən etibarən, o cümlədən 2026-cı il də daxil olmaqla, işğaldan azad edilmiş ərazilərin bərpası məqsədilə dövlət büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılıb. Bunun 3,5 milyard manatı 2026-cı ilin payına düşür. Ayrılan vəsaitin böyük hissəsi infrastruktur layihələrinin həyata keçirilməsinə yönəldilib.

Böyük bir ərazini əhatə edən bu genişmiqyaslı layihə miqyasına görə dörd Lüksemburq dövlətinin ərazisinə bərabərdir. Regionda ən müasir standartlara cavab verən avtomobil yolları, tunellər və beynəlxalq hava limanları inşa edilir, müasir mühəndis-kommunikasiya infrastrukturu formalaşdırılır.

Hazırda işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın artırılması və sahibkarlığın inkişafı istiqamətində mühüm addımlar atılır. Bu çərçivədə Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı, eləcə də Zəngilan rayonunda fəaliyyət göstərən “Dost Aqropark” kimi iri layihələr artıq fəaliyyətə başlayıb. Həmin müəssisələrdə müasir istehsal və emal sahələri yaradılır, yeni iş yerləri açılır, qeyri-neft sektorunun inkişafına və bölgənin investisiya cəlbediciliyinin artırılmasına töhfə verilir.

İndiyədək işğaldan azad edilmiş ərazilərdə nəqliyyat infrastrukturunun bərpası və inkişafı istiqamətində mühüm layihələr həyata keçirilib. Bu çərçivədə ən müasir beynəlxalq standartlara cavab verən Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları inşa edilərək istifadəyə verilib.

Bundan əlavə, Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri sistemli şəkildə davam etdirilir. 8 şəhərin baş planı, 3 şəhərin müfəssəl planı və 101 yaşayış məntəqəsi üzrə şəhərsalma əsaslandırmaları təsdiqlənib. Bununla yanaşı, regionun müasir tələblərə uyğun şəkildə yenidən qurulmasını təmin etmək məqsədilə yüzlərlə kilometrlik avtomobil və dəmir yolları salınıb, yüzlərlə körpü, onlarla tunel və viaduk inşa edilib.

Hazırda bölgədə təxminən 90 min nəfər yaşayır, işləyir və təhsil alır. Bunların sırasında keçmiş məcburi köçkünlərlə yanaşı, həyata keçirilən tikinti-quruculuq işlərində çalışan mütəxəssislər, müxtəlif dövlət qurumlarının əməkdaşları, eləcə də təhsil və səhiyyə sahəsində fəaliyyət göstərən şəxslər yer alır. Mövcud planlara əsasən, 2026-cı ilin sonunadək Böyük Qayıdış proqramının birinci mərhələsinin başa çatdırılması və bu mərhələdə 140 min keçmiş məcburi köçkünün öz doğma yurdlarına qayıdışının təmin olunması nəzərdə tutulur. Hazırda Böyük Qayıdışa dair I Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin tamamlanması istiqamətində son mərhələ işləri həyata keçirilir.

Eyni zamanda, azad edilmiş ərazilərin uzunmüddətli sosial-iqtisadi inkişafını, dayanıqlı məskunlaşmanı, məşğulluğun genişləndirilməsini və iqtisadi fəallığın artırılmasını hədəfləyən Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv işlər aparılır.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycan “Günəş reaktoru”nun şəbəkəsini genişləndirir

## *Enerji keçidindən “yaşıl” iqtisadiyyata aparan yol*

**XXI əsrdə qlobal iqtisadi inkişafın əsas istiqamətlərindən biri ənənəvi enerji mənbələrindən bərpaolunan enerji ehtiyatlarına keçiddir. Çünki iqlim dəyişiklikləri, karbon emissiyalarının azaldılması ilə bağlı beynəlxalq öhdəliklər, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi zərurəti dünyanın əksər ölkələrini “yaşıl” enerji strategiyalarını sürətləndirməyə sövq edir.**

Bu prosesdə respublikamız da özünün zəngin təbii resurslarından səmərəli istifadə etməklə yanaşı, gələcəyin enerji modelinin qurulmasına xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin İslam İnkişaf Bankı Qrupunun Bakıda keçirilən 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində səsləndirdiyi fikirlər Azərbaycanın enerji siyasətinin yeni mərhələsini aydın şəkildə nümayiş etdirdi. Dövlət başçısı İslam İnkişaf Bankı ilə səmərəli əməkdaşlığın ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara, iqtisadiyyatın şaxələndirilməsinə və enerji sektorundan asılılığın azaldılmasına mühüm töhfə verdiyini vurğuladı.

Azərbaycan lideri, eyni zamanda, bu əməkdaşlığın uğurlu nəticələrindən biri olan respublikanın bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi və 2032-ci ilədək 8 giqavat həcmində günəş və külək enerjisi istehsal gücünün yaradılması istiqamətində atılan addımları yüksək qiymətləndirdi. Həmçinin bu hədəfin enerji sektorunun inkişafına müsbət təsir göstərəcəyi ilə bərabər, həm də Azərbaycanın yeni iqtisadi modelə keçidinin gerçəkləşdirilməsi baxımından strateji əhəmiyyət daşıdığını qeyd etdi.

Toplantıda qeyd edildi ki, ölkəmiz uzun illərdir ki, dünyanın mühüm enerji ixracatçılarından biri kimi tanınır. Neft və qaz ehtiyatları respublikanın iqtisadi inkişafında mühüm rol oynayır, dövlət gəlirlərinin formalaşmasına və böyük infrastruktur layihələrinin həyata keçirilməsinə əlverişli imkan yaradır. Lakin qlobal enerji bazarlarında baş verən dəyişikliklər, karbon neytrallığı hədəfləri və enerji təhlükəsizliyi məsələləri yeni yanaşmalar tələb edir. Məhz buna görə də Azərbaycan son illərdə enerji siyasətində balanslaşdırılmış modelə üstünlük verir. Yəni bir tərəfdən neft-qaz sektorunun inkişafı davam etdirilir, digər tərəfdən isə günəş, külək və digər bərpaolunan enerji mənbələrinin payı artırılır.

Bu yanaşma ölkənin enerji təhlükəsizliyini daha da gücləndirir, daxili istehlak üçün istifadə olunan təbii qaza qənaət etməyə imkan yaradır və əlavə ixrac potensialını formalaşdırır. Ümumiyyətlə, günəş enerjisindən əldə olunan hər kilovat-saat elektrik enerjisi ixrac üçün daha çox qaz ehtiyatının sərbəst qalmasını şərtləndirir.



### Qaradağ GES – “Günəş reaktoru”na qoşulmuş ilk ünvan

Azərbaycan coğrafi mövqeyi və iqlim şəraiti baxımından günəş enerjisi istehsalı üçün əlverişli ölkələr sırasında yer alır. Xüsusilə Naxçıvan Muxtar Respublikası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları günəş radiasiyasının yüksək səviyyəsi ilə seçilir. Mütəxəssislərin hesablamalarına görə, ölkənin texniki günəş enerjisi potensialı on minlərlə meqavatla ölçülür. Günəşli günlərin sayının ildə 2400–3200 saat arasında dəyişməsi isə bu potensialın iqtisadi cəhətdən səmərəli şəkildə reallaşdırılmasına imkan verir.

Dövlət başçısının təşəbbüsü ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları “Yaşıl enerji zonası” elan olunandan sonra bu regionlarda yeni enerji modelinin tətbiqinə mühüm önəm verilməsi xüsusi diqqət çəkir. Bu yanaşma isə həm Böyük Qayıdış proqramının icrasına, həm də bölgənin müasir infrastruktur əsasında yenidən qurulmasına müsbət təsir göstərir.

Xatırladaq ki, 2023-cü il oktyabrın 26-da BƏƏ-nin “Masdar” şirkəti ilə əməkdaşlıq çərçivəsində 230 MVt-lıq “Qaradağ” Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi bir neçə məqam baxımından xüsusi əhəmiyyəti daşıyır. Əvvəla, bu, Xəzər regionunun və MDB məkanının ən böyük günəş elektrik stansiyasıdır. İkincisi, adıçəkilən infrastruktur xarici investisiya hesabına reallaşdırılan ilk sənaye miqyaslı günəş enerjisi layihəsidir. Üçüncüsü isə belə bir təşəbbüs Azərbaycana beynəlxalq investorların “yaşıl” enerji sektoruna olan yüksək etimadını nümayiş etdirir.

Qeyd edək ki, 262 milyon ABŞ dolları həcmində investisiya qoyulan stansiyanın illik istehsal gücü, təxminən, 500 milyon kilovat-saatdır. Bu isə hər il 110 milyon kubmetr təbii qaza qənaət olunması deməkdir. Ən vacib məqamlardan biri də ekoloji faydadır. Hesablamalara görə, layihə nəticəsində hər il atmosferə buraxılan karbon emissiyalarının 200 min ton azalacağının proqnozlaşdırılması deyilən fikrin bariz ifadəsidir.

“Masdar” şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Murad Sadıxovun açıqladığı məlumat – stansiya istismara verildiyi vaxtdan artıq 1 milyard kilovat-saata yaxın “yaşıl” enerji istehsal edilməsi faktı da layihənin uğurunu təsdiqləyir. Bu göstərici, eyni zamanda, ölkənin enerji keçidinin artıq nəzəri mərhələni geridə qoyduğunu və müsbət nəticələr verməyə başladığını göstərir.

### “Şəfəq” layihəsi – “Günəş”in Qarabağ məntəqəsi

Azərbaycanın “yaşıl” enerji gündəliyində növbəti böyük layihə – “Şəfəq” Günəş Elektrik Stansiyası Cəbrayıl rayonunda BP və tərəfdaşlarının iştirakı ilə həyata keçirilir. Ümumi dəyəri 200 milyon ABŞ dolları olan və 240 MVt gücündə nəzərdə tutulan bu infrastrukturun tikintisi hazırda sürətlə aparılır. 2027-ci ildə istismara verilməsi planlaşdırılan stansiyanın ildə, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi gözlənilir.

Bu layihənin mühüm xüsusiyyətlərindən biri onun Səngəçal terminalının elektrikləşdirilməsi proqramı ilə inteqrasiya olunmasıdır. “Virtual enerji ötürmə mexanizmi” adlanan yeni model vasitəsilə “yaşıl” enerjinin dövlət elektrik şəbəkəsi üzərindən terminala çatdırılması nəzərdə tutulur. Nəticədə “Şəfəq” Elektrik Stansiyasının Səngəçal terminalının əməliyyat fəaliyyətindən yaranan emissiyaları, təxminən, 50 faiz azaldacağı gözlənilir. Bu, Azərbaycanın neft-qaz sektorunda belə dekarbonizasiya prosesinə ciddi önəm verdiyini təsdiqləyən mühüm göstərici sayılır.

Təkcə bu fakt deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın gələcək enerji xəritəsində xüsusi yer tutur. Regionun yüksək günəş radiasiyası göstəriciləri burada iri günəş elektrik stansiyalarının tikintisini iqtisadi baxımdan səmərəli edir. Bununla yanaşı, bölgədə müasir şəhər və kənd konsepsiyaları tətbiq olunur ki, bu da “yaşıl” enerji istifadəsini daha da aktuallaşdırır. Mütəxəssislərin hesablamalarına görə, “Şəfəq” Elektrik Stansiyası layihəsi kimi infrastruktur ildə 500–700 milyon kilovat-saat enerji istehsal etmək gücünə malikdir. Bu isə 150 milyon kubmetrə qədər təbii qaza qənaət edilməsinə imkan yaradır.

Eyni zamanda, adıçəkilən layihənin gerçəkləşəcəyi ilə atmosferə atılan karbon emissiyalarının, təxminən, 300 min ton azalması mümkün sayılır. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur təkcə bərpa olunan yaşayış məkanları deyil, həm də Azərbaycanın “yaşıl” enerji laboratoriyasına çevrilir.

### Evlər “Günəş” şəbəkəsindən güc alacaq

Müasir dünyada energetika sisteminin ən maraqlı istiqamətlərindən biri də enerjinin iri elektrik stansiyaları ilə yanaşı, evlərin, müəssisələrin və ictimai binaların damlarında quraşdırılmış günəş panelləri vasitəsilə istehsal olunması ilə bağlıdır. Azərbaycanda da bu istiqamətdə böyük potensial mövcuddur. Aparılmış təhlillərə əsasən, ölkədə damüstü günəş enerjisinin texniki potensialı, təxminən, 9,4 giqavat təşkil edir. Bu potensialdan tam istifadə olunarsa, ildə 11,8 teravat-saatdan çox təmiz enerji istehsal etmək mümkündür.

Mövcud qanunvericilik və enerji sahəsində aparılan islahatlar vətəndaşların fərdi qaydada günəş panelləri quraşdırmalarına imkan verir. Başqa sözlə, ev sahibi öz damında panel quraşdıraraq elektrik enerjisi istehsal edə, öz tələbatını ödəyə və artıq enerjini şəbəkəyə ötürə bilər. Bu model, eyni zamanda, bir sıra üstünlüklər yaradır. Məsələn, enerji təchizatının etibarlılığı artır, dövlət enerji sisteminin yükü, karbon emissiyaları, eləcə də elektrik xərcləri azalır və eyni zamanda, enerji istehlakçısı enerji istehsalçısına çevrilir.

Yeri gəlmişkən, dünyanın bir çox ölkəsində damüstü günəş energetikasının enerji sisteminin ayrılmaz hissəsinə çevrilməsinə xüsusi önəm verilir. Məsələn, Almaniya uzun illərdir ki, günəş energetikasının inkişafında lider ölkələrdən biri kimi tanınır. Burada əksər ev təsərrüfatında damüstü günəş panellərindən səmərəli istifadə olunur. Uzunmüddətli güzəştli tariflər, vergi imtiyazları və subsidiyalar vasitəsilə vətəndaşlar bu sahəyə investisiya qoymağa təşviq edilir. Bununla da ölkədə kiçik enerji istehsalçısı təbəqəsinin formalaşması getdikcə genişlənir.

Hazırda dünyada günəş enerjisi istehsalına görə birinci yerdə qərarlaşan Çində isə həm iri sənaye stansiyaları, həm də fərdi günəş sistemləri sürətlə yayılıb. İstehsal həcmlərinin artması günəş panellərinin qiymətinin kəskin ucuzlaşmasına, texnologiyanın əlçatanlığının gerçəkləşməsinə səbəb olub. Dünyada adambaşına düşən damüstü günəş paneli sayına görə lider ölkələrdən biri olan Avstraliyanın bir çox şəhərlərində evlərin əhəmiyyətli hissəsinin enerjisi sakinlər tərəfindən istehsal edilməyə başlayıb. Bu modelin tətbiqi ilə həm enerji xərcləri azalıb, həm də milli enerji sisteminin dayanıqlılığı artıb.

Qardaş Türkiyə isə son illərdə damüstü günəş enerjisinin inkişafına xüsusi diqqət yetirir. Sənaye müəssisələri və fərdi evlər üçün yaradılan təşviq mexanizmləri nəticəsində minlərlə yeni günəş qurğusunun istismara verilməsi də bunun bariz ifadəsidir. Bu təcrübənin Azərbaycan üçün də faydalı nümunə hesab oluna biləcəyi bildirilir.

Beləliklə, Azərbaycanın enerji siyasətində baş verən dəyişikliklər ölkənin neft və qaz ixracatçısı olmaqla bərabər, həm də “yaşıl” enerji istehsalçısı kimi mövqeyini möhkəmləndirdiyini göstərir. “Qaradağ” və “Şəfəq” kimi layihələr, 2032-ci ilədək nəzərdə tutulan 8 giqavatlıq yeni güclər, Qarabağ və Şərqi Zəngəzurun “yaşıl” enerji zonasına çevrilməsi, eləcə də damüstü günəş energetikasının inkişaf perspektivləri Azərbaycanın enerji keçidinin real nəticələrə əsaslandığını nümayiş etdirir.

Bu proses təkcə enerji sektorunun modernləşdirilməsi deyil. Burada söhbət həm də iqtisadiyyatın şaxələndirilməsindən, yeni investisiyaların cəlb edilməsindən, yüksək texnologiyaların tətbiqindən, ətraf mühitin qorunmasından və gələcək nəsillər üçün dayanıqlı inkişaf modelinin qurulmasından gedir. Məhz buna görə də günəş enerjisi, sadəcə, alternativ enerji mənbəyi olmaqla yanaşı, həm də Azərbaycanın yeni iqtisadi inkişaf strategiyasının mühüm sütunlarından birinə çevrilməkdədir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi “yaşıl” inkişaf kursu ölkənin enerji xəritəsini dəyişdirməklə bərabər, Azərbaycanı regionun aparıcı “yaşıl” enerji mərkəzlərindən birinə çevirmək potensialına malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Bədii tərcümə: dünən və bu gün

## *“Xalq qəzeti” redaksiyasında yaradıcılıq müzakirəsi*

**Dünya klassiklərinin və çağdaş yazarların əsərlərinin tərcüməsi mədəniyyətlər, o cümlədən ədəbiyyatlar arasında mənəvi körpü rolunu oynayır. Bu, dil maneəsini aşmaqla şeir, hekayə, povest, roman və pyeslərin, eləcə də bədii tədqiqat nümunələrinin əlçatanlığını, bəşəri sərvətə çevrilməsini təmin edir. Xalq yazıçısı Anar bu barədə deyib ki, tərcümə vasitəsilə bir xalqın həyatından alınmış lövhələr və personajlar başqa bir xalqa da doğma gəlir.**

**Bəs xarici müəlliflərin əsərlərinin ana dilimizə və əksinə, Azərbaycan yazarlarının bədii nümunələrinin xarici dillərə tərcüməsi hazırda hansı vəziyyətdədir? Ənənələr qorunub inkişaf etdirilirmi? Konkret olaraq hansı problemlər yaşanır? Müzakirədə iştirak edən sahə mütəxəssislərinin bu barədə fikirlərini oxuculara təqdim edirik.**




**Bənövşə Məmmədova, Azərbaycan Dillər Universiteti tərcümə fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent:**



– Müasir dünyada qloballaşma prosesinin sürətlənməsi, xalqlar və mədəniyyətlər arasında əlaqələrin genişlənməsi tərcümənin əhəmiyyətini daha da artıb. Xüsusilə bədii tərcümə yalnız sözlərin bir dildən digər dilə köçürülməsi deyil, həm də müxtəlif xalqların düşüncə tərzinin, mədəni yaddaşının, estetik dəyərlərinin və mənəvi dünyasının ötürülməsi missiyasını daşıyır. Azərbaycan tərcümə məktəbi zəngin ənənələrə malik olsa da, müasir dövrdə həm texnoloji yeniliklər, həm də beynəlxalq rəqabət bu sahədə yeni yanaşmaların tətbiqini zəruri edir.

Keçən əsrdə formalaşmış milli tərcümə məktəbi bir çox uğurlu nümunələr yaratmış, klassik və müasir dünya ədəbiyyatının ən dəyərli əsərlərini Azərbaycan oxucusuna çatdırmışdır. Bununla yanaşı, müasir dövrdə bədii tərcümənin keyfiyyətinin yüksəldilməsi, redaktə proseslərinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması vacib məsələlərdən biri olaraq qalır.

Bu gün Azərbaycanda tərcüməşünaslıq elmi yeni inkişaf mərhələsinə qədəm qoyub. Universitetlərdə tərcümə ixtisasları üzrə kadr hazırlığı aparılır, elmi araşdırmalar həyata keçirilir, beynəlxalq təcrübə öyrənilir. Bununla yanaşı, tərcümə sahəsində bəzi problemlər hələ də öz həllini gözləyir. Xüsusilə bədii mətnlərin redaktəsi zamanı müşahidə olunan çatışmazlıqlar tərcümənin keyfiyyətinə birbaşa təsir göstərir.

**– Tərcümə redaktəsi bədii əsərin nəşrə hazırlanmasının ən mühüm mərhələlərindən biridir. Bu sahədə vəziyyət necədir? Redaktor və tərcüməçi əməkdaşlığı peşəkar dialoq prinsipi əsasında qurulurmu?**

– Təəssüf ki, bəzi hallarda redaktə prosesi səthi xarakter daşıyır və yalnız dil normalarının yoxlanılması ilə məhdudlaşır. Nəticədə müəllif fikrinin, bədii təsvir vasitələrinin və emosional çaların bir hissəsi itirilir. Redaktorun vəzifəsi yalnız qrammatik və texniki səhvləri düzəltmək deyil, həm də mətnin üslub bütövlüyünü, semantik dəqiqliyini və orijinal əsərə uyğunluğunu qorumaqdır.

Mövcud problemlərdən biri də redaktorların heç də hər zaman orijinalın dilini bilməməsidir. Bu halda redaktə yalnız tərcümə olunmuş mətn üzərində aparılır ki, bu da bəzi məna təhriflərinin və ya üslub uyğunsuzluqlarının aşkar edilməsini çətinləşdirir. Digər tərəfdən, bəzən redaktorun həddindən artıq müdaxiləsi tərcüməçinin fərdi yanaşmasını və müəllif üslubunu zəiflədə bilir. Buna müasir tərcümə praktikasında tez-tez rast gəlinir.

Bədii tərcümədə terminoloji qeyri-dəqiqliklər, frazeoloji vahidlərin adekvat qarşılıqlarının seçilməməsi, mədəni reallıqların düzgün təqdim edilməməsi də mühüm problemlər sırasındadır. Xüsusilə milli-mədəni xüsusiyyətlərin başqa dilə ötürülməsi yüksək peşəkarlıq tələb edir. Tərcüməçi və redaktor yalnız dil bilikləri ilə kifayətlənməməli, həm də müxtəlif xalqların tarixi, mədəniyyəti və dünyagörüşü haqqında geniş məlumatlara malik olmalıdırlar.

**– Son illərdə süni intellekt texnologiyalarının sürətli inkişafı tərcümə sahəsinə də ciddi təsir göstərir...**

– Elədir. Neyron maşın tərcüməsi sistemləri və böyük dil modelləri artıq dünyanın bir çox ölkələrində tərcümə prosesinin ayrılmaz hissəsinə çevrilib. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və Çin kimi ölkələrdə fəaliyyət göstərən tərcümə və lokalizasiya şirkətləri ilkin tərcümə mərhələsində süni intellekt alətlərindən geniş istifadə edirlər. Bu texnologiyalar tərcümə prosesini sürətləndirir, terminoloji bazaların idarə edilməsini asanlaşdırır və məhsuldarlığı artırır.

Lakin beynəlxalq təcrübə göstərir ki, süni intellekt bədii tərcümədə insan yaradıcılığını tam əvəz edə bilmir. Ədəbi əsərlərdə metaforalar, simvollar, emosional çalarlar, yumor, milli kolorit və müəllif fərdiliyi kimi elementlərin adekvat ötürülməsi hələ də insan təfəkkürünün və estetik duyumunun imkanlarına əsaslanır. Buna görə də dünyanın aparıcı nəşriyyatlarında maşın tərcüməsindən sonra mütləq peşəkar postredaktə mərhələsi tətbiq edilir.

Xüsusilə, Çin təcrübəsi diqqətəlayiqdir. Son illərdə Çin universitetlərində tərcümə təhsili proqramlarına süni intellekt texnologiyaları ilə bağlı xüsusi modullar daxil edilib. Burada tələbələr yalnız tərcümə nəzəriyyəsini deyil, həm də süni intellekt əsaslı alətlərdən səmərəli istifadə etməyi öyrənirlər. Məqsəd tərcüməçini əvəz etmək deyil, onun peşəkar fəaliyyətini daha effektiv etməkdir.

Azərbaycanda da süni intellektin tərcümə fəaliyyətinə təsiri getdikcə artır. Tərcüməçilər terminoloji axtarış, mətnlərin müqayisəli təhlili və ilkin layihələrin hazırlanmasında rəqəmsal platformalardan istifadə edirlər. Bununla yanaşı, süni intellekt tərəfindən yaradılmış mətnlərdə üslub qüsurları, semantik qeyri-dəqiqliklər və mədəni kontekstlə bağlı problemlər müşahidə edilir. Bu səbəbdən peşəkar tərcüməçi və redaktorun rolu daha da aktuallaşır.

Müasir dövrdə tərcüməçi peşəsinin mahiyyəti dəyişməkdədir. Bu gün uğurlu tərcüməçi yalnız dil mütəxəssisi deyil, həm də rəqəmsal texnologiyalara bələd, süni intellekt alətlərindən istifadə bacarığına malik, postredaktə və mədəniyyətlərarası kommunikasiya sahəsində peşəkar biliklərə yiyələnmiş mütəxəssis olmalıdır. Beynəlxalq əmək bazarında artıq yeni peşə istiqamətləri – süni intellekt dəstəkli tərcüməçi və postredaktor anlayışları formalaşmaqdadır.

Nəticə etibarilə, bədii tərcümə Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında, eyni zamanda, dünya mədəniyyətinin ölkəmizə gətirilməsində strateji əhəmiyyət daşıyan sahələrdəndir. Süni intellekt texnologiyaları bu sahədə yeni imkanlar yaratsa da, insan yaradıcılığına və peşəkarlığa ehtiyacı aradan qaldırmır. Əksinə, yeni dövr tərcüməçilərdən və redaktorlardan daha yüksək peşəkarlıq, daha geniş dünyagörüşü və texnologiyalarla işləmək bacarığı tələb edir. Milli tərcümə məktəbimizin gələcək inkişafı da məhz ənənə ilə innovasiyanın, humanitar biliklərlə rəqəmsal imkanların uğurlu sintezindən asılı olacaq.

**Səlim Babullaoğlu, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi, şair:**



– Tərcümə ilə bağlı ümumi mənzərəni tam dəqiqliyi ilə ifadə etmək indiki halda çətin olar. Çünki bunun üçün cari dövrün ölkələr və dillər üzrə statistikası, bilgilər olmalıdır. Məndə belə bilgilər yoxdur. Üstəgəl, tərcümə işi ilə fərqli-fərqli qurumlar, nəşriyyatlar məşğul olurlar. Düşünmürəm ki, bu işlə bağlı mərkəzləşdirilmiş informasiya var.

Daha əvvəlki illərlə bağlı fikirlərim 3 il əvvəl “Azərbaycanda tərcümə işinin vəziyyəti: 1997–2023” kitabında toplanaraq dərc olunub. Bir çox dillərdən və dillərə, xüsusən də bədii ədəbiyyat üzrə ixtisaslaşmış tərcüməçilərimiz, demək olar ki, yoxdur. Tərcüməçilərimizin bədii ədəbiyyatı səviyyəli çevirmə ilə lazımınca məşğul olmaları üçün adekvat və rentabelli mühit arzuediləndir. Üstəgəl, sırf bədii-estetik, dünyəvi təmayüllər əsas götürülərsə, biz hələ də bu mənada ümumdünya “qan dövranına” qoşulmamışıq.

Son 3-4 ildə “Süni intellekt” tərcümə proqramları vəziyyəti ciddi və ağlagəlməz şəkildə dəyişməkdədir. Aşkar problemlərimiz var. Amma bu, o demək deyil ki, əsərlər tərcümə olunmur. Kəmiyyətcə ümumi mənzərə pis görünmür.

Dediyim kimi, adekvat və rentabelli mühitin zəif olduğu təqdirdə bütün digər məsələlər ikinci plana keçir. Redaktor problemi hər zaman olub və indi də var.

**– Tərcüməçi zəhməti maddi baxımdan layiqincə dəyərləndirilirmi?**

– Sualınıza cavab olaraq birbaşa deyim ki, tərcümə sahəsindəki müəyyən axsamaların bir səbəbi də elə budur. Adətən, sınaqdan çıxmış, özünə güvənən tərcüməçilər, təbii olaraq, yüksək qonorar istəyirlər. Bu mənada çapçılarla, naşirlərlə ortaq məxrəcə gəlmək çətindir. Naşir işverən kimi daha az məsrəfə nəyisə əldə etməyə çalışır. Tərcüməçi isə əməyinə görə zəhməthaqqı almağı arzulayır. Təzad, problem bir-birinin üstündədir. Məsələnin həllində Avropa, Mərkəzi Asiya ölkələrinin, yaxud da qonşu Rusiya və Gürcüstanın təcrübəsini və qiymət şkalasını öyrənib analiz etməyə ehtiyac var. Beynəlxalq standartlara baxmaq lazımdır. Tərcümənin şərtləri ilə bağlı hüquqi sənədlər, baza olmalıdır. Biz də bu bazaya, beynəlxalq təcrübəyə söykənməliyik.

**Nəriman Əbdülrəhmanlı, yazıçı-tərcüməçi:**



– Dövlət başçısının bu il yanvarın 14-də imzaladığı, milli-mənəvi dəyərlərin qorunmasını təmin edən müasir mədəniyyət modelinin yaradılması, mədəniyyət sahəsində sistemli və dayanıqlı inkişafın təmin olunmasını nəzərdə tutan “Azərbaycan Mədəniyyəti – 2040: Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası” milli mədəniyyətimizin daha da inkişaf etdirilnəsi ilə bağlı mühüm çərçivə sənədidir.

Şübhəsiz, bu genişmiqyaslı mədəni strategiyanın gerçəkləşdirilməsində müxtəlif dilli xalqlar arasında mədəni, iqtisadi və siyasi əlaqələri təmin edən tərcümə də böyük rol oynayacaq. Elmi, texniki, hüquqi və ədəbi biliklərin ötürülməsində, həmçinin, dövlətlərarası münasibətlərin inkişafında əvəzolunmaz rol oynayan, qarşılıqlı anlaşmanı və mədəni mübadiləni gerçəkləşdirən tərcümə sahəsi dünya mədəni irsinin Azərbaycanda, Azərbaycan mədəni irsinin isə dünyada tanıdılması ilə bağlı əsas dayaq sütunlarından biri kimi çıxış edəcək.

Son 2 onillikdə bununla bağlı müəyyən işlər görülüb. Prezident İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” və “2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında” sərəncamları ilə Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla – ümimilikdə 9 milyon nüsxə nəşr olunaraq ölkənin kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Dövlət başçısının Azərbaycan Milli Ensiklopediyasının, 150 cildlik “Dünya Ədəbiyyatı Kitabxanası”nın nəşri ilə bağlı sərəncamları da milli mədəniyyətimizdə əlamətdar hadisələr kimi yadda qaldı.

**– Qarşıdakı onilliklərin mədəniyyət strategiyası isə tərcümə təsərrüfatımıza da genişmiqyaslı yanaşma tələb edir. Burada hansı aspektlərə diqqət yetirmək lazımdır?**

– Birincisi, yeni tərcümə konsepsiyası təkcə dünya mədəni irsinin Azərbaycan dilinə tərcüməsini deyil, həm də Azərbaycan mədəni irsinin dünya xalqlarının dillərinə tərcüməsini də nəzərdə tutmalıdır. İkincisi, bu konsepsiya dünya mədəni irsindən yalnız bədii əsərlərin deyil, mədəniyyətin bütün əsas sahələri üzrə fundamental əsərlərin dilimizə tərcüməsini də əhatə etməlidir.

Mədəniyyət çox geniş anlayışdır, özündə bəşəriyyətin minilliklər ərzində yaratdığı zəngin mədəni irsi (mifoloji, fəlsəfi, dini, ədəbi, elmi, maddi, nəzəri və s.) ehtiva edir. Bu səbəbdən də əvvəlcə mədəniyyətin əsas sahələrini müəyyənləşdirmək, həmin sahələr üzrə dünyada mövcud olan fundamental elmi-nəzəri və ədəbi-bədii əsərlərin Azərbaycan dilinə, Azərbaycanda olan eyni dəyərə malik əsərlərin isə dünya dillərinə tərcüməsini gerçəkləşdirmək konseptual yanaşma tələb edir.

Bu sahədə artıq sınaqdan keçmiş dünya təcrübəsi mövcuddur. Belə bir proqram yaratmayan ölkələrin mədəni-ədəbi irsinin beynəlxalq aləmə inteqrasiyası da, müəlliflərinin beynəlxalq ədəbi müsabiqələrdə iştirakı da çox çətinliklərlə qarşılaşır. Ona görə də Azərbaycan ədəbi irsini xaricdə tanıtmaqla bağlı proqramın formalaşdırılması bu konsepsiyanın gerçəkləşdirilməsindən doğan zərurətdir.

Əlbəttə ki, indiyəcən dünya ədəbi irsinin Azərbaycan dilinə, Azərbaycan ədəbi irsinin isə dünya dillərinə tərcüməsi sahəsində müəyyən işlər görülüb. Lakin bu prosesdə pərakəndəlik, fərdi seçim, müəyyən mənada isə, səriştəsizlik nəzərə çarpır.

Bədii ədəbiyyata gəlincə, bu, tərcümənin başlıca yönümünü təşkil etsə də, diqqətdən kənarda qalmış bir çox dəyərli nümunələrin, eyni zamanda, artıq işıq üzü görmüş bir sıra əsərlərin xarici dillərdən Azərbaycan dilinə, Azərbaycan dilindən isə xarici dillərə yenidən və peşəkar tərcüməsinə ehtiyac duyulur. Bu zaman dövrləşdirməyə (məsələn, antik ədəbiyyat, İntibah dövrü ədəbiyyatı, klassik ədəbiyyat, ən yeni ədəbiyyat və s.) xüsusi diqqət yetirilməli, hər bir dövrdə yaradılmış yüksək ədəbi-bədii dəyərlərə malik əsərlər seçilməlidir.

Tərcüməçi zəhmətinin maddi baxımdan layiqincə dəyərləndirilməsi də vacibdir, amma bununla bağlı əsaslandırılmış normativlər mövcud deyil. Hər bir sifarişçi öz imkanlarından və istəyindən asılıdır, bu da, təbii ki, tərcümə təsərrüfatında xoşagəlməz pərakəndəlik yaradır. Fikrimcə, Nazirlər Kabineti səviyyəsində belə bir normativlər hazırlanıb təsdiqlənməli, tərcüməçilərin zəhmətinin qiymətləndirilməsi üçün qanuni baza yaradılmalıdır. Üstəlik, maşın və süni intellekt tərcüməsinin get-gedə yayılması da tərcüməçilərin vəziyyətini çətinləşdirir. Bu prosesin qarşısıalınmaz axara çevrilməsi elmi və bədii dəyər daşıyan mətnlərin çəkisini tədricən azalda bilər. Yəni bədii keyfiyyət naminə balans gözlənilməlidir.

**Şahbaz Xuduoğlu, “Qanun” Nəşrlər Evinin direktoru, tərcüməçi-yazar:**



– Son illərdə Azərbaycanda xarici ədəbiyyatın dilimizə tərcüməsi sahəsində müəyyən inkişaf müşahidə olunur. Dünya ədəbiyyatının klassik və müasir nümunələri daha əlçatan olub. Lakin Azərbaycan müəlliflərinin əsərlərinin xarici dillərə tərcüməsi və beynəlxalq kitab bazarına çıxarılması sahəsində ciddi problemlər qalmaqdadır. Ayrı-ayrı uğurlu layihələr olsa da, bu istiqamətdə sistemli iş və dəstək yetərli deyil.

Bədii tərcümə sahəsində əsas problemlərdən biri peşəkar tərcüməçi və redaktorların çatışmazlığıdır. Təəssüf ki, son illər tərcüməçilərin hazırlanması və peşəkar inkişafı sahəsində müəyyən boşluqlar yaranıb. Bunun nəticəsində dil baxımından düzgün, lakin bədii baxımdan zəif tərcümələrə rast gəlinir.

Bədii mətnlərin estetik mahiyyətinin qorunması məsələsi də xüsusi diqqət tələb edir. Tərcümə nəzəriyyəsi və bədii tərcümə prinsipləri üzrə araşdırmalar aparılsa da, onların praktik nəşriyyat fəaliyyəti ilə əlaqəsi zəifdir. Universitetlər, nəşriyyatlar və tərcüməçilər arasında daha sıx əməkdaşlığa ehtiyac var.

Maddi təminat məsələsi isə problemlərin əsas səbəblərindən biridir. Keyfiyyətli bədii tərcümə böyük zəhmət və uzun vaxt tələb edir. Tərcüməçi əməyinin layiqincə qiymətləndirilmədiyi şəraitdə bu sahəyə yeni və istedadlı mütəxəssislərin gəlməsi çətinləşir. Tərcümənin keyfiyyətini artırmaq istəyiriksə, ilk növbədə, tərcüməçi və redaktor əməyinin dəyərini artırmalı, onların peşəkar inkişafına investisiya qoymalıyıq.

**– Sizdə bu sahədə hansı təcrübə tətbiq olunur?**

– Onu deyim ki, biz tərcüməçi, redaktor, korrektor, bəzən də dizaynerlərlə əsasən layihə və ya xidmət əsaslı müstəqil, məsafədən iş prinsipi üzrə çalışırıq. Onların başqa iş yerləri var, sadəcə, boş vaxtlarında müqavilə əsasında bizim üçün tərcümələr edir, digər işləri görür və işin təhvilverilmə vaxtına riayət etmək şərti ilə ödəniş alırlar. Onlar bizim koordinatorumuzla əlaqəli işləyirlər. Bu, illərcə belə olub. Onlardan bəzilərini sonradan daimi işə götürmüşük. Sözsüz ki, bəzən maliyyə çətinlikləri olur. Məsələn, yay aylarında kitab satış-sərgilərində iştirak sayəsində ödəmələri təmin etməyə çalışırıq.

Hər bir halda, əsas qayə, amal dünya ədəbiyyatı incilərinin Azərbaycan oxucusu üçün əlçatanlığını təmin etmək, klassiklərin və çağdaş yazarların əsərlərini dadını, duzunu azaltmadan təqdim etməkdir. Azərbaycan nəşriyyatlarının inkişaf etməsi, ciddi strategiya və marketinq planları üzrə çalışmalara keçməsi ilə buna tam nail ola bilərik.

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

*20 iyun Ümumdünya Qaçqınlar Günüdür*

# Uzun sürən məcburi köçkünlük tarixdə qaldı

*Növbəti hədəf Qərbi azərbaycanlıların doğma yurda qayıdışıdır*

**Vətən, sadəcə, ayaq basdığımız torpaq deyil, həm də ruhumuzun formalaşdığı məkan, kimliyimizi yaşadan müqəddəs sığınacaqdır. Doğulduğumuz yurd keçmişimizi gələcəyə bağlayan körpü, ömrümüzün sonuna qədər qürurla daşıyacağımız şərəfli ünvandır. İnsanın vətənindən, doğma ev-eşiyindən ayrı düşməsi isə həyatın ən çətin sınağı, yaşadığı ən böyük acıdır.**



Məhz belə ağrını, yurd itkisinin ağırlığını qlobal miqyasda xatırlatmaq üçün hər il iyun ayının 20-də Birləşmiş Millətlər Təşkilatı Ümumdünya Qaçqınlar Gününü qeyd edir. Bu gün şərəf və ləyaqətini ən çətin şəraitdə qorumaq üçün mübarizə aparan, didərgin və yurd-yuvasından məhrum olmuş insanların həmrəyliyi günüdür. Hazırda dünyada milyonlarla insan müharibələr ucbatından yurdlarından didərgin düşüb.

Ölkəmiz coğrafi mövqeyi, zəngin resursları və füsunkar təbiətinə görə tarix boyu təcavüzkar qonşuların ərazi iddiaları ilə üz-üzə qalıb. Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə soydaşımız uzun illər yurd-yuvasından didərgin düşərək qaçqınlıq həyatı yaşamağa məhkum edilsə də, dövlətimiz və xalqımız bu ədalətsizliklə heç vaxt barışmadı.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyətli diplomatiya və güclü ordu quruculuğu strategiyasının məntiqi nəticəsi olaraq, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi bu həsrətə birdəfəlik son qoydu. Dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə dərhal başlayan genişmiqyaslı bərpa-quruculuq işləri sayəsində "Böyük Qayıdış" proqramı uğurla reallaşdırıldı. Artıq 37 minədək soydaşımız təhlükəsiz şəkildə öz doğma ocaqlarına qayıtdı.

**Bu gün doğma yurduna qayıdan hər bir azərbaycanlının ürəyi sonsuz fərəh və qürurla döyünür. 30 ildən sonra yenidən Şuşaya, doğma ocağına qovuşan 68 yaşlı Validə Hüseynova keçirdiyi hisslərdən söhbət açdı:**

– Şuşadan çıxanda gənc idim, indi isə saçları ağarmış bir nənə kimi qayıtmışam. Düz 30 il hər gecə yuxumda Cıdır düzünü, evimizin eyvanını görürdüm. Vətən həsrəti insanı içindən yeyən elə bir dərddir ki, onu yalnız çəkən bilər. Biz köçkünlük dövründə çox çətinliklər gördük, çadır şəhərciklərində yaşadıq, amma ürəyimizdəki Vətən sevgisi və bir gün ora qayıtmaq ümidi heç vaxt sönmədi.

Allaha çox şükür ki, bu gün mən əziz Şuşamdayam, nəvələrim bura qaçqın kimi yox, bu torpağın əsl sahibi kimi qədəm qoyurlar. Biz bura sadəcə qayıtmamışıq, həm də köklərimizə, ruhumuza qovuşmuşuq. Bizə bu xoşbəxtliyi, qayıdışı bəxş edən Müzəffər Ali Baş Komandanımıza, Prezidentimiz İlham Əliyevə və canını bu torpaq üçün fəda edən şəhidlərimizə ömür boyu minnətdarıq.

Ağdamda da aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri şəhərə və ətrafdakı bir neçə kəndə yeni nəfəs gətirib. Müasir standartlara uyğun salınan məhəllə və küçələr, onilliklər sonra öz torpağına qovuşan ağdamlılara mənəvi dinclik və gələcəyə inam bəxş edib.

**Uzun illər yurd nisgili ilə yaşamış 55 yaşlı Məmməd Məmmədov keçmişdə qarşılaşdığı çətinlikləri belə xatırlayır:**

– 30 ilə yaxın idi ki, Ağdamın nisgili ilə yaşayırdıq. Məskunlaşdığımız yerlərdə dövlətimiz bizim üçün hər cür şərait yaratmışdı, ev-eşiklə təmin olunmuşduq. Lakin insanın doğma ocağı, əcdadlarının dəfn olunduğu torpağı tamamilə başqadır. İllərlə yurd həsrəti ilə yaşadıq, bu günü səbirsizliklə gözləyirdik. Şükürlər olsun ki, çəkdiyimiz əziyyət hədər getmədi, doğma yurdumuza qovuşduq.

Heç vaxt ümidimizi itirmədik və bilirdik ki, xalqımızın birliyi, dövlətimizin gücü sayəsində mütləq geri dönəcəyik. Vətənimə qovuşduğum üçün özümü dünyanın xoşbəxt insanı sayıram. Bizə bu qələbə sevincini yaşadan, yenidən el-obamıza qaytaran Prezidentimizə minnətdaram. Ali Baş Komandanın qətiyyəti və dəmir iradəsi sayəsində bu gün Qarabağda yenidən azan səsi ucalır, uşaq gülüşləri eşidilir. Biz artıq gələcəyə narahatlıqla yox, böyük inamla baxırıq.

Tarixi Qarabağ zəfəri vaxtilə Ermənistan ərazisindəki əzəli torpaqlarından – Qərbi Azərbaycandan vəhşicəsinə qovulmuş soydaşlarımız üçün də yeni bir ümid işığı yandırdı. Keçən əsrin sonlarında kütləvi qətllər, zorakılıq və deportasiya ilə üzləşən Qərbi azərbaycanlıların yurd-yuvalarına qayıtması bu gün Azərbaycan dövlətinin uzaqgörən siyasətində əsas prioritetlərdən biridir.

Qərbi Azərbaycan İcmasının fəaliyyəti və dövlət başçısının bu məsələni qlobal, regional və beynəlxalq tribunalarda mütəmadi olaraq gündəmə gətirməsi bu tarixi qayıdışın reallaşması üçün real zəmin yaradır. Bu məqsədlə aparılan sistemli işlər beynəlxalq hüquq müstəvisində tarixi ədalətin bərpasına xidmət edir.

**1988-ci ildə Göyçə mahalından, doğma kəndindən didərgin salınmış 72 yaşlı Qərbi azərbaycanlı Akif Əliyev də Qarabağ zəfərindən sonra ürəyində alovlanan böyük ümiddən danışdı:**

– 35 ildən çoxdur ki, Göyçənin, İrəvanın, Zəngəzurun həsrətini çəkirik. Ermənilər bizi doğma ocağımızdan vəhşicəsinə qovanda, ev-eşiyimizi, qəbirlərimizi talan edəndə elə bilirdilər ki, hər şey bitdi və biz buraları unudacağıq. Amma yanıldılar, çünki insan mənəviyyatının beşiyini heç vaxt unutmaz. Qarabağın azad olunması və qaçqın soydaşlarımızın öz evlərinə qayıtması bizim də qəlbimizdə sönməkdə olan ümid çırağını yenidən yandırdı, bizə böyük bir təsəlli oldu.

Bu gün Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsini beynəlxalq səviyyədə cəsarətlə müdafiə etməsi, hüquqlarımızın bərpası üçün atdığı addımlar bizə böyük güvən verir. Əminik ki, çox yaxın gələcəkdə tarixi torpaqlarımıza, Göyçəmizə dinc və hüquqi yollarla, başı uca qayıdacağıq. O gün uzaqda deyil.

Müsahiblərimizin açıqlamalarına onu da əlavə edək ki, qaçqın və məcburi köçkünlərin geri qayıdışı istiqamətində atılan məqsədli addımlar təkcə öz vətəndaşlarının hüquqlarını bərpa etmək deyil, həm də dünyadakı qaçqın probleminin dinc və hüquqi yollarla necə həll edilə biləcəyini göstərən nümunədir. Dövlətimizin nümayiş etdirdiyi bu qətiyyətli iradə sübut edir ki, ədalət gec-tez mütləq bərqərar olur və beynəlxalq hüquq normaları çərçivəsində hər bir insanın doğma yurduna dinc şəkildə qayıtmaq hüququ təmin edilməlidir.

Bu təcrübə dünyada qaçqınlıq taleyi yaşayan bütün xalqlar üçün bir ədalət meyarı, beynəlxalq müstəvidə isə uğurlu modeldir.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Oxucu soruşur*

# Ölkəmizdə sürücülük hüququ hansı yaşdan verilir?

**Avtomobil idarə etməyi bir çox gənc üçün müstəqil və sərbəst hərəkət imkanı hesab edir. Sürücülük vəsiqəsi almaq isə yeniyetmələrin ümumi arzusudur. Lakin müxtəlif ölkələrdə sürücülük vəsiqəsinin verilməsinə fərqli yaşlarda başlanır. Oxucularımızdan biri soruşur: "Yeniyetmə və gənclərə sürücülük hüququ hansı yaşdan verilir?"**

Bir çox ölkələrdə sürücülük hüququ mərhələli şəkildə verilir. Məsələn, Türkiyədə 16 yaşdan moped və motosiklet idarə etməyə, 18 yaşdan isə avtomobil sürməyə icazə var. Hindistan və Yaponiyada da oxşar yanaşma tətbiq olunur.

Bəzi Avropa ölkələrində daha çevik sistem fəaliyyət göstərir. Almaniyada 17 yaşlı şəxslər təcrübəli sürücünün müşayiəti ilə avtomobil idarə edə bilirlər. Böyük Britaniyada isə 17 yaşlı şəxslərin avtomobil idarə etməsinə icazə verilir. ABŞ-da sürücülük vəsiqəsinin alınması ştatlardan asılı olaraq dəyişir və bəzi yerlərdə sürücülük təhsilinə 14 yaşdan başlamaq mümkündür. Fransada isə 18 yaş tələb olunsa da, gənclər 15 yaşından etibarən bu sahədə təlim keçirlər.

Mütəxəssislərin fikrincə, sürücülük vəsiqəsinin hansı yaşda verilməsindən daha vacib məsələ gənclərin hazırlıq səviyyəsi, psixoloji yetkinliyi və yol hərəkəti qaydalarına əməl etmələridir. Son vaxtlar ölkəmizdə yeniyetmələrin avtomobil sürməyə marağı artıb. Baş verən qəzalarda onların da iştirakı qeydə alınır. Görəsən, gənclərimizə hansı yaşdan maşın idarə etməyə icazə verilir?

**Hüquqşünas, nəqliyyat eksperti Ərşad Hüseynov qeyd etdi ki, Azərbaycanda ikitəkərli nəqliyyat vasitələrini 16 yaşdan etibarən idarə etmək hüququ var və bu 3 qrup üzrə bölünür:**



– Birinci və ən bəsit qrupa velosipedlər və kiçik elektrik nəqliyyat vasitələri daxildir. İkinci qrup mopedlərdir. Bu ildən həmin nəqliyyat vasitələri də dövlət qeydiyyatına alınmalı, dövlət qeydiyyat nişanı, sürücülük vəsiqəsi olmalıdır. Qanunvericiliyə əsasən, minimum 16 yaşı tamam olmuş şəxslər moped idarə etmək üçün A1 altkateqoriyalı sürücülük vəsiqəsi əldə edə bilərlər.

Üçüncü qrup isə motosikletlərdir. Motosikletlər mexaniki nəqliyyat vasitələri hesab edilirlər. Onlarla hərəkətə daha ciddi yanaşılmalıdır. Sürücülük hüququ əldə etmək baxımından motosikletlər iki qrupa bölünür. Mühərrikin həcmi 125 kubsantimetrədək olan, elektrik mühərrikli və gücü 11 kilovata qədər motosikletləri idarə etmək üçün 16 yaşı tamam olmalıdır. Amma mühərrikinin iş həcmi 125 kubsantimetr və ya 11 kilovatdan olan motosikletlər üçün 18 yaş və A kateqoriyası tələb edilir.

Həm BMT-nin müvafiq sazişi, həm də Səhiyyə Nazirliyinin Kollegiyasının qərarı ilə sürücülük vəsiqəsi almaq istəyən şəxslərin hər kateqoriya üzrə sağlamlıq tələbləri fərqlidir.

**Nəqliyyat eksperti Eldəniz Cəfərov isə bildirdi ki, Azərbaycanda sürücülük vəsiqələrinin verilməsi sistemi yol hərəkətinin təhlükəsizliyini təmin edən kompleks hüquqi mexanizmdir:**



– Bu sistem beynəlxalq təcrübəyə uyğunlaşdırılıb. Əsas məqsəd nəqliyyat vasitələrini idarə edən şəxslərin bilik və bacarıqlarının minimum tələblərə cavab verməsidir.

Azərbaycanda verilən sürücülük vəsiqələrinin Avropa Konvensiyası çərçivəsində tanınır. Eyni zamanda, xarici ölkələrdə alınmış sürücülük vəsiqələrinin tanınması və istifadəsi qarşılıqlı hüquqi etimad prinsipinə əsaslanır. Bu sahəni tənzimləyən normativ baza "Yol hərəkəti haqqında" Qanundur.

Kateqoriya sistemi isə prosesin ən vacib hissələrindən biridir. "A" kateqoriyası motosiklet və yüngül motonəqliyyat vasitələrini, "B" kateqoriyası isə minik avtomobillərini əhatə edir. Daha ağır və xüsusi təyinatlı nəqliyyat vasitələri üçün "C" və "D" kateqoriyaları tətbiq olunur, "E" kateqoriyası isə qoşqulu nəqliyyat vasitələrinin idarə edilməsinə icazə verir.

Müəyyən yaş həddinə çatmış, sağlamlıq baxımından yararlı hesab edilən və imtahanlardan uğurla keçən hər bir şəxs sürücülük hüququ əldə edə bilər. Burada əsas tələb hazırlıq və məsuliyyətdir. Azərbaycanda sürücülük vəsiqələrinin yaş hədləri kateqoriyalara görə dəqiq mərhələləndirilib. Bu sistem yol hərəkətinin təhlükəsizliyini təmin etməyə yönəlib.

Mövcud qaydalara əsasən, "A" kateqoriyalı motonəqliyyat vasitələrini idarə etmək hüququ 16 yaşdan etibarən yaranır. Bu, nisbətən yüngül və az riskli nəqliyyat vasitələri üçün erkən yaşda idarəetmə imkanı kimi qiymətləndirilir. "B" və "C" kateqoriyalı, yəni minik avtomobilləri və yük nəqliyyat vasitələrini idarə etmək hüququ isə 18 yaşdan verilir.

Daha yüksək məsuliyyət tələb edən kateqoriyalar üzrə isə yaş həddi artır. Tramvay idarə etmək hüququ 20, "D" və "E" kateqoriyalı nəqliyyat vasitələri, eləcə də trolleybusların idarə olunması hüququ isə 21 yaşdan başlayır.

Qanunvericilikdə istisnalar da nəzərdə tutulub. Məsələn, peşə tədris müəssisələrini bitirən şagirdlər, eləcə də "C" və "BC" kateqoriyalı sürücülərin hazırlanması üçün hərbi xidmətə cəlb olunan çağırışçılar müəyyən tədris kurslarını bitirdikdən sonra imtahanlara buraxılırlar. Bu halda 18 yaşına çatmamış şəxslərə belə sürücülük vəsiqəsi verilə bilər, lakin sənədin "xüsusi qeydlər" hissəsində onun yalnız 18 yaş tamam olduqdan sonra avtomobil idarə edə biləcəyi göstərilir. Bu, "nəzarətli və mərhələli icazə mexanizmi" kimi qiymətləndirilir.

***Hazırladı:***
***Ləman TƏHMƏZ***
***XQ***

## Dünyadan gələn sorağımız



### Azərbaycan cazı Roma səhnəsində

**İyunun 18-də Romanın "Caz evi" mədəniyyət məkanında "Xəzərin səsi: Azərbaycan cazı" adlı konsert proqramı təşkil edilib.**

Konsertdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov, İtaliya Mədəniyyət Nazirliyinin məsul əməkdaşları və sənətsevərlər iştirak ediblər.

Konsert proqramında Xalq artistləri Eldar Mansurov, Ənvər Sadıqov, Əməkdar artist Emil Əfrasiyab, eləcə də Elnur Hüseynov və Aysel Teymurzadə çıxış ediblər. İncəsənət ustadlarımız təqdimatında Azərbaycan xalq musiqisinin intonasiyalarını müasir caz improvizasiyaları ilə birləşdirən əsərləri böyük şövqlə səsləndiriblər.

Tamaşaçıların böyük maraqla qarşıladıqları konsert Azərbaycan caz sənətinin beynəlxalq mədəni dialoq üçün layiqli təqdimat olduğunu bir daha nümayiş etdirib.

### Azərbaycan milli mətbəxi Sofiyada



**Bolqarıstanın paytaxtı Sofiyada Dayanıqlı Qastronomiya Günü ilə əlaqədar təşkil olunmuş mərasimdə Azərbaycan milli mətbəxi də təqdim edilib.**

Azərbaycan və Bolqarıstanın dövlət rəsmilərinin, ziyalıların, mütəxəssislərin və media təmsilçilərinin iştirak etdikləri məclisdə ölkəmizin səfiri Elmar Məmmədov bildirib ki, xalqımızın kulinariya irsi insan, mədəniyyət və təbii mühit arasında tarazlıq fəlsəfəsini aydın şəkildə əks etdirir: "Azərbaycanın mətbəx irsinin mühüm elementləri sırasında yer alan lavaş, təndir çörəyi, dolma, çay mədəniyyəti və Nar Bayramı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib".

Qonaqlar şah plov, yarpaq dolması, göyərti və ət qutabı, manqal salatı, doğramaç, Bakı və Şəki paxlavaları Naxçıvan sucuğu, Gəncə "Çinar" şokoladları və şəkərbura kimi Azərbaycan yeməkləri və şirniyyatları ilə tanış olub və bu nemətlərdən ləzzətlə dadıblar.

### Milli mədəni irsimiz Bursada təqdim edilib



**Azərbaycanın milli mədəni irs nümunələri Türkiyənin Bursa Böyükşəhər Bələdiyyəsinin Zəfər-Atıcılar orta məktəbində təşkil etdiyi sərgidə təqdim edilib. Bu məqsədlə Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyi təhsil ocağında ölkəmizə xüsusi stend təşkil edilib.**

Dərnəyin rəhbəri Lətifə Nağdalıyeva proqramda Azərbaycanı təmsil etməkdən qürur duyduqlarını söyləyib:

– Azərbaycanın zəngin tarixi, mədəniyyəti və milli dəyərlərinin tanıdılması məqsədilə hazırladığımız stend şagirdlər tərəfindən böyük maraqla qarşılandı. Çıxışımda Qarabağın rəmzlərindən biri olan "Xarıbülbül" çiçəyi haqqında iştirakçılara ətraflı məlumat verdim, onun Qarabağ müharibəsi və Azərbaycanın tarixi Zəfəri ilə bağlı mənəvi əhəmiyyətindən bəhs etdik. Bu dəyərli tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkür edir, Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmlənməsinə töhfə verən belə layihələrin davamlı olmasını arzulayırıq.

Proqramda Azərbaycan xalq rəqsləri də təqdim edilib.

***XQ***

*Məmmədtağı Cəfərov – 90*

# Torpaqşünas alim, yurdsevər ziyalı, bacarıqlı təhsil təşkilatçısı

**İnsan ömrü bəzən təqvimdəki illərlə deyil, yaratdığı dəyərlərlə ölçülür. Elə şəxsiyyətlər var ki, onların ömür yolu bütöv bir dövrün elmi, ictimai və mənəvi yaddaşına çevrilir. Belə insanlar zamanın hüdudlarını aşaraq gələcək nəsillərin düşüncə dünyasında yaşayırlar. Akademik Məmmədtağı Cəfərov məhz belə şəxsiyyətlərdən idi. Onun həyat yolu torpaqdan elmə, elmdən cəmiyyətə, cəmiyyətdən dövlətçilik ideallarına uzanan mənalı xidmət yoludur.**

Akademik Məmmədtağı Cəfərovun 90 illik yubileyi yalnız bir alim və ziyalının xatirəsinin anılması deyil, eyni zamanda Azərbaycan aqrar elminin inkişaf tarixinin mühüm mərhələsinə nəzər salmaq, ölkəmizdə formalaşmış elmi məktəblərin rolunu yenidən qiymətləndirmək üçün əhəmiyyətli hadisədir.



1936-cı ildə Qərbi Azərbaycanın İrəvan mahalının Amasiya rayonunun Oxçuoğlu kəndində dünyaya göz açan Məmmədtağı Cəfərovun uşaqlıq və gənclik illəri kənd həyatının zəhmət dolu mühitində keçmişdir. Torpağa bağlılıq onun gələcək həyat istiqamətini müəyyənləşdirən əsas amillərdən olmuşdur. O, torpağı, sadəcə, istehsal vasitəsi və ya elmi obyekt kimi deyil, həyatın davamlılığını təmin edən strateji sərvət kimi qiymətləndirirdi. İlk təhsilini kənd məktəbində alan Məmmədtağı Cəfərov İrəvan Kənd Təsərrüfatı Texnikumunu və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomları ilə bitirmişdir. Gənc yaşlarından elmə böyük maraq göstərən gələcək alim tədqiqat fəaliyyətini torpağın aqrokimyəvi xüsusiyyətlərinin öyrənilməsinə həsr etmişdir. 1964-cü ildə namizədlik, 1973-cü ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etməsi elmi fəaliyyətində yeni mərhələnin başlanğıcı olmuşdur. Xüsusilə torpaqlarımızda fosfor birləşmələrinin transformasiyası, bitkilərin inkişafına təsiri, torpağın münbitliyinin artırılması və gübrələmə sistemlərinin elmi əsaslarının işlənilməsi sahəsində apardığı araşdırmalar Azərbaycan aqrar elmində mühüm yeniliklər yaratmışdır.

Məmmədtağı Cəfərovun tədqiqatları torpaqşünaslıq və aqrokimya sahəsində yalnız nəzəri nəticələr verməmiş, həm də geniş praktik əhəmiyyət daşımışdır. Onun rəhbərliyi altında aparılan tədqiqatlar torpağın münbitliyinin artırılması, deqradasiya proseslərinin qarşısının alınması, eroziyaya qarşı mübarizə tədbirlərinin hazırlanması və kənd təsərrüfatı bitkiləri üçün elmi əsaslandırılmış gübrələmə sistemlərinin tətbiqi istiqamətlərini əhatə etmişdir. Bu tədqiqatlar müstəqillikdən əvvəlki və sonrakı dövrdə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, məhsuldarlığın artırılmasına və torpaq resurslarından səmərəli istifadəyə mühüm töhfələr vermişdir.

Bu gün dünyada ərzaq təhlükəsizliyi və ekoloji davamlılıq məsələlərinin xüsusi əhəmiyyət qazandığı şəraitdə onun elmi baxışları daha aktual görünür. Alimin fəaliyyətinin mühüm cəhətlərindən biri də elmi məktəb yaratması idi. O, yalnız tədqiqatları ilə deyil, yetişdirdiyi kadrlarla da elmin gələcəyini formalaşdırırdı. Məmmədtağı müəllim yüzlərlə tələbənin, gənc tədqiqatçının və mütəxəssisin formalaşmasında mühüm rol oynamışdır. O, auditoriyada yalnız müəllim deyil, düşüncə formalaşdıran, elmi təfəkkür aşılayan və məsuliyyət hissi yaradan bir məktəb idi. Ömrünün böyük hissəsini Azərbaycan Dövlət Aqrar Universitetinin inkişafına həsr etmişdi. 1983–1989-cu və 1995–2007-ci illərdə universitetin rektoru vəzifəsində çalışan Məmmədtağı Cəfərov bu ali təhsil ocağının inkişafında mühüm mərhələlərə imza atmışdır. Onun rəhbərliyi dövründə universitetdə təhsil alan tələbələrin sayı əhəmiyyətli dərəcədə artmış, yeni ixtisasların inkişafına xüsusi diqqət yetirilmişdir. Universitetin yeni tədris kompleksi tikilib istifadəyə verilmiş, tədris korpuslarında geniş abadlıq və yenidənqurma işləri həyata keçirilmişdir. Maddi-texniki bazanın möhkəmləndirilməsi, auditoriyaların müasirləşdirilməsi, tələbələrin daha keyfiyyətli təhsil alması üçün yaradılan şərait Məmmədtağı Cəfərovun universitetə olan xüsusi qayğısının göstəricisi idi.

Görkəmli akademikin elmin və təhsilin inkişafına göstərdiyi çoxşaxəli xidmətləri, uzunillik səmərəli elmi və ictimai fəaliyyəti dövlət tərəfindən layiqincə dəyərləndirilmişdir. 1980-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş, 1981-ci ildə "Şərəf nişanı" ordeninə layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının yubileyi münasibətilə və aqrar elmin inkişafına verdiyi töhfələrə görə Fransanın Sənayeyə Yardım Assosiasiyasının "Qızıl medal"ı ilə təltif olunmuşdur. Məmmədtağı Cəfərov 150-dən artıq elmi əsərin, dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifi kimi Azərbaycan aqrar elminin inkişafına mühüm töhfələr vermişdir. Onun əsərlərində torpağın münbitliyinin artırılması, aqrokimya problemləri, torpaq resurslarından səmərəli istifadə və kənd təsərrüfatının elmi əsasları geniş şəkildə araşdırılmışdır. Azərbaycan elmi mühitində onun adı təkcə peşəkar alim kimi deyil, yüksək mənəvi keyfiyyətlərə malik ziyalı kimi də böyük hörmətlə xatırlanır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkə mürəkkəb və ziddiyyətli bir dövr yaşayırdı. Siyasi qeyri-sabitlik, iqtisadi böhran, Ermənistan-Azərbaycan münaqişəsinin ağır nəticələri və dövlət institutlarının formalaşması ilə bağlı çətinliklər yeni siyasi düşüncə və güclü dövlətçilik mövqeyi tələb edirdi. Məhz belə bir dövrdə Azərbaycan ziyalılarının üzərinə böyük məsuliyyət düşürdü. Məmmədtağı Cəfərov da bu məsuliyyəti dərindən dərk edən şəxslərdən biri olmuşdur. O, Yeni Azərbaycan Partiyasının yaradılması prosesində fəal iştirak etmişdir. 1993-cü ildə Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatının ilk sədri kimi fəaliyyəti xüsusi əhəmiyyət daşıyırdı. Bu fəaliyyət dövlətçilik ideallarına xidmət nümunəsi idi. Onun siyasətə yanaşması da elmə yanaşması kimi rasional, prinsipial və sistemli idi. Hesab edirdi ki, güclü dövlət yalnız güclü iqtisadiyyat, güclü elm və yüksək intellektual potensiala malik cəmiyyət üzərində qurula bilər. Məmmədtağı müəllim üçün siyasət cəmiyyətə xidmət vasitəsi idi. O, ziyalının missiyasını yalnız elmi fəaliyyətlə məhdudlaşdırmır, düşünürdü ki, ziyalı həm də xalqın ictimai düşüncəsinə təsir göstərməli, dövlətçilik ideyalarının formalaşmasında iştirak etməlidir.

Məmmədtağı Cəfərovun irsi yalnız kitablar, məqalələr və elmi əsərlər deyil, həm də düşüncə məktəbi, mənəvi dəyərlər sistemi və vətənə xidmət fəlsəfəsidir. Akademik Məmmədtağı Cəfərovun 90 –cı ildönümü ərəfəsində təkcə bir alimi deyil, bütöv bir elmi məktəbi, bir ziyalı mövqeyini və dövlətçilik düşüncəsini yad edirik.

***Zəfər QURBANOV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru***

*Fatma Mehrəliyeva – 100*

# Musiqimizin unudulmaz "Kəsmə şikəstə"si

**Könülləri riqqətə gətirən, ruhumuzu oxşayan, ipək kimi yumşaq, bulaq suyu kimi dupduru avazı ilə qəlblərə yol tapan sənətkarın səsi illər keçsə, zaman dəyişsə, nəsillər bir-birini əvəz etsə də, haradasa eşidilir, milli yaddaşın dərinliklərindən boylanıb insanı öz sehrinə salır.**

Həzin, məlahətli səsində xalq mahnılarımızın saflığını, muğamlarımızın hikmətini, Azərbaycan qadınının zərifliyi və qürurunu yaşadan Fatma Mehrəliyeva da unudulmayan sənətkarlarımızdandır. Özünəməxsus üslubu ilə milli musiqi xəzinəmizin ən qiymətli incilərini yaradan tanınmış xanəndə, sadəcə, mahnı oxumur, muğam ifa etmirdi, kövrək duyğuları dilə gətirir, bənzərsiz, ürəkləri titrədən ifa tərzi ilə qəlbimizin ən gizli qatlarına yol açırdı.



Fatma Yusif qızı Mehrəliyeva 1926-cı ilin iyun ayında Quba şəhərində dünyaya göz açıb. Ftri istedadı, geniş səs imkanları və bir də kiçik yaşlarından musiqiyə olan böyük həvəsi gələcək sənət yolunun ilk işartıları idi. 11 yaşında iştirak etdiyi musiqi festivalı isə həyatında dönüş nöqtəsi olur. Bakıda keçirilən festivalda ifa etdiyi "Qubanın ağ alması" xalq mahnısı dahi bəstəkar Üzeyir Hacıbəylinin diqqətini çəkir. Bu görüş sonralar gənc istedadın taleyində mühüm rol oynayır. Üzeyir bəy ona xüsusi qayğı göstərir, musiqi təhsili alması və sənətdə inkişaf etməsi üçün əlindən gələn dəstəyi əsirgəmir.

1940-cı ildə Fatma Mehrəliyeva Azərbaycan Dövlət Filarmoniyasının nəzdində fəaliyyət göstərən "Sazçı qızlar" ansamblına qəbul olunur. Gənc müğənni qısa müddətdə müxtəlif konsert proqramlarında uğurlu çıxışları ilə tanınmağa başlayır.

Repertuarında Üzeyir Hacıbəylinin vətənpərvərlik ruhlu əsərləri xüsusi yer tuturdu. Səməd Vurğunun sözlərinə bəstələnmiş "Şəfqət bacısı" mahnısını ilk dəfə məhz Fatma Mehrəliyeva ifa edib. Təəssüf ki, həmin ifanın səs yazısı günümüzədək gəlib çatmayıb. Müğənni müsahibələrində bunu böyük təəssüf hissi ilə xatırlayırdı.

İllər keçdikcə Fatma Mehrəliyeva muğamların, xalq mahnılarının, təsniflərin və bəstəkar əsərlərinin mahir ifaçısı kimi şöhrət qazanır. "Kəsmə şikəstə"də müğənninin daxili aləmi, həyatının acı və nisgilli məqamları öz əksini tapırdı. Sanki Fatma xanım qəlbində daşıdığı hissləri bu muğam üstündə dinləyicilərə çatdırmağa çalışırdı. Musiqişünas alim, professor Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında "Kəsmə şikəstə"ni Fatma Mehrəliyevanın ifası əsasında nota köçürüb.

Milli musiqi mədəniyyətimizin görkəmli nümayəndələrindən biri olan Fatma Mehrəliyevanın yaradıcılığında kino da mühüm yer tutur. O, 1945-ci ildə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ekranlaşdırılan "Arşın mal alan" filmində Telli obrazını uğurla canlandırır.

Sənətinin zirvəsinə ucalan, bənzərsiz ifaları dillər əzbəri olan müğənni həyatın çətin sınaqlarında belə sənət yolunda uğurla addımlayaraq taleyin hökmünə boyun əyməyib. Özündən sonra miras qoyduğu lent yazılarında sənətkarın məlahətli səsi, zəngin ifaçılıq məktəbi və təkrarolunmaz sənət üslubu yaşayır. Onun ifasında səslənən "Qubanın ağ alması", "Azərbaycan maralı", "Ahu kimi", "Qaragilə" və digər mahnılar milli musiqimizin qızıl fondunda mühafizə olunur.

***Mehparə ƏLİYEVA***
***XQ***

**Redaksiyadan:**

*1992-ci ildə günlərin birində redaksiyamıza zəng vurub bildirdilər ki, mənzilində kimsəsiz yaşayan Fatma Mehrəliyeva xəstə yatır, baxımsızdır. Ovaxtkı baş redaktor Tofiq Rüstəmov da daxil olmaqla bir qrup əməkdaşımız dərhal sevimli müğənnimizi axtarıb tapdı, vəziyyəti ilə maraqlandı, ilkin yardım göstərildi.*

*Qəzetimizdə verilən yazı isə sənətsevərləri təsirləndirdi, qocaman müğənniyə diqqət artdı. İxtisasca musiqiçi olan fotomüxbirlərimiz Fatma xanımla daim əlaqə saxladı. Bundan sonra tanınmış ifaçı 8 il yaşadı, 2000-ci ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin!*

*Cahangir Cahangirov – 105*

**Bənzərsiz melodiyaları ilə qəlblərə yol tapan böyük bəstəkar, pedaqoq və xor dirijoru Cahangir Cahangirovun anadan olmasının 105-ci ildönümü tamam olur.**

# Üzeyir məktəbinin Cahangir zirvəsi



Gələcəyin böyük bəstəkarı musiqi dünyasında ilk addımlarını dahi Üzeyir Hacıbəylinin xeyir-duası ilə atıb. 1936-cı ildə ölkəmizdə ilk peşəkar xor kollektivi yaradılanda bu yeni sənət ocağına rəhbərlik 15 yaşlı Cahangir Cahangirova həvalə edilib. Gənc bəstəkar ustadının ona inamını ən yüksək səviyyədə doğruldaraq bütöv bir ifaçılıq məktəbinin təməlini qoyub. Onun gərgin əməyi sayəsində xor qısa müddətdə böyük tərəqqi yolu keçərək milli musiqi sənətimizin iftixarına çevrilib. Məhz bu sənət fədakarlığının dəyəri olaraq sonradan həmin kollektivə onun yaradıcısının adı verilib.

Cahangir Cahangirov adına Azərbaycan Dövlət Xor Kapellası bu gün böyük bəstəkarın sənət yolunu peşəkarlıqla davam etdirir. Bu il həm də Cahangir Cahangirov adına Xor kollektivinin də 90 yaşı tamam olur.

**Əlamətdar yubileylərlə bağlı söhbətdə kollektivin bədii rəhbəri, Əməkdar müəllim Təranə Yusifova Cahangir Cahangirovun milli xor musiqisinə misilsiz töhfələr bəxş etdiyini vurğuladı, kollektivin uğurlarından söz açdı:**



– Azərbaycan musiqi mədəniyyətinin intibah dövrü dahi Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Çoxsəsli xor musiqisinin yaranma tarixi də məhz bu fədakarlığın unudulmaz səhifələrindəndir. 1926-cı ildə tələbə-gənclərdən ibarət ilk xor kollektivi yaradılsa da, dövrün müəyyən çətinlikləri ucbatından bu ilk təşəbbüs uzunömürlü olmur, kollektiv tezliklə dağılır.

Ustad bəstəkar xatirələrində bu uğursuzluğu ürək ağrısı ilə qeyd edirdi. Lakin dahi şəxsiyyətin sənət naminə göstərdiyi qətiyyət 1936-cı ildə yenidən öz bəhrəsini verir. Üzeyir bəy böyük zəhmət hesabına Azərbaycan Dövlət Xorunu yaradır və bununla da milli musiqi tariximizdə xor mədəniyyətinin təməlini qoyur.

Arxiv sənədlərindən aydın olur ki, ilk vaxtlar bu kollektiv xüsusi ifaçılıq təcrübəsi olmayan, lakin fitri vokal istedadı ilə seçilən fədakar gənclərdən təşkil olunmuşdu. Yüz nəfərlik xor elə ilk addımlarından dördsəsli ifa tərzi ilə fəaliyyətə başlayır. Üzeyir bəy bu kollektiv üçün zəngin milli repertuar hazırlayır, bir-birindən dəyərli kiçik xor əsərləri bəstələyir.

O, bütün ömrünü, yaradıcılığını xalqının işıqlı gələcəyinə, milli mədəniyyətin əbədi inkişafına hesablamışdı. Böyük ustad sonralar xorun rəhbərliyini gələcəyinə böyük ümidlər bəslədiyi, istedadına və peşəkarlığına dərindən güvəndiyi Cahangir Cahangirova həvalə edir. Cahangirovdan sonra isə bu şərəfli estafeti Azərbaycan xor musiqisində silinməz izlər qoyan görkəmli bəstəkar, Xalq artisti Ramiz Mustafayev layiqincə davam etdirir.

Bu gün həmin möhtəşəm kollektiv xor musiqimizin ölməz korifeyi Cahangir Cahangirovun adını şərəflə daşıyır. 2023-cü ildən etibarən bu tarixi kollektivin bədii rəhbəri və dirijoru olaraq müqəddəs sədaları yaşatmaq üçün çalışıram.

**Müsahibimiz daha sonra söylədi ki, Cahangir Cahangirov Üzeyir Hacıbəyli məktəbinin layiqli davamçılarından biri idi. Anasını gənc yaşlarında itirən Cahangir özünə qapanmışdı. Bəlkə də, elə bu kədərin, sonsuz həsrətin nəticəsi idi ki, ana müqəddəsliyinə ithaf etdiyi nəğmələr bəstəkarın yaradıcılığında uca zirvədə dayanır:**

– Əslində, böyük bir simfonik əsərdə, operada geniş obraz yaratmaq daha asandır. Amma cəmi 3-4 dəqiqəlik bir mahnıda bir taleyi sığdırmaq, dərin fəlsəfi obraz canlandırmaq bəstəkardan fitri istedad və peşəkarlıq tələb edir. Bu səbəbdən də onun yaradıcılığı xor musiqisi sahəsində zənginliyi və dərin fəlsəfəsi ilə seçilir. Bu əsərlər elə bir idrak və duyğu ilə ərsəyə gəlmişdir ki, insan dinlədikcə, onun qəlbin mənəvi qidası üçün yazıldığından agah olur.

"Füzuli" kantatası buna ən bariz nümunələrdəndir. Xüsusilə əsərin ikinci hissəsi, Şövkət Ələkbərovanın ifasında qəlblərə yol tapan "Məni candan usandırdı" qəzəli üzərində qurulmuş bölməsi dillər əzbəri olub, böyük şöhrət qazanıb. Lakin dahi Füzulinin sözlərinə bəstələnmiş bu kantatanın hər üç hissəsi, bütövlükdə, öz fəlsəfi tutumu, musiqi toxunuşlarının dərinliyi və ülvi duyğuları ilə seçilir, dinləyicini başqa bir aləmə aparır.

Bəstəkarın yaradıcılıq yolunun ən kövrək, ən səmimi səhifələrini isə lirik mahnılar təşkil edir. Mübaliğəsiz demək olar ki, sənətkarın bədii təfəkkürünün ümmanını, onun insana və təbiətə sonsuz sevgisini üzə çıxaran bu janr ona xalqın sevgisini qazandırıb. "Aylı gecələr", "Bakı", "Dan ulduzu, bir də mən", "Ay qız", "Ala göz" kimi nəğmələri illərdir ki, dillər əzbəridir. Ruhun dərinliklərinə nüfuz edən bu əsərlərin hər birində lirik ifadə tərzi, ecazkar harmoniya könülləri oxşayır.

**Cahangir Cahangirov sənətinin ucalığından və ölməzliyindən söz açan bədii rəhbər sonda bildirdi:**

– Gənc nəslin yetişməsində də böyük əmək sərf edən bəstəkar 1949-cu ildə musiqi mədəniyyətimizin dəyərli nümunələrindən olan "Arazın o tayında" vokal-simfonik poemasını yazır və bu möhtəşəm əsərə görə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülür. Milli ruhu səmimiyyətlə tərənnüm edən bu poema tezliklə ümumittifaq miqyasında da böyük əks-səda doğurur. Belə ki, 1950-ci ildə "Arazın o tayında" poeması Moskvanın möhtəşəm Sütunlu Salonunda sənətsevərlərin qarşısında ifa edilir, onun lent yazısı isə Ümumittifaq Radiosunun Qızıl fonduna daxil edilərək tarixə həkk olunur.

Bəstəkarın irihəcmli, fəlsəfi vokal-simfonik musiqiyə bağlılığı sonrakı illərdə də özünü büruzə verir. O, 1962-ci ildə xalqımızın böyük şairi Mirzə Ələkbər Sabirin 100 illik yubileyi münasibətilə xor və simfonik orkestr üçün monumental "Sabir" oratoriyasını bəstələyir.

Cahangir Cahangirovun bədii təfəkkürü irihəcmli əsərlərlə məhdudlaşmır, onun müşayiətsiz xor üçün yazdığı "Kərəm kimi", "Soruşma" əsərləri, eləcə də dahi Nizami Gəncəvinin sözlərinə xor və tar üçün bəstələdiyi "Qəzəl" əsəri Azərbaycan musiqi mədəniyyətinin nadir inciləridir. Bu əsərlərin hər biri milli musiqi xəzinəmiz üçün əvəzsiz dəyərə malik olub və bəstəkarın xor musiqisi tarixində qoyduğu silinməz izin nişanəsidir.

***Fidan ƏLİYEVA***
***XQ***

# London yanğınları və Cənubi Qafqaz

*"Telegram, kriptovalyuta və süni intellekt: XXI əsrin gizli müharibəsi"*

**XXI əsrdə müharibələr artıq yalnız tankların, raketlərin və orduların qarşıdurması deyil. Dövlətlərarası rəqabət getdikcə daha çox görünməyən müstəviyə – informasiya məkanına, sosial şəbəkələrə və rəqəmsal platformalara daşınır. Son günlər Böyük Britaniyada Baş nazir Kir Starmerlə əlaqəli obyektlərə qarşı törədilmiş yanğınlarla bağlı ortaya çıxan faktlar da məhz bu yeni reallığın növbəti nümunəsi hesab olunur.**

"Financial Times" qəzetinin araşdırmasına görə, hadisələrin arxasında Rusiyadan idarə olunan şəbəkə dayanıb. İstintaq materialları göstərir ki, Londonda yaşayan 22 yaşlı Ukrayna vətəndaşı Roman Lavrinoviç Telegram vasitəsilə əlaqəyə çıxan və "El Money" ləqəbindən istifadə edən şəxs tərəfindən yönləndirilib. Araşdırma müəllifləri həmin şəxsin Rusiyada yerləşdiyini və Kremlin tərəfdarı kimi tanınan NoName057(16) qruplaşması ilə əlaqələrinin olduğunu yazırlar.

Lakin hadisənin əsl mahiyyəti yanğınlardan daha genişdir.



### Yeni təxribatın texnologiyası

Araşdırmadan görünür ki, Lavrinoviç əvvəlcə xırda tapşırıqlarla sınaqdan keçirilib. O, gecələr müxtəlif yerlərə plakatlar yapışdırıb, daha sonra müəyyən ideoloji məzmunların yayılmasına cəlb olunub. Sonrakı mərhələdə isə daha riskli əməliyyatlar həyata keçirib.

Bu model xüsusi diqqət çəkir. Çünki burada klassik casusluq və ya terror sxemi deyil, sosial şəbəkələr vasitəsilə həyata keçirilən mərhələli radikallaşdırma və idarəetmə mexanizmi görünür. İşsiz, əlavə qazanc axtaran və ya sosial cəhətdən həssas insanlar internet üzərindən tapılır, kiçik ödənişlər müqabilində müxtəlif fəaliyyətlərə cəlb edilir və zamanla daha ciddi tapşırıqların icraçısına çevrilirlər.

Müasir dövrdə "agent" anlayışı da dəyişib. Artıq xüsusi hazırlıq keçmiş peşəkar kəşfiyyatçıya ehtiyac yoxdur. Telegram hesabı, kriptovalyuta pul kisəsi və bir neçə saxta profil bəzən ənənəvi agentura şəbəkəsini əvəz edə bilir.

### Süni intellekt və saxtakarlıq

"Financial Times"ın diqqət çəkdiyi məqamlardan biri də "Direct Action" adlı qrupun fəaliyyəti ilə bağlıdır. İlk baxışdan Britaniyada fəaliyyət göstərən ultra-sağçı təşkilat təsiri bağışlayan bu qurumun arxasında əslində xaricdən idarə olunan şəbəkənin dayandığı bildirilir.

Araşdırmada qeyd olunur ki, müxtəlif videoların, şəkillərin və təbliğat materiallarının hazırlanmasında süni intellekt imkanlarından istifadə olunub.

Bu isə yeni təhlükə yaradır. Bir neçə il əvvəl dezinformasiya əsasən saxta mətnlərdən ibarət idisə, indi süni intellekt vasitəsilə tamamilə real görünən videoçarxlar, fotoşəkillər və audioyazılar yaratmaq mümkündür. Belə materiallar milyonlarla insana çatdırıldıqda onların həqiqi olub-olmadığını müəyyən etmək getdikcə çətinləşir.

Bu səbəbdən ekspertlər yaxın illərdə "deepfake müharibələri"nin informasiya təhlükəsizliyinin əsas problemlərindən birinə çevriləcəyini bildirirlər.

### Azərbaycan kənarda deyil

Son illərdə Azərbaycanla bağlı sosial şəbəkələrdə yayılan çoxsaylı manipulyativ kampaniyalar bu təhlükənin regionumuza da çatdığını göstərir.

Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra sosial mediada saxta videoların, montaj edilmiş görüntülərin və süni şəkildə yaradılmış məlumatların sayı əhəmiyyətli dərəcədə artıb. Bəzən Azərbaycan cəmiyyətində dini, etnik və ya siyasi qarşıdurma yaratmağa hesablanmış materiallar yayılıb.

Maraqlıdır ki, bu materialların bir qismi müxtəlif dillərdə eyni vaxtda yayılır. Bir çox hallarda onların ilkin mənbəyini müəyyən etmək mümkün olmur. Məhz bu xüsusiyyət hibrid müharibənin əsas əlamətlərindən biri hesab edilir.

Məqsəd insanların nə düşündüyünü dəyişməkdən daha çox, onların heç nəyə inanmamasını təmin etməkdir. İnformasiya xaosu yaradıldıqda cəmiyyət həqiqətlə yalanı ayırmaqda çətinlik çəkir və bu da xarici təsirlərə əlverişli zəmin yaradır.

### Cənubi Qafqaz – yeni informasiya poliqonu

Son illər regionda müşahidə olunan proseslər göstərir ki, Cənubi Qafqaz yalnız geosiyasi deyil, həm də informasiya mübarizəsinin əsas meydanlarından birinə çevrilib.

Azərbaycan, Ermənistan və Gürcüstanla bağlı müxtəlif xarici mərkəzlərdən idarə olunan sosial media kampaniyaları, koordinasiyalı informasiya hücumları və kiberfəaliyyətlər barədə məlumatlar vaxtaşırı beynəlxalq hesabatlarda da yer alır.

Regionun strateji mövqeyi, enerji layihələri, nəqliyyat dəhlizləri və böyük güclərin maraqlarının toqquşması informasiya mübarizəsini daha da intensivləşdirir.

Bu baxımdan Londonda baş vermiş hadisə yalnız Britaniyanın daxili təhlükəsizlik məsələsi deyil. O, müasir dünyanın hansı istiqamətdə dəyişdiyini göstərən nümunədir.

### İnformasiya müharibəsinin dərsləri

Azərbaycan son onillikdə, xüsusilə də 2020-ci ildə baş vermiş Vətən müharibəsi dövründə müasir informasiya mübarizəsinin nə qədər əhəmiyyətli olduğunu yaxından müşahidə etdi. Döyüşlər yalnız cəbhə xəttində getmirdi. Paralel olaraq sosial şəbəkələrdə, beynəlxalq mediada, müxtəlif internet platformalarında və mesajlaşma tətbiqlərində də ciddi informasiya savaşı aparılırdı.

Həmin dövrdə saxta videoların yayılması, köhnə görüntülərin yeni hadisə kimi təqdim edilməsi, fotomontajlardan istifadə olunması və manipulyativ xəbərlərin dövriyyəyə buraxılması müasir informasiya müharibəsinin əsas alətlərindən birinə çevrilmişdi.

Azərbaycanın əldə etdiyi əsas dərslərdən biri informasiya təhlükəsizliyinin hərbi təhlükəsizlik qədər vacib olması ilə bağlıdır. Müasir dünyada dövlətin sərhədləri yalnız quru, hava və dəniz məkanında deyil, həm də rəqəmsal mühitdə qorunmalıdır.

İkinci mühüm nəticə media savadlılığının artırılması ilə bağlıdır. İnternet istifadəçilərinin böyük hissəsi qarşılarına çıxan məlumatın mənbəyini yoxlamadan paylaşır. Halbuki hibrid müharibənin əsas məqsədlərindən biri məhz vətəndaşları dezinformasiyanın daşıyıcısına çevirməkdir.

Üçüncü vacib məqam süni intellekt texnologiyalarının yaratdığı yeni çağırışlardır. Artıq fotoşəkillər, videolar və hətta səs yazıları elə bir səviyyədə saxtalaşdırılır ki, onları peşəkar ekspertiza olmadan müəyyən etmək çətinləşir.

### Müharibələrin səngərləri dəyişib

Bir əsr əvvəl dövlətlər bir-birinə müharibə elan edəndə insanlar ilk növbədə top səslərini eşidirdilər. Sərhədlər tanklarla keçilir, şəhərlər bombardman edilir, qələbə isə işğal olunmuş ərazilərlə ölçülürdü.

Bu gün isə dünya tamamilə fərqli mərhələyə qədəm qoyub.

Müasir dövrün ən təhlükəli silahlarından bəziləri görünmür. Onların nə gurultusu var, nə tüstüsü, nə də dağıtdığı binalar göz önündədir. Lakin təsiri bəzən raket zərbələrindən daha güclü olur. Bir sosial şəbəkə paylaşımı, süni intellektlə hazırlanmış video, anonim Telegram kanalı və ya minlərlə saxta hesab vasitəsilə yayılan dezinformasiya bütöv cəmiyyətlərin davranışına təsir göstərə bilir.

Ən təhlükəlisi isə budur ki, müasir hibrid müharibələr insanları öldürməkdən daha çox onların düşüncə tərzini dəyişdirməyə yönəlir. Məqsəd şəhərləri işğal etmək deyil, insanların şüuruna daxil olmaqdır.

"Telegram, kriptovalyuta və süni intellekt: XXI əsrin görünməyən müharibəsi"ndə üstünlük qazanan tərəfdən daha böyük nəticələr əldə edir.

Tarix göstərir ki, hər dövr öz müharibə üsullarını yaradır. Ox və qılınc yerini tüfəngə, tüfəng yerini raketə verdiyi kimi, indi də raketin yanında yeni bir silah meydana çıxıb – informasiya.

Bu silahın hədəfi torpaq deyil, insan zehnidir.

Bəlkə də XXI əsrin ən böyük geosiyasi mübarizəsi məhz burada – görünməyən cəbhədə, ekranların arxasında, məlumat axınlarının içərisində gedir. Həmin mübarizədə qalib gəlmək üçün isə həqiqəti qorumaq, onu vaxtında müəyyən etmək və cəmiyyətə çatdırmaq hər zamankından daha vacibdir.

Çünki müharibələrin səngərləri dəyişib. İndi onlar bəzən sərhədlərdə deyil, informasiya məkanında qurulur.

***Renat AĞA,***
***siyasi icmalçı***



# "Azərtikintiservis" ASC-nin 2026-cı il yanvarın 1-nə müəssisə balansı

**Müəssiəsə, təşkilat: "Azərtikintiservis" ASC**
**Sahə (fəaliyyət növü): Tikinti-quraşdırma**

| Aktiv | Sətr kodu | İlin əvvəlinə | İlin sonuna |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. Əsas vəsaitlər və sair dövriyyədənkənar aktivlər | | | |
| Əsas vəsaitlər: - ilk (bərpa) dəyəri* (01, 03) | 010 | 1465965 | 1465965 |
| - köhnəlmə* (02) | 011 | 1311868 | 1314949 |
| - qalıq dəyəri | 012 | 154096 | 151016 |
| Qeyri-maddi aktivlər: - ilk dəyəri (04) | 020 | 608 | 608 |
| - qalıq dəyəri | 022 | 608 | 608 |
| Uzunmüddətli maliyyə qoyuluşları (06) | 050 | 132 | 132 |
| Təsisçilərlə hesablaşmalar (75) | 060 | 40 | 40 |
| I BÖLMƏ ÜZRƏ CƏMİ | 080 | 154876 | 151796 |
| İstehsal ehtiyatları (10, 15, 16) | 100 | 41620 | 41620 |
| Azqiymətli və tezköhnələn əşyalar: ilk dəyəri (12, 16) | 120 | 20120 | 20120 |
| - köhnəlmə* (13) | 121 | 4627 | 4627 |
| - qalıq dəyəri | 122 | 15493 | 15493 |
| Alınmış qiymətlər üzrə əlavə dəyər vergisi (19) | 175 | 5947 | 5947 |
| Sair ehtiyatlar və məsrəflər | 176 | | |
| II. BÖLMƏ ÜZRƏ CƏMİ | 180 | 63060 | 63060 |
| Debitorlarla hesablaşmalar: mallara, iş və xidmətlərə görə (62, 76) | 200 | 1429 | – |
| törəmə (–) müəssisələrlə (78) | 220 | 53493 | 53493 |
| büdcə ilə (68) | 230 | 12198 | 10480 |
| Sair debitorlarla | 250 | 192 | – |
| Pul vəsaitlərin kassa (50) | 280 | 25 | – |
| hesablaşma hesabı (51) | 290 | 30 | 313 |
| Sair dövriyyə aktivləri | 320 | 144921 | 144921 |
| II BÖLMƏ ÜZRƏ CƏMİ | 330 | 212288 | 209207 |
| Zərərlər: - keçmiş illər (88) | 340 | 528044 | 528044 |
| BALANS (080, 180, 330, 340 və 350 sətirlər üzrə məbləğlərin cəmi..... | 360 | 958268 | 952107 |

| PASSİV | | | |
|---|---|---|---|
| II. XÜSUSİ VƏSAİTLƏRİN MƏNBƏLƏRİN | | | |
| Nizamnamə kapitalı (85) | 400 | 234629 | 234629 |
| Ehtiyat kapital (86) | 402 | 194 | 194 |
| Yığun fondları (88) | 410 | 18016 | 18016 |
| İstehlak fondları (88) | 420 | 13421 | 13421 |
| Sosial sferalar fondu (88) | 430 | 211050 | 211050 |
| Mənfəət: hesabat ilində (dövründə)* (80) | 470 | X | 3723 |
| İstifadə edilmiş (80) | 471 | X | |
| Hesabat ilində (dövründə) bölüşdürülməmiş mənfəət | 472 | X | 3723 |
| 1. BÖLMƏ ÜZRƏ CƏMİ | 480 | 477310 | 477310 |
| Kreditorlarla hesablaşmaları mallara, iş və xidmətlərinə görə (60, 76) | 630 | 75540 | 75540 |
| Əmək ödənişləri üzrə (70) | 650 | 22896 | 22896 |
| Sosial sığorta və təminat üzrə (69) | 660 | 23805 | 23805 |
| Əmlak və şəxsi sığorta üzrə (65) | 670 | 655 | 655 |
| Törəmə müəssisələrlə (78) | 680 | 33838 | 33838 |
| Büdcə ilə (68) | 700 | 65115 | 65115 |
| Sair kreditorlarla | 710 | 154764 | 154764 |
| Alıcılar və sifarişçilərdən alınmış avanslar (64) | 720 | 33752 | 33752 |
| Təsisçilərlə hesablaşmalar (75) | 725 | 36893 | 36893 |
| Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar (89) | 740 | 9500 | 3339 |
| Sair qısamüddətli passivlər | 760 | 24200 | 24200 |
| III. BÖLMƏ ÜZRƏ CƏMİ........ | 770 | 480958 | 474797 |
| BALANS (480 və 770-ci sətirlərin məbləğləri) | 780 | 958268 | 952107 |

*Bu sətirlər üzrə məlumatlar balansım yekununa daxil edilmişdir.

MÜƏSSİSƏNİN XÜSUSİ KAPİTALI VƏ FONDLARININ HƏRƏKƏTİ

Ölçü vahidi: min manat

| | | | |
|---|---|---|---|
| 1. XÜSUSİ KAPİTAL Nizamnamə kapitalı | 010 | 234629 | 234629 |
| Ehtiyat kapitalı | 030 | 195 | 195 |
| Yığım fondları: - cəmi | 060 | 18016 | 18016 |
| Sosial sferaların vəsait fondu | 070 | 211050 | 211050 |
| I bölmənin cəmi | 130 | 463890 | 463890 |
| II. SAİR FONDLAR VƏ EHTİYATLAR | 140 | 13421 | 13421 |
| II bölmənin cəmi | 189 | 13421 | 13421 |

DEBİTOR VƏ KREDİTOR BORCLARI

| | | | | | |
|---|---|---|---|---|---|
| Debitor borclar: qısamüddətli | 310 | 203101 | 149505 | 149505 | 203101 |
| Kreditor borclar: qısamüddətli | 330 | 454066 | 162630 | 162630 | 454066 |

ƏSAS VƏSAİTLƏR HƏRƏKƏTİ

| | | | |
|---|---|---|---|
| 1 Əsas vəsaitlər Binalar | 500 | 459313 | 459313 |
| Qurğular | 501 | 25461 | 25461 |
| Maşın və avadanlıqlar | 503 | 155207 | 155207 |
| Nəqliyyat vasitələri | 504 | 783793 | 783793 |
| İş alətləri, istehsal və təsərrüfat inventarları | 505 | 8875 | 8875 |
| Digər növ əsas vəsaitlər | 509 | 33313 | 33313 |

SOSİAL GÖSTƏRİCİLƏR

| | | | |
|---|---|---|---|
| Sosial-ehtiyaclara ayrılmalar: sosial sığorta fonduna | 710 | 17864 | 17864 |
| İşçilərin orta siyahı sayı | 750 | 14 | |
| İstehlaka yönəldilmiş vəsaitlər | 760 | 87570 | |
| o cümlədən əmək ödənişləri xərcləri | 761 | 87570 | |

UZUNMÜDDƏTLİ İNVESTİSİYA VƏ MALİYYƏ QOYULUŞLARININ MALİYYƏLƏŞDİRİLMƏSİ ÜZRƏ VƏSAİTLƏRİN HƏRƏKƏTİ

| | | | | |
|---|---|---|---|---|
| Müəssisələrin vəsaitlərinin cəmi | 810 | 1465965 | | 1465965 |
| O cümlədən: Əsas vəsaitlarin köhnəlməsi (amortizasiyası) | 811 | 1311868 | 3081 | 1314949 |
| Xüsusi və cəlb edilmiş vəsaitlərin cami (810+820) | 830 | 1465965 | | 1465965 |

| | | | |
|---|---|---|---|
| Məhsulların (iş və xidmətlərin) Satışından mədaxil (ümumi gəlir) | 010 | 131708 | |
| Əlavə dəyər vergisi | 015 | X | 23707 |
| Satılmış məhsulların (iş və xidmətlərin) istehsal məsrəfləri | 040 | X | 131708 |
| Satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclər o cümlədən, | 070 | 17797 | 14074 |
| Mənfəət və zərərlərin cəmi | 080 | 17797 | 14074 |
| Balans mənfəəti yaxud zərəri | 090 | 3723 | |

II- BÜDCƏYƏ ÖDƏMƏLƏR

| | | | |
|---|---|---|---|
| Əmlak vergisi | 300 | 1258 | 1258 |
| Mənfəətdən (gəlirdən) vergi | 310 | 745 | 745 |
| Torpaq vergisi (torpağa görə haqq) | 350 | 593 | 593 |
| Əlavə dəyər vergisi | 355 | 23707 | 23707 |
| Sair vergilər | 386 | 17864 | 17864 |

## Ləğvetmə prosesində olan "AYNUR-119" ASC səhmdarlarının nəzərinə!

Ləğvetmə prosesində olan "AYNUR-119" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1500016431, hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Həsən Əliyev küçəsi 119) səhmdarlarının 2 fevral 2025-ci il tarixli ümumi yığıncağının və 11 may 2026-cı il tarixli növbədənkənar ümumi yığıncağının qərarlarına əsasən cəmiyyətin ləğvi ilə əlaqədar olaraq buraxılmış səhmlərin dövriyyədən çıxarıldığı elan edilir.

Dövriyyədən çıxarılan qiymətli kağızların dövlət qeydiyyat nömrəsi: AZ1001018279.

Qiymətli kağızların növü və forması: adi, adlı səhmlər.

Qiymətli kağızların nominal dəyəri: 2 (iki) manatdır.

Dövriyyədən çıxarılan qiymətli kağızların sayı: 23 085 (iyirmi üç min səksən beş) ədəd.

Bu elan Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı haqqında qanunvericiliyinin tələblərinə uyğun olaraq verilir.

**Ləğvedici: Kərimbəy Əlisa oğlu Kərimzadə.**



# Sosial və iqtisadi məsələlər üzrə Üçtərəfli Komissiyanın iclası



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təmsil olunduğu Sosial və İqtisadi məsələlər üzrə Üçtərəfli Komissiyanın növbəti iclası keçirilib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri, komissiyanın sədri Anar Əliyev, AHİK-in sədri Sahib Məmmədov, ASK-nın sədri Məmməd Musayev və hər üç qurumun əməkdaşları iştirak ediblər. Qeyd edək ki, 2026-cı ildə Komissiyaya sədrlik nazirliyə keçib.

Nazir Anar Əliyev iclası giriş sözü ilə açaraq Prezident İlham Əliyevin tapşırıqları əsasında son illər aparılan sosial islahatlar çərçivəsində əmək qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində mühüm addımların atıldığını qeyd edib. O, yeni qanunvericilik layihələrinin, əmək, məşğulluq və sosial müdafiə sahəsi ilə bağlı təkliflərin, Beynəlxalq Əmək Təşkilatının (BƏT) Konvensiyalarının ratifikasiyası işlərinin sosial tərəfdaşlarla birgə səmərəli müzakirəsi baxımından Üçtərəfli Komissiyanın fəaliyyətinin önəmini vurğulayıb.

AHİK sədri Sahib Məmmədov və ASK sədri Məmməd Musayev ötən dövrdə tərəflər arasında uğurlu sosial tərəfdaşlığın həyata keçirildiyini, Üçtərəfli Komissiyanın apardığı birgə müzakirələrin əhəmiyyətini vurğulayıblar. İclasda da sosial-iqtisadi əhəmiyyət kəsb edən məsələlərin nəzərdən keçirilib.Özünüməşğulluq fəaliyyətini həyata keçirən şəxslərlə bağlı təkliflər, BƏT-in Konvensiyalarına uyğun olaraq əmək qanunvericiliyində növbəti təkmilləşdirmələrin aparılması məsələləri müzakirə olunub.

Onlayn platformalar üzərindən fəaliyyət göstərən şəxslərin hüquqi statusunun, əmək və sosial təminat hüquqlarının müəyyən edilməsi, Üçtərəfli Komissiyanın tərkibində BƏT-in "Sosial dialoq institutları üçün özünü qiymətləndirmə metodu"nun tətbiqi üzrə İşçi Qrupun yaradılması, bu metodun tətbiqi üzrə tədbirlər planının hazırlanması ilə əlaqədar təkliflər də nəzərdən keçirilib.

***XQ***

# Təhsildə nizam və keyfiyyət

**İmişli rayonunun ümumtəhsil müəssisələrində tədrisin keyfiyyətini artırmaq, tərbiyə işinin səmərəliliyini yüksəltmək və məktəblərdə idarəetməni təkmilləşdirmək məqsədilə monitorinqlər keçirilib.**



Nəticələri müzakirə etmək məqsədilə məktəb direktorlarının iştirakı ilə təşkil olunan görüşdə rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev orta məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin bilik və bacarıqlarının artırılması, nizam-intizam, sağlam mənəvi mühitin formalaşdırılması istiqamətində görülən işlərdən bəhs edib.

Rayon prokuroru Valeh Səmədov təhsil ocaqlarında qanunçuluq prinsiplərinə əməl olunmasının vacibliyindən, müəllim-şagird-valideyn münasibətlərində qarşılıqlı hörmətin, etik davranış normalarının və məsuliyyət hissinin qorunmasının əhəmiyyətindən danışıb. Mil-Muğan Regional Təhsil İdarəsinin müdiri Bəhruz Nəbili isə belə tədbirlərin tədrisin keyfiyyətinin yüksəldilməsi və tərbiyə işinin daha səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

***Ərəstun ABDULOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 107 (31076) 20 iyun 2026-cı il, şənbə




## İDMAN

### Süleymanlı Karlsenə qalib gəlib



**Azərbaycanlı qrossmeyster Aydın Süleymanlı şahmat üzrə 16-cı dünya çempionu Maqnus Karlsen üzərində möhtəşəm qələbə qazanıb.**

Honkonqda keçirilən partiya rapid və blits üzrə komandalararası dünya çempionatı çərçivəsində baş tutub.

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, Aydın Süleymanlı dünya reytinqinin liderinə qalib gəlməklə şahmat mediasının diqqətini cəlb edib. Yekunda Azərbaycanın "Odlar Yurdu" komandası Maqnus Karlsenin çıxış etdiyi turnirin əsas favoritlərindən biri olan "WR Chess" üzərində qələbə qazanıb 3,5:2,5.

Qeyd edək ki, "WR Chess"in heyətində Maqnus Karlsen, Fabiano Karuana, Uesli So, Maksim Vaşye-Laqrav və bir sıra digər tanınmış qrossmeysterlər mübarizə aparır.

Hazırda daha çox gənc şahmatçılardan formalaşan "Odlar Yurdu" komandasının 15 xalı var və 8-ci pillədə qərarlaşıb.

### Monqolustanda 1 qızıl, 1 bürünc



**Azərbaycan cüdoçuları Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən "Böyük Dəbilqə" turnirinin ilk gününü iki medalla başa vurublar.**

60 kiloqram çəki dərəcəsində çıxış edən Balabəy Ağayev finalda yaponiyalı dünya çempionu Ryuju Naqayamanı məğlub edib.

60 kiloqramda digər təmsilçimiz Əhməd Yusifov üçüncü yer uğrunda görüşdə İtshak Aşpizə uduzub.

Nizami İmranov (66 kq) isə bürünc medal uğrunda görüşdə yerli idmançı Yolk Kazırbyeki məğlub edərək bürünc mükafata sahib çıxıb.

Xatırladaq ki, "Böyük Dəbilqə" iyunun 21-də başa çatacaq. Azərbaycan yarışda 17 idmançı ilə təmsil olunur.

### "Birləşmiş futbol" yığmamız Dünya Kubokunda



**Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsinin qadınlardan ibarət "Birləşmiş futbol" yığma komandası, 6-11 iyul tarixlərində Fransanın Paris şəhərində keçiriləcək "Xüsusi Olimpiya Birləşmiş Futbol Dünya Kuboku Paris 2026"da ölkəmizi təmsil edəcək.**

Turnir Xüsusi Olimpiya hərəkatının ən mühüm beynəlxalq yarışlarından biri hesab olunur. Ümumilikdə 24 komanda – 12 kişi və 12 qadın komandası iştirak edəcək. Yarışlar inklüziv idmanın inkişafı, idmançılar arasında bərabər imkanların yaradılması və sosial inteqrasiyanın gücləndirilməsi məqsədini daşıyır.

Turnirdə qızlardan ibarət komandamız 7-yə 7 (7v7) formatında oyunlarda mübarizə aparacaq. Azərbaycan yığma komandası B qrupunda Namibiya, Amerika Birləşmiş Ştatları və Qvatemala komandaları ilə mübarizə aparacaq.

Qadınlardan ibarət 11 nəfərlik yığma komandamız ölkə daxilində həyata keçirilən xüsusi olimpiya idman proqramları çərçivəsində formalaşdırılıb. Hazırda komanda turnirə hazırlıq çərçivəsində texniki-taktiki yekun təlim-məşq toplanışı keçirir.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Dünya çempionatı – 2026*

## "Pley-off"a ilk vəsiqələr

**Futbol üzrə dünya çempionatında ikinci turun oyunları davam edir. B qrupunda İsveçrə komandası Bosniya və Herseqovina ilə qarşılaşıb. ABŞ-ın Kaliforniya ştatındakı İnvlvud (Los-Anceles) şəhərində yerləşən "SoFi Stadium"da keçirilən görüş İsveçrə yığmasının 4:1 hesablı qələbəsi ilə yekunlaşıb. İsveçrədə Ruben Varqas, Joan Manzanbi (2 qol), Qranit Caka, Bosniya və Herseqovinada isə Ermin Mahmiç fərqlənib.**



Hazırda İsveçrə 4 xalla turnir cədvəlinə başçılıq edir. Bosniya və Herseqovina isə 1 xalla üçüncü yerdədir.

Meksika komandası bu mərhələdə Cənubi Koreyanı 1:0 hesabı ilə məğlub edərək pley-off mərhələsinə (1/16 finala) yüksəlməyi rəsmən təmin edən ilk komanda olub. Oyunun 50-ci dəqiqəsində Cənubi Koreyanın qapıçısı Kim Seung-Gyunun ciddi səhvindən və topu əlindən qaçırmasından maksimum yararlanan yarımmüdafiəçi Luis Romo topu boş qapıya göndərərək Meksikaya qələbə qazandırıb. 2 oyundan 6 xal toplayan meksikalılar indi rahat pley-off haqqında düşünə bilərlər.

Turnirin ev sahiblərindən olan Kanada isə Qətər üzərində 6:0 hesablı tarixi qələbə qazanaraq növbəti mərhələyə vəsiqəni böyük ölçüdə rəsmiləşdirib. Kanadalı hücumçu Jonathan David het-trik (3 qol) edərək (28, 45+3, 90+2-ci dəqiqələrdə) matçın qəhrəmanı olub. Digər qolları Cyle Larin (16-cı dəqiqə) və Nathan Saliba (64-cü dəqiqə) vurub, 1 qol isə qətərli Məhəmməd Əl-Mannaini öz qapısına (75-ci dəqiqə, avtoqol) vurub.

DÇ-2026-nın 48 komandalı yeni formatına əsasən, qruplarda ilk 2 yeri tutanlarla yanaşı, ən yaxşı 8 üçüncü yerin sahibi də 1/16 finala yüksəlir. Bu qayda çərçivəsində 19 iyula qədər baş tutan oyunları nəzərə alsaq, qruplardakı vəziyyət belədir:

– A Qrupunda vahid liderliyə yüksələn Meksika 2 oyundan 6 xal toplayaraq pley-offa vəsiqəsini 100 faiz təmin edib. Meksikalılar son matçda Çexiya ilə qarşılaşacaqlar.

Cənubi Koreya ilk turdakı qələbə sayəsində 3 xalla 2-ci sıradadır. Koreyalılara növbəti mərhələ üçün son turda CAR ilə heç-heçə etmələri kifayət edə bilər.

Çexiya və CAR-a gəldikdə hər 2 komanda 1 xalla sonrakı yerləri bölüşür. Onların taleyi son turda mütləq qələbədən və vurulacaq qol sayından asılı olacaq.

B Qrupunda Kanada və İsveçrə inamla irəliləyirlər. Hər iki komandanın 2 oyundan sonra 4 xalı var. Kanada top fərqinə (+6) görə liderdir. Bu komandalar qrup mərhələsinin son turunda bir-birlərinə qarşı oynayacaqlar və heç-heçə hər ikisini pley-offa daşıyacaq.

Bosniya və Herseqovina 1 xalla 3-cü sıradadır. Son turda Qətər üzərində qələbə onları ən yaxşı 3-cülər sırasına daxil edə bilər.



Qətər millisinin də 1 xalı var. Sonuncu yerdə olan asiyalıların ağır məğlubiyyətdən sonra pley-off şansları çox zəifləyib.

Dünən axşam ilk olaraq D qrupunda ABŞ – Avstraliya (Sietl stadionu) görüşü keçirildi. Günün ən diqqətçəkən duellərindən birində meydan sahibləri ABŞ-ın pley-off vəsiqəsini erkən sığortalamaq üçün qələbə qazanması vacib idi.

Bu gün gecə C Qrupunda Şotlandiya – Mərakeş, Braziliya – Haiti, səhər isə Türkiyə – Paraqvay (San-Fransisko stadionu) matçları keçirilib. "Ay-ulduzlular" turnirdəki ilk xallarını və pley-off ümidlərini qorumaq üçün bu kritik qarşılaşmada qələbə qazanmalıdırlar.

*Q.YUSİFOĞLU*
*XQ*

## HAVA

### Aranda yağmursuz, dağlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 21-25, gündüz 33-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün ikinci yarısında bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək.

Mülayim şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24, gündüz 35-39, dağlarda gecə 11-16, gündüz 20-25, bəzi yerlərdə 28-32 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Goranboydan Məhərrəm Quliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik İradə Hüseynova və Molekulyar Biologiya İnstitutunun kollektivi AMEA-nın müxbir üzvü Pənah Muradova bacısı

**FAMİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın üzvü, "ELVİ AUDİT FİNANS" MMC-nin direktor-auditoru Elxan İsmayılova qardaşı

**ƏLİ İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri və kollektivi AMEA-nın müxbir üzvü Pənah Muradova bacısı

**FAMİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 730
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00